*ATİF ABBASOV*

# BÖYÜK İSLAM FİLOSOFLARI

***Tbilisi 2017***

*BÖYÜK İSLAM FİLOSOFLARI*

Müəllif:

**Atif Abbasov**

Redaktor:

**Akif Xansultanlı**

Dizayner:

**Əkrəm Qəhrəmanov**

***Müəllif kitabın işıq üzü görməsinə maddi dəstək verdiyinə görə “Bütün Gürcüstan Müsəlmanları İdarəsi”nə təşəkkür edir.***

# Giriş

Son ikiyüz ildə İslamın əsaslarına meydan oxuyan güclü və təsirli yad bir mədəniyyət meydana çıxmaqla İslam dünyasını bir çox sahələrdə təhdid etməyə başladı. Əsasəndə XX əsrdə siyasi müstəqilliyini inşa edən müsəlman dövlətlər, mədəni, iqtisadi, siyasi və sosial sahələrdə Qərbin təsiri altına düşməkdən xilas ola bilmədilər. Müsəlmanlar, müasir Qərb fəlsəfəsi, sənət sahəsi, memarlıq, elm sahələrində isə tibbdən tutmuş ədəbiyyata qədər diqqət çəkən nə vardısa, müsəlman dünyası öz yaşam tərzinə tətbiq etmə yollarında baş sındırırdı.

Qərbdə renessans inqilabları ilə başlayıb, son yüz ildə püxtələşən dəyişikliklərin nəticəsi olaraq ortaya çıxan siyasi, mədəni, sosioloji, hüquqi və s. sahələrdəki uğurlar düşüncə həyatına girməklə yanaşı, həm də hərəkətli olaraq İslam dünyasına daxildən və xaricdən uyğunlaşdırılması istənilirdi. Qərb mədəniyyətinə məxsus bu yeniliklər İslam dünya görüşü və müsəlman cəmiyyətinin yaşam tərzi ilə qarşı-qarşıya durmuşdu. Qərb dünyasının yüksəlişə keçməsi, İslam dünyasının isə çöküşü, müsəlman dövlətləri və cəmiyyətləri qərbin hakim dairələrinin təsiri altına düşməyə başlamışdı. Bu isə sonradan öz siyasi müstəqilliklərini əldə edən müsəlman dövlətlərinə, İslam dininin əsaslarının və eləcə də, öz dəyərlərinin yadlaşdırılmasına səbəb olmuşdur. Təəssüflə qeyd edim ki, bu hal hələdə davam edir.

Müsəlmanların həyat tərzlərini qərblilərinkinə oxşatmaq istəyi, onların İslam və Qərb arasında çırpınışına səbəb olmuş və toplumda psixoloji problemlər yaratmaqda hələ də vasitə rolunu oynamaqdadır. Öz İslami dəyərlərindən uzaqlaşmaq müsəlman dünyası üçün bir fəlakət olmuşdur və bu problemin həlli yolu da hələ ki, tətbiq ediləcək səviyyədə deyil.

Qərb dünyasının öz xeyrinə, öz dəyərlərini müsəlman dünyasına qəbul etdirmək istəkləri çox zaman bu toplumlarda böyük sayda günahsız insanların öldürülməsi, müsəlman məmləkətlərin yerlə-yeksan edilməsi və bu cəmiyyətlərdə xaosla (nizamsızlıqa) sonuclanmışdı. Bunun əsas səbəbi, müsəlmanların əsl İslamdan uzaq düşməsidi. Müsəlmanlar nə zamanki, Qurandan, Həzrəti Məhəmməd və onun pak Əhli-Beytindən uzaq düşdü, yaşadıqları fəlakətlər və bu günümüzdəki düşdükləri ağır durumla qarşılaşdılar.

Son iki əsrdə müsəlmanlar, xüsusən də gənclərin müasir təhsil ardınca Qərb ölkələrinə getmələri və bu gənclərin çoxunun öz dəyərlərindən uzaqlaşmalarına, geri öz ölkələrinə döndükləri zaman öz mühitinə yuxarıdan aşağı baxmasına, özləri ilə gətirdikləri qərbin dəyər və ideologiyasını yaymaqla məşğul olmaları kimi səbəblər, İslam dünyasının tədricən qarışmasına yol açdı. Qərblilər, İslam cəmiyyətlərini dəyişdirmək məqsədilə və öz xeyirləri istiqamətində yerli komprodorlar (iş birlikçilər) vasitəçiliyinə əl ataraq müsəlman cəmiyyətlərində istədiklərini edə bilmişlər.

Qərb dünyası media kimi müasir silahlardan istifadə edərək, öz dəyərlərini müsəlmanların şüuraltına yeritməkdə çətinlik çəkmirlər. Ancaq qərbə gedib müasir təhsil alan gənclərdən bir qismi, öz dini və milli dəyərlərini qorumuş, ölkəsinə geri dönərək öz xalqına haqqı ilə xidmət etməkdən çəkinməmişlər. Onlar sadəcə qərbin yaxşı xüsusiyyətlərini əxz edərək, öz cəmiyyətinə qarşı olan hücumlara sinə gərib müdafiə edirlər. Onlar ətrafındakı təhlükələri, geriləmənin səbəblərini görüb, toplum mühəndisliyi vəzifəsini yerinə yetirirlər. Müsəlman toplumunun inkişafı üçün əllərindən gələnin ən yaxşısını etməyə çalışırlar. Öz ölkəsində, ya da müsəlman ölkələrində ənənəvi təhsil alan şəxslərdən bir çoxu cəmiyyətinin ayaqda durması üçün, müsəlman cəmiyyətinin din, milli və əxlaqi dəyərlərinin qorunması üçün, təhsilin səviyyəsinin yaxşılaşdırılması və ölkəsinin inkişafı üçün ən böyük fədakarlığı öz üzərlərinə düşən vəzifə olaraq mənimsəyirlər.

Gələcək müsəlman nəsillərə İslamın əsasları, qaynaqları, müasir metod və üsullarla çatdırılmalıdır. Keçmişdə beş yüz illik İslamın qızıl dövrünün sınaqdan çıxmış İslam mədəniyyətinin bəşəriyyətə qazandırdığı dəyərlər yenidən dünyaya açıqlanmalıdı. İslam gənclərinə, qürurverici əcdadı, müasir elmlərin təməllərini qoymuş və bu günə çatdırılmasında böyük xidmətləri olan, unudulmuş böyük İslam şəxsiyyətlərinin tanıdılması vacibdi.

İslamın əsasları olan Qurani-Kərim, Həzrəti Peyğəmbərin Hədis və Sünnətləri başa düşüləcək səviyyədə

gələcək nəsillərə ötürülməli, insanlıq tarixinin gördüyü ən mükəm-məl din olan İslam dini ilə tanış etməli və bu istiqamətdə gənclər yetişdirilməlidi. Beləliklə əbədi İslam həqiqəti onların həyatını aydınlığa çıxaracaqdır.

Bəşəriyyət tarixində heç bir din elmə bu qədər dəyər verməmişdir. Heç bir dinin İslam dini kimi bir mədəniy-yət qurmadığına bütün insanlıq şahiddir. İslam mədə-niyyətinin yetişdirdiyi çox sayda böyük şəxsiyyətlərin yazdığı yüzlərcə əsərlər müsəlman nəsillərə çatdırılmalı və bu miraslar təkrar-təkrar oxunub dünyaya tanıtıl-malıdı.

Həzrət Əlinin dediyi kimi: “Uşaqlarınızı yaşayacaqları zəmanəyə görə yetişdirin”. İslam dinini və həqiqətlərini, müasir dünyanın tələblərinə cavab verəcək istiqamətdə başa salmaq lazımdı. İslamın sadəcə namaz və orucdan ibarət olmadığını, İslamın insanın ana bətnindən qəbrə qədər həyatını əhatə etdiyini, nəinki, həyatını, həm də öldükdən sonra axirət həyatını nizamlayan bir din oldu-ğunu unutmaq olmaz. Müasir zamanda İslama zidd olan təhlükələrdən qorunmaq üçün, İslamın əsaslarını möhkəm tutmaq vacibdir. İslamı, gənclərə real və rasio-nal tərəfi ilə anlat-malı, İslam dinini məscidlərin içəri-sindən çıxardıb, müasir təbliğ metodları ilə insanlara çatdırmaq mütləq surətdə lazımdır.

İslam insanın xoşbəxtliyini təmin edir. İmanlı bir müsəlman, müasir dövrdə zamanın meydan oxumala-rına qarşı öz dəyərlərini qoruya bilər. Şərq və qərb dünyasında İslam dinini, zamanın intellektual tələbini

qarşılayan müsəlman şəxslər tərəfindən, unutduğumuz İslam mədəniyyəti gələcək müsəlman nəsillərə və bütün dünyaya tanıdılmalıdı.

Şübhəsiz, müasir zamanda müsəlman şəxsin qarşılaşdığı böyük çətinliklər var. Bu çətinlikləri aşmaq üçün müsəlman şəxs aldığı təhsildən, keçmişi, ailəsinin verdiyi tərbiyə, xarakteri və sahib olduğu dəyərlər kimi xüsusiyyətlərdən istifadə etməlidi. Müsəlman şəxsin bu meydan oxumaya cavabı İslami çərçivədə olmalıdı.

Bu əsər tarixin tozlu səhifələrinə qarışmış İslam mədə-niyyətinin yetişdirdiyi, çox sayda fəlsəfə və elm sahələrində yazılmış olan yüzlərcə əsərlərin müəllifi olan böyük İslam filosofları haqqındadır. Bu əsəri oxuduğumuz zaman görürük ki, İslam filosoflarının və alimlərinin elm sahələrinə verdiyi töhvələri, müasir qərb alimləri ilə müqaisə etdiyimiz zaman onların nə qədər üstün olduğuna şahid oluruq. Əsrlər öncə İslam alimlərinin ortaya qoyduğu elmi kəşflərə müasir qərb alimləri hələdə çata bilməmişdi. Bizim bu önəmli şəxsiyyətlərimizə və yüksək mədəniyyətmizə sahib çıxıb öyrənməmiz lazımdı.

Bu kitabın yazılmasının başlıca səbəblərindən biri budur ki, İslam mədəniyyətinin gələcək nəsillərə ötürülməsində vasitəçi olsun. Bizim keçmiş mədəniyyətmiz gələcəyimizə işıq tutaraq aydınlanacaq. Qərb dünyası qarşısında əzilmiş müsəlman dünyası ancaq keçmişinə sahib çıxaraq inkişaf edə bilər. Bunun üçün də keçmişimizi araşdırmalıyıq və gün işığına çıxartmalıyıq.

Böyük İslam Filosofları və onların qələmə aldığı çox dəyərli əsərləri haqqında qısa məlumat verən bu kitabı sizə çatdırmaqla vicdanımı biraz da olsa rahatlaşdırmış olacam. Bu kitab filosofların ömür yolu və yaradıcılıqları haqqında qısa və önəmli ştrixlərlə əhatə edilmiş bir əsərdir. Bir müsəlman gənc olaraq, mənəvi borcumu az da olsa ödəmək və Allahın rizasını qazanmaq üçün bu kitab İslam filosoflarını haqqı ilə anlatmağa iddialı deyil. Bu daha çox ensiklopedik informasiya məzmunlu fəlsəfənin təməllər üzərindəki təsviridir. Ümid edirəm ki, bu əsər, bu sahədə elmi çalışmalara təkan verəcək, cildlərlə daha əhatəli kitabların yazılmasına vəsilə olacaqdır. Böyük İslam Filosofları adlı araşdırma işi imkan daxilində iki cildli olmağı hədəfləyib. Əlinizdə tutduğunuz birinci cild kitabımızdır. Allah nəsib edərsə ikinci cildini də hazırlayacağıq. Ümid edirəm ki, bu kitabı qürurla oxuyacaq və oxuduqdan sonra daha faydalı məlumatlara sahib oldu-ğunuzu qəbul edəcəksiniz.

ATİF ABBASOV

*Marneuli-GÜRCÜSTAN*

# I

# Bölüm

# İSLAMDA FƏLSƏFƏ MƏKTƏBLƏRİ

# İSLAM FƏLSƏFƏSİNİN ORTAYA ÇIXIŞI

İslam dünyasında fəlsəfənin[1] yaranmasına baxdıqda görürük ki, mühit, zaman və coğrafi amil mühüm əhəmiyyət kəsb edir. İslam dininin təməlini təşkil edən Qurani-Kərim və Hədislər vasitəsilə insanın maddi və mənəvi dünya ilə əlaqəli təfəkkür qaynaqlarının inkişafındakı rolunu dini-fəlsəfi aspektdən incələməklə problemin həllinə varmaq olar. Digər önəmli tərəfi isə İslamda insanların vəhy ilə ağılın əlaqəsi və bu əlaqə müstəvisində düşünmə tərzidir. “Allah hikməti dilədiyinə verir. Kimə hikmət verilirsə, ona çox xeyir verilmiş deməkdir. Ancaq ağıl sahibləri düşünüb ibrət alırlar” (Bəqərə-269). Gördüyünüz kimi, Quranda bir çox ayələr insanı düşünməyə, təfəkkürə və ağlın işlədilməsinə çağırır.

İslam Dünyasında vəhy ilə ağılın əlaqəsi haqqında düşüncələr, elə bu dinin ilk illərinə təsadüf edir. Buna görədə yunan fəlsəfi fikirlərini IX əsrdə ərəbcəyə tərcüməsi və bu tərcümələrin İslam düşüncəsi ilə uyğunlaşdırılması, İslam dünyasında qarşılıqı hikmət[2]

---

[1]**Fəlsəfə:** Fəlsəfə bir dünya görüşü, varlıq haqqında ümumi bir nəzəriyyə, insanın gücü ölçüsündə külli olan varlıqların həqiqəti, mahiyyəti və səbəblərini bilməsi, varlıq və hikmət mənalarına gəlir.

*Kitabda yer alan terminlərin lüğəti açıqlamasında istifadə edilən kitab türk dilindədir. Terminlərin Azərbaycan dilində açıqlanması müəllif tərəfindən verilmişdir. (Adı çəkilən kitab: Mehmet Vural, **İslam Felsefesi Sözlüğü**, Ankara: Elis Yayınları, 2011).

[2]**Hikmət (fəzilət):** Yunan dilində “philo-sophia” kəlməsi“hikmət sevgisi” mənasına gəlir. İslam düşüncəsində fəlsəfə, riyaziyyat, tibb və digər elmlərin hikmət olaraq adlandırılmasına səbəb olmuşdur.

olan fəlsəfənin doğuşuna səbəb olmuşdur. Hikmət bütün dinlərdə və fəlsəfi sistemlərdə ən önəmli əxlaqi dəyərdi. İslam dini hikmətə çox dəyər vermişdir. Müsəlman mütəfəkkirləri sadəcə tərcümə işiylə məşğul olmamışdır. Eyni zamanda tərcümə olunan bu əsərlərə öz fikirlərini və münasibətlərini də bildirmişlər.

Əllamə Təbatəbai hikmət haqqında belə deyir: "İlahi hikmət elə bir elmdir ki, orada yalnız mütləq mövcudun xüsusiyyətləri barəsində, yəni varlıqdan sadəcə var olması cəhətindən bəhs olunur".

İslam dünyasında ilk filosof[3], "Ərəblərin Filosofu" ləqəbi ilə tanınan Əbu Yusif Yaqub ibn İshaq ibn Səbbah Əl-Kindi (801-873) olmuşdur. İslam dünyasındakı filosofların böyük əksəriyyəti əqli düşüncəni canlandırmaq və bu düşüncə sisteminin dinin əleyhinə getmədiyini, ona qarşı olmadığını, nəzəri təfəkkürün inkişafına səbəb olacağı qənaətinə gəlmişdirlər. Eyni zamanda dinin və peyğəmbərliyin gerçək olduğunu isbat etməklə, bunları inkar edənlərə qarşı İslamı və onun peyğəmbərini müdafiə etmişlər.

Əllamə Təbatəbai: "Bu elmin məqsəd və hədəfi... mövcudların ali səbəblərini, məxsusən də bütün mövcudlarına dayandığı İlk səbəbi, o İlk səbəbin gözəl adlarını və üstün sifətlərini tanıtmaqdır. Bu İlk səbəb də adı əziz olan Allahdır". Həmçinin, Əllamə Təbatəbai Hikmət elminin mövzusu barəsində belə deyir: "Hikmət

---

[3] **Filosof (müdrük):** Varlıq, bilgi, dil və dəyərlər sahəsi ilə əlaqəli problemləri əqli və şərhçi bir yanaşma ilə ələ alan bir alimdi.

elminin mövzusu mütləq mövcuddur, yəni "mövcud o cəhətdən ki, mövcuddur" hikmət elminin mövzusudur. Belə ki, hər bir elmin mövzusunda o elmin zatı ərəzlərindən danışılır".[4]

İslam fəlsəfəsinin mövzu qaynaqlarından başlıcası vücuddur. İslamda hər şeydən əvvəl vücud[5], sonra isə onun həqiqətindən bəhs edilir. Mövcud olan hər bir şeyin varlığı onun vücududu. İnsan ilk-öncə özünün vücudu olduğunu, sonra isə özündən kənardakı aləmin vücudu olduğunu dərk edir. Fəlsəfədə vücudun mövcudluğu ilə bərabər onun mahiyyətindən[6] də geniş söz açılır. Bu isə müəyyən zaman kəsimində fəlsəfi məktəblərin qurulmasına gətirib çıxartmışdır. Nəticədə İslam dünyasında önəmli və çox təsirli fəlsəfi düşüncə məktəbləri yaranmışdır.

---

[4] Əllamə Məhəmməd Hüseyn Təbatəbai, **Hikmətin Əvvəli (Bidayət-ul-Hikmə)**, Şərh və əlavələr: Rövşən Abdullaoğlu, Qədim Qala, Bakı-2016, s. 48-49.

[5] **Vücud (varlıq):** İslam fəlsəfəsinə Yunan fəlsəfəsindən gələn ən böyük metafizik problem olmuşdu. Vücud termin olaraq açıq bir şəkildə ilk dəfə Farabi (871-950) tərəfindən İslam fəlsəfəsində ortaya qoyulmuşdu.

[6] **Mahiyət:** Varlığın əslini quran təməl xüsusiyyətdi.

# MƏŞŞA FƏLSƏFƏ MƏKTƏBİ

İslam fəlsəfəsində Aristotelçi[7] cərəyana mənsub olanlara Məşşa adı verilirdi. "Məşşa" kəliməsinin ərəbcə mənası "yeriyən" deməkdi. Aristotel[8] Likeonda (litsey) dərslərini yeriyərək verdiyinə görə, ona və onun tələbələrinə yeriyən adı verilmişdi. Məşşa fəlsəfi məktəbi sadəcə Aristotelçi olduğu üçün ona bu ad verilməmişdi. Bu düşüncə sistemi, İslami prinsiplərin Aristotelçi və Yeni-Əflatunçu[9] fəlsəfə ilə birləşməsindən meydana gəlmişdi.

Məşşa fəlsəfəsinin əsas xüsusiyyəti həqiqətin kəşf olunmasında yalnız əqli yollara istinad etməsindən ibarətdi. Məşşa fəlsəfəsi filosoflara görə həqiqətin kəşf olunması üçün əqli sübutlar yetərlidi. Məşşa fəlsəfəsində əqil çox önəmlidir. Həqiqət axtarmaq üçün əqli mərhələlər kifayət edir. Əməli mərhələlərə və ruhu paklaşdırmaya ehtiyac yoxdur. Məşşa fəlsəfəsi İslam dünyasında müsəlmanlar arasında uzun əsrlər boyu hakim fəlsəfi nəzəriyyə olmuş və geniş coğrafi əraziyə yayılmışdı.

---

[7] **Aristotelçi:** Aristotelinəsərlərinin İslam və Xiristiyan dünyasında şərh edilərək yazılan əsərlər nəticəsində meydana çıxan bir fəlsəfə məktəbidi.

[8] **Aristotel:** B.e.ə. 384-322 ci illər arasında Qədim Yunanistanda yaşamışdı. İslam fəlsəfəsi üzərində çox böyük təsiri olmuşdu. Əflatunun ən yaxşı tələbəsi idi. Müəllimi Əflatunun fəlsəfə sisteminə qarşı çıxaraq öz fəlsəfə sistemini qurmuşdu. Makedoniyalı İsgəndərə səkkiz il müəllimlik etmişdi. Ona "Dünya İmperatorunu yetiştirən ustad" ünvanı verilmişdi.

[9] **Yeni-Əflatunçuluq (Yeni-Platonçuluq):** III əsrdə Plotinus (203-270), Proclus (411-485) kimi Əflatunçu mütəfəkkirlərin təmsil etdikləri teologiya, metafizik və məntiq yönlü düşüncə məktəbidi.

Məşşa fəlsəfəsinin qurucusu olan Kindi bütün həyatı boyu Allahın birliyi, aləmin yaradılışı və çoxluğu əlaqəsini araşdırmışdı. Həyatını vəhy ilə ağlın arasındakı bağlantı, ağlın mənası, fəlsəfə ilə elmin əlaqəsi və digər önəmli mövzuların araşdırılmasına həsr etmişdi. Kindi ərəb dili ilə fəlsəfə mövzuları yazıb düşünən, ərəbcəyi fəlsəfə və elm dili edən ilk şəxsdi.[10] Buna görə onu İslam fəlsəfəsinin ilk filosofu və atası adlandırırlar. Kindi ömrünün son illərini insanlardan uzaqlaşaraq yaşamışdı. Onu ikinci böyük İslam filosofu olan Farabi izləmişdir.

Əbunəsr Məhəmməd ibn Məhəmməd ibn Tərxan ibn Uzluğ ibn Tərxan Farabi (Əbunəsr Farabitəxminən 873 – 950-ci illərdə yaşaması güman olunur.) Orta Asyadan olan bir türkdü. İslam mədəniyyətinin meydana çıxartdığı ən böyük dahilərdən biri olan Farabi həm bir filosof, həm mətiqçi, həmdə bir siyasi düşüncənin banisi idi. O, eyni zamanda bir riyaziyyatçı və ənənəvi musiqi dahisi olmuşdu. Bunlardan başqa bir çox elmlərlə məşğul olurdu. 80 yaşlı filosof həyatının son illərini dəfn olduğu Şam şəhərində keçirmişdi.

Kindinin miras qoyduğu ərəbcəyi bir fəlsəfə, məntiq[11] və elm dili etmək istəyini və ona məxsus yarımçıq qalan çalışmalarını Farabi davam etdirməyi qərara almışdır. Farabi, Aristotelin əsərlərinə şərhlər və məntiq

---

[10] Hüseyin Nasır, Seyyid, **Genç Müslümana Modern Dünya Rehberi**, (Tercüme Şahabeddin Yalçın), İstanbul: İZ YAYINCILK, 2012, s. 100.

[11]**Məntiq (ilmul-mizan):** Kəlimə olaraq danışmaq, düşünmək söz söyləmək və ağıl mənasına gəlir.

sahəsində bir çox əsərlər yaradan filosof kimi tarixdə özünəməxsus yer tutmuşdur. İslami siyasət və yaxud da siyasi islam qavramının atası sayılan Farabi bu mövzuda “əl-Mədinətül-fazıla”[12] adlı əsəri ilə tanınır. Onun “Kitab əl-Musikal-Kəbir”[13] adlı önəmli bu əsəridə günümüzə qədər gəlib çatan nadir fəlsəfi incilərimiz sırasındadır.

Elm dünyasında “Muallimi Sani” (“ikinci müəllim”) ləqəbi ilə məşhur olan Farabiyə bu adı təkcə müəllim olduğu üçün deyil, həm də elmləri tərif etdiyi və sinifləndirdiyi üçün vermişlər. Müsəlmanlar Əflatunu[14] deyil, Aristoteli “Muəllimi əvvəl” (birinci müəllim) olaraq qəbul etmişdilər. Farabinin İslam elmləri üçün etdiyini, Aristotel illər öncə yunan elmləri üçün etmişdi. Farabinin bir kitabının da adı “Fi İhsaül-Ulum”[15]dur. İslam fəlsəfə tarixində böyük və çox əhəmiyyəti olan bu əsər Qərb təhsil sistemində fəlsəfi biliklərin tədrisində ən aparıcı yeri tutduğu halda, təəssüf ki, müsəlmanların təhsil sistemində heç tanınmır.

---

[12]**əl-Mədinətül-fazıla:** Farabinin siyasət fəlsəfəsi sahəsində yazdığı məşhur əsərinin adı olan əl-mədinətül-fazıla, idarəcilərin bilgili və yaxşı vətəndaşlarınınolduğu toplumdu.

[13]**Kitab əl-Musikal-Kəbir:** Farabinin musiqi sahəsində yazdığı ən böyük əsəridi. Bu əsər onun bir musiqi dahisi olduğunu göstərir.

[14]**Əflatun (Platon):** B.e.ə. 427-347 ci illər arasında Afinada yaşıyan qədim Yunan filosofudu. Sokratesin (B.e.ə. 469-399) yetişdirdiyi ən böyük filosofdu. Əflatun İslam dünyasında ən çox tanınan filosofların başında gəlir. O, müsəlman filosoflarına çox təsir etmişdi. Təsirini Farabi fəlsəfəsində görmək mümkündü. Məşşai filosofları Aristoteldən də təsirlənmişlər. Lakin onlar nəfsin ölümsüzlüyü kimi mövzularda Əflatuna daha yaxındırlar.

[15]**Fi İhsaül-Ulum:** Farabi bu əsərində elmləri bir birindən ayırmışdı. Onları müstəqil elm olaraq göstərir.

Bağdad Abbasilər dönəmində İslam fəlsəfəsinin mərkəzi hesab olunurdu. X əsrdə böyük məntiqşünas və elm adamı Əbu Süleyman əs-Sicistani kimi şəxsiyyətlər Bağdada gələrək fəlsəfə təhsillərini davam etmişdilər. Zəifləyən Abbasi xilafəti dönəmində, fəlsəfənin mərkəzi Bağdaddan Xorasana keçmişdir. Məşşa məktəbini inkişaf etdirmək üçün, Əbul-Həsən əl-Əmiri kimi alimlər, Kindi və Farabinin əsərləri üzərində çalışırdılar. Əmiri üləmalar arasında bir Məşşa filosofu kimi tanınırdı. Onun islamı və İslam əxlaqı müdafiə edən “əl-İlam bi-Menakıb əl-İslam” və “əl-Səadət vəl-İsad” əsərləri bu günümüz üçün də aktualdır.[16]

Əbu Əli Hüseyn ibn Abdullah ibn Həsən ibn Əli ibn Sina (qərb aləmində adı Avisenna; 980 - 1037)Məşşa fəlsəfə məktəbini sistemləştirən İslamın bənzərsiz ən böyük filosoflarından biridir. O, bir mədəniyyətin yarada biləcəyi ən böyük ümumdünya miqyaslı dahisindən biridir. İbn Sinanın elm aləminə gəlişi ilə Kindi, Farabi və Əmiri kimi nəhəngləri izləyən digər filosofların çalışmaları kölgədə qalmışdı. İbn Sinanın ana dili Farsca olmasına baxmayaraq, əsərlərinin çoxunu ərəb dilində yazmışdır. O dönəmin ən böyük elm mərkəzi Bağdad olmasına baxmayaraq, O, heç ora getməmiş və həyatını tamamilə İranda keçirmişdi.

57 il ömür sürən İbn Sina, fəlsəfə və tibb sahəsində şahəsərlər yazmışdır. Hələ 16 yaşında məşhur bir həkim olan İbn Sinayı çox insan, tarixin ən böyük həkimi olaraq

[16] **Əvvəlki əsər, s, 101.**

görürdülər. Qərblilər onu "Həkimlərin Kralı" ünvanına layiq görmüşdürlər. İbn Sinanın "əl-Qanun fit-Tibb" adlı əsəri ən məşhur tibb kitabı olmaqla yanaşı, o kitab həm də, tibb fəlsəfəsinin ən önəmli mənbələrinin başında gəlir.[17]

İbn Sina Məşşa fəlsəfəsinin son sintezini meydana gətirmişdir. İbn Sina Allahın birliyinə, peyğəmbərliyin haqq olduğuna, ağlın istifadə edilərək və insanın Allaha dönüşünə dayanan İslami baxış ilə Əflatun və Aristotel məktəblərinin fəlsəfi prinsiplərini əlavə edərək bir sintez yaratmışdı. İbn Sina Kindi və Farabini izləyərək geniş bir sintez meydana gətirmişdi və bəşər tarixində yazılmış ən böyük fəlsəfə ensiklopediyası olan "Kitabüş-Şifa"[18]yı yazmışdı.

İslamda ən böyük fəlsəfə ensiklopediyası olan "Kitabüş-Şifa" sadəcə fəlsəfə deyil, məntiq, təbiət elmləri və riyaziyyat ilə əlaqəli mövzuları da əhatə edir. İbn Sina "əl-İşarət vət-Tənbihat" adlı əsərində ağıldan çox hiss etməyə dayanan fəlsəfə düşüncəsini ortaya qoymuşdur.

İbn Sina həyatının sonlarına yaxınlaşdığı zaman inkişaf etdirdiyi yeni bir fəlsəfə düşüncəsi yəni "Şərq Fəlsəfəsi"nin pirinsiplərini tərtib etməyə başlamışdır.

---

[17] Voskoboynikov, Valeri, **Böyük Loğman İBN SİNA,**(tercümeyi-hal), (Tərcümə edən: Zeynal Babayev), Bakı: Kitab Klubu, 2014.

[18]**Kitabüş-Şifa:** İbn Sinanın 1020-1027-ci illər arasında yazdığı bu əsərində məntiq, fizika (təbiət), riyaziyyat və metafizika (ilahiyat) mövzularından bəhs etmişdi. Burada həmçinin, qan, bəlğəm, safra və s. kimi tibbi mövzular da yer almışdı.

İbn Sinadan sonra İslam dünyasının Şərq vilayətlərində kəlamın (Sxolastikanın) güclü olması səbəbi ilə İslam fəlsəfəsi zəifləməyə başladı. Bu dövrdə Səlçuqlu və Abbasi Xəlifəliyinin dəstəyi nəticəsində Əşəri[19] sxolastika[20] məktəbi fəlsəfəyə qarşı üstünlük əldə etdi. Üç məsələdə filosofların arasında ixtilaf yaranmışdı. Birincisi aləmin yoxdan yaradılışı, ikincisi isə Allahın cüziyyət[21] ilə əlaqəli elmi və üçüncü cismin həşiri idi. Qəzzali filosofları əsərlərində tənqid və ittiham etməyə başladıqdan sonra İslam dünyasında fəlsəfə geriləməyə başladı. Bu dönəmin ən önəmli şəxsiyyətləri Musəvilikdən İslama keçən filosof Əbul Bərəkət əl-Bağdadi və astronomiya elminin kamil bilicisi, riyaziyyatçı, İbn Sina məktəbinə meyilli filosof-şair Ömər Xəyyam idi.

---

[19] Adını öz qurucusu olan Əbul-Həsən əl-Əşəridən (874-935) alan İslam məzhəblərindən biri. Bu məzhəb Allaha iman mövzusunda sadəcə söz ilə təsdiq etmənin yetərli olduğunu, imanın artıb azala bilən xüsusiyətə malik olduğunu, Allahın həm özündən eyni olmayan həm də özündən qeyri olmayan sifətlərinin olduğunu və insan ağlının tək başına doğru bilgiyi əldə edə bilməyəcəyi üçün, vəhy olmasa məsuliyətin də olmayacağını, vəhyin çatdırıldığı insanın məsuliyət daşıdığı fikrinə dayanır. Onlara görə ağıl ilə həqiqətə varılmaz.

[20] İslamın əsas prinsiplərindən biri, əqidə əsaslarından bəhs edən elmdir.

[21] **Cüziyyət (tərsi: külliyət):** Fərdi varlıq və hadisələr.

# İŞRAQ FƏLSƏFƏ MƏKTƏBİ

Şərq dünyasında, xüsusən də İranda vəziyyət etibarı ilə İslam fəlsəfəsi fərqli olmuşdur. Məşşa fəlsəfəsinin sistemləşərək genişləndiyi bir dövrdə, yeni bir fəlsəfi cərəyan meydana çıxdı. İşraq fəlsəfə məktəbini, məşhur Cənubi Azərbaycanlı filosof Şeyxi İşraq Şihabəddin Yəhya Sührəvərdi (1154-1191) qurmuşdur. İşraqın kəlimə mənası aydınlanmaq və işiqlanma deməkdir. Rəvayətə görə 38 yaşında həyata gözlərini yuman filosof Hələbdə zindan da öldürülmüşdür. Qısa həyatı boyunca Məşşa fəlsəfəsnin tənqidini edən işraq fəlsəfəsi, aydınlanma yəni daxili təmizliyi və ruhi intizamı müdafiə etmişdi.

Məşşa fəlsəfəsinə qarşı olunan sərt tənqid nəticəsində qədim yunan, İran fəlsəfəsi və Quran təlimləri, İşraq fəlsəfə məktəbinin yaranmasına zəminə yaratmışdır. V əsrdən sonra şərq aləminə əşəriə firqəsinin fikirlərinin hakim olması və  Qəzzalinin yaranmış vəziyyətdən istifadə edərək fəlsəfəyə çox ağır zərbələr vurması İslam aləmində rasional fəlsəfənin zəifləməsinə səbəb olmuşdur. Şeyx İşraq bu boşduğu dolduraraq yeni bir fəlsəfə məktəbi, yəni işraq fəlsəfə məktəbini təsis etdi. [22]

Başqa filosoflara qarşı olunan haqsızlıqlar Şeyx İşraqa qarşı da olub. O cümlədən bir sıra radikal və təəssübkeş

[22] Yəhya Yəsribi, **Hikməte eşraqe Sohravardi-** تاریخ اشراق سهروردی **(Sohravardinin işraq fəlsəfəsi)**, bustane kitab nəşriyyatı 2014. (Farscadan tərcümə: Kamran Mamedov)

dindarların fikrincə, Şeyxin əsərlərini oxumaq bir xəta və zındıqlıq hesab olunurdu.

Şeyx İşraqinin varlıq anlayışına verdiyi tərif Farabi və İbni Sinaya nisbət verməklə yanaşı, Məşşa məktəbindən də fərqlənməsinə səbəb olan ən önəmli amil idi. Beləki, Şeyx İşraq varlığı bir nura bənzədir və qeyd edir ki, həqiqətdə bir-birindən fərqli deyillər, fərqli olma cəhətləri zəif və güclü olmasındadır. Misal üçün: Günəş və ay nurunu nəzərdən keçirin. Hər ikisi nurdur və bir həqiqətdir. Ancaq eyni zamanda bir-birilərindən fərqlidirlər, fərqli olma cəhətləri isə həqiqətlərində deyil, birinin zəif və digərinin güclü olmasıdır. [23]

Sührəvərdinin "Hikmətül-İşraq" adlı əsəri İslam fəlsəfəsinə dərin təsir göstərmişdir. İşraq fəlsəfəsində əsas olan həqiqətin kəşf olunmasında izlənilən əqli yol ağıl və isbat ilə, eyni zamanda ruhunu paklaşdırılması mərhələləridir.

Sührəvərdi bütün mövcudatı nur və zülmətdən ibarət olaraq qəbul etmişdi. [24] Sührəvərdiyə görə nur ilə zülməti seyr edərək "Nurül-ənvər"[25] ("nurların-nuru") yəni Allahı tapmaq lazımdı. İşraqilər özlərini Əflatunun

---

[23] Həsən Müəllimi, **fəlsəfeye işraq-** فلسفه اشراق **(işraq fəlsəfəsi)**, Tehran, naşir: hümanitar elmlərlə bağlı araşdırma və kitabların tədvini mərkəzi 2014.(Farscadan tərcümə: Kamran Mamedov)

[24] Kaya, Mahmut, **İslam Filozoflarından Felsefe Metinleri**, İstanbul: KLASİK Yayınları, Dokuzuncu Basım, 2013. s. 509.

[25] **Nurül-ənvər (nurların-nuru):** İşraq fəlsəfəsində Allaha verilən bir addır. Bu fəlsəfəyə görə bütün nurlar Allahdan olub, O, "Nurların-nuru" olaraq hər şeyi əhatə etmişdir.

varisləri hesab edirdilər. Məşşai və İşraq fəlsəfi cərəyanları arasında ixtilaf həqiqətin kəşf edilməsində idi. Aralarındaki fərq İşraqilərin həqiqəti kəşf etməkdə zəruri bildikləri ikinci şərtdir, yəni ruhun paklanmasıdı.[26]

İşraq eyni zamanda özü vasitəsi ilə səmavi hərəkətlərin nizamlandığı bir prinsipdir. İşraq, "nurların-nuru"ndan insani səviyyəyə bəzi vasitəçi prinsiplərlə yayılır. Bunlar "yönətici işıqlardı" ("əl-ənvarül-müdəbbirə"). "Nurların-nuru" yəni Allah hər şeyə hökm edər. Öz zatına ən çox zahir olandı. "Nurların-nuru" özündən daşar ("feyyaz biz-zat") və özü ilə sifətləri birdir. Ülvi İşraqlar işıqlar vasitəsi ilə insan ruhuna (nəfsinə) çatdığı zaman şəxsə bütün bilgilər verilmiş olur. Elə bu zaman görmə təcrübəsinin təməli olan və hədsiz bilgi qazanmaya səbəb olan "İlhami işıqlar"ın görüldüyü andır. Sührəvərdinin bu fəlsəfi açıqlamaları İşraq fəsəfənin formalaşmasında əsas təməl daşları təşkil edir.

Sührəvərdiyə görə görmənin zaman içində bir nəzərinin olmaması və görülən şey ilə görən arasında maddi heç bir əlaqəsinin olmaması, görmənin düşünmədən əvvəl gəlməsi və ondan daha üstün bir xüsusiyyətə sahib olduğu mənaya gəlir. Görmə nəzəriyyəsi Sührəvərdi tərəfindən inkişaf etdirilərək,

---

[26] Editörler: Seyyid Hüseyin Nasır ve Oliver Leaman, **İslam Felsefesi Tarihi,** Cilt:2,Tercüme: Şamil Öçal-Hasan Tuncay Başoğlu, İstanbul: Açılım kitap, 2011. s. 86-90.

İşraq fəlsəfəsində metafizikada geniş ölçüdə açıxlanmışdı.

Qısacası, İşraq fəlsəfəsinin əsaslarından birisi görməyi və müşahidəyi idarə edən qanunların, işığın varlığı görümə və aydınlanma felindən ibarət olan eyni prinsipə dayanmış olmalarıdı. Sührəvərdinin İşraq fəlsəfəsində, işıq, işraq (aydınlanma), görmə, yaradıcı fəaliyyətlər və daha da geniş olarsa hər şey "Nurların-nuru"ndan daşan işığın varlığı ilə açıqlana bilər.

Son olaraq, "Şərhut-Telvihat"da görüldüyü kimi İbn Kəmmunənin Sührəvərdinin İşraq fəlsəfəsinə gətirdiyi şərh İranda, daha sonrakı dövrlərdə fəlsəfi inkişaf üzərində böyük təsir qoymuşdu. Xüsusən həm Mir Damad, həm də ondan sonra gələn Molla Sadra əsərlərində onun şərhlərindən misallar gətirib sübutlarından çoxlu istifadə etmişlər. İbn Kəmmunənin məqsədlərindən biri də Sührəvərdinin qısa və çətin üslubunun açıq hala gətirilməsidi. İbn Kəmmunə İşraqi fəlsəfənin açıqlanmasında və filosofların daha asan başa düşülməsinə kömək etmişdi.

## Mütəaliyə Fəlsəfə Məktəbi

Mütəaliyə fəlsəfə məktəbi İbn Sina və Sührəvərdinin düşüncələrini birləşdirməyə çalışan, ilahiyyatçı, filosofşair Mir Damad tərəfindən qurulmuşdu. Mütəaliyə fəlsəfə məktəbinin ən önəmli və təsirli şəxslərindən biri Sədrəddin Şirazidir. Mir Damadın sevimli tələbəsi olmuşdur. Sədrəddin Şirazi və ya Molla Sədra (1571-1641) fars filosofu adı ilə şöhrət qazanmışdı.

Xüsusilə zamanın mənasına göstərdiyi əlaqə ilə tanınan Mir Damad Allahın əzəli və əbədi varlığı ilə dünyanın yaradılışı arasındakı əlaqə problemini həll etməyə çalışmışdı. Ona görə bu çözüm həm "Allah ol deyər və olar" Quran cəhətdən, həm də Allah Yaradıcı olduğundan və heç bir şey Onun zatını dəyişdirməyəcəyindən davamlı yaratması prinsipi cəhətdən, əksi olduğu halda Xaliq (Yaradıcı) olma sifətini itirər. Ən məşhur əsəri "Qəbasat" ("parıltı") zaman qavramını və dünyanın yaradılışını müzakirə edir. Molla Sədra bir mənada İslam fəlsəfəsinin bir xülasəsi və cürbəcür İslam fəlsəfi və sxolastika məktəbinin son sintezidi. Qurani-Kərim və hədisdən, ilk müsəlman dini şəxsiyyətlərinin sözlərindən, Məşşa fəlsəfəsindən, İşraq məktəbindən, sünnü və şiə sxolastikasından və

nəhayət mərifət[27] və ya irfan[28] məktəbindən faydalanan Molla Sədra bu hədsiz hikmət toplusundan geniş bir sintez meydana gətirmişdi. Molla Sədra insanın üç bilgi əldə etməsinin yoluna sahib olduğunu düşünürdü: vəhy, ağıl və aydınlanma ya da ki, kəşf. O, insanın bu üç mənbədən öyrənə biləcəklərini bir araya gətirən bir "hikmət" düsturu yarat-mıştı.[29]

Molla Sədra fəlsəfi fikirlərlə Quran və sünnə arasında vəhdət əlaqəsi qurmağa çalışmışdır və bunu bacarmışdır. Molla Sədraya görə İslam fəlsəfəsi Quran və sünnə ilə mütləq əlaqəli olmalıdı. Onun müdafiyə etdiyi əqli nəticələrlə şəriət (Quran və sünnə) bir-biri ilə ziddiyyət təşkil edə bilməzdi.

İslam sadəcə insanların ona görə yaşamaq məcburiyyətində olduğu ilahi qanuna sahib bir din deyildi. O, eyni zamanda insanları düşüncə fəaliyyətinə istiqamət-ləndirən geniş bir fikirə sahibdi. İslam 1400 illik bir dövrdə dünyanın ən zəngin intellektual axımları və düşüncə sistemlərini meydana gətirmişdi. İslam düşün-cə məktəblərinin bütün kökləri Qurani-Kərim, hədis və tövhid düşüncələrinə bağlı olmuşdur.

---

[27] **Mərifət (irfan):**Əldə edilmiş baxış və qənaətdi. Təsəvvüf fəlsəfəsində sufilərin ruhani halları yaşayaraq, mənəvi və ilahi həqiqətləri dadmaq, daxili təcrübə ilə əldə etdikləri məlumatdı.

[28] **İrfan:** Mərifət, kəşf, ilham, hiss və ruhi təcrübə ilə əldə edilən bilgidi.

[29] Nasır, Seyyid, **Genç Müslümana Modern Dünya Rehberi**, (Tercüme Şahabeddin Yalçın), İstanbul: İZ YAYINCILK, 2012, s. 105-106.

Daima vəhyin reallığını və şəriətin əhəmiyyətini fərqləndirməklə qəbul etmişlər.

Onlar həqiqəti vəhyin xaricində axtaran modern və postmodern kimi fəlsəfi düşüncələr və elmi iddialar ilə meydan oxuyan müasir dünyaya müsəlmanların cavab verə biləcəyi İslam dini dünya görüşünü miras olaraq bıraxmışdır.

# II

Bölüm

# ORTA ƏSRLƏRDƏ

# BÖYÜK İSLAM FİLOSOFLARI

**Əl-Kindi:**

*“Bir şeyin ticarətini edən onu satar. Satdığı isə artıq özünün olmaz. Bu səbəbdən din ticarəti edənin dini yoxdur”...*



# KİNDİ (801- 866)

Əbu Yusif Yaqub ibn İshaq ibn Səbbah əl-Kindi İslam düşüncə tarixində ilk İslam filosofu olaraq tanınır. Kindi, uşaq yaşlarında atasını itirib. O, fəlsəfə elminə sxolastikanı öyrəndikdən sonra qədəm qoymuşdur. Gənclik illəri Küfə və Bəsrədə keçib. O dövrün ənənəvi təhsili sayılan mədrəsə təhsilini aldıqdan sonra, dil və ədəbiyyat sahəsində özəl təhsil də almışdır.

Tanınmış və varlı bir ailədən gələn Kindinin həyatı rəfah içində keçib. Bağdadda və Bəsrədə özəl mülkü olub. Abbasi xəlifəsi Məmunun diqqətini çəkən Kindi sarayda təşkil edilən dini, elmi, fəlsəfi və ədəbi toplantılara dəvət olunurmuş. Xəlifə Mutasımın oğlu və

vəliəhdi Əhmədin təhsil və tərbiyəsi ona tapşırılıb. Kindi İslam düşüncə tarixində Məşşa fəlsəfi düşüncə cərəyanını başladan ilk İslam filosofudu. Buna əlavə olaraq o, fəlsəfədən başqa tibb, riyaziyyat, astronomiya, ilahiyyat, siyasət, psixologiya, optik və kimya sahələrində 270-ə yaxın əsər yazmışdı.[30]

## Düşüncələri və Əsərləri

Orta əsrlərdə Kindi Avropada "Alchindus" adı ilə tanınmışdır. Onun 17 əsəri tez bir zamanda latın dilinə, 4 əsərisə İbrani dilinə tərcümə edilmişdir. Halhazırda başqa dillərə də əsərləri tərcümə edilməkdədir.

### 1.İlk fəlsəfə haqqında ("Kitab fil-fəlsəfətil-ula")

Kindi bu əsərində fəlsəfənin nə olduğunu və dəyərini açıqlayır. Varlıq haqqında bilginin necə əldə ediləcəyinin yolunu göstərir. Metod haqqında fəlsəfəyə qarşı olanlar, din ilə fəlsəfə arasındakı əlaqəni araşdırmağa daha meyilli bir filosof olmuşdur.

Kitabın digər qismində ağlın idrakı, kainatın xaricində doluluq və boşluğun olmadığını, araşdırma yöntəmlərində əsas qanun, fizika (təbiət) və metafizika sahələrini, elmlərdə metodlar, əzəlilik qavramının xüsusiyyətləri, aləmin sonlu olduğu və bunun izahı, zaman və hərəkətin sonlu olduğunu, cism, zaman və hərəkət

[30] Kaya, Mahmut, **İslam Filozoflarından Felsefe Metinleri**, İstanbul: KLASİK Yayınları, Dokuzuncu Basım, 2013. s. 3-5.

arasındakı əlaqəni açıqlayır. Kainatın davamlı hərəkət halında olduğunu və gələcək zamanın sonsuz olmadığını təsbit etmək istəyir.

## 2.Allahın birliyi və aləmin sonluğu haqqında ("Risalə fi vahdaniyyətillah və tənahi cirmil-aləm")

Kindi bu əsərində yaradıcının bir neçə yox, onun da özünün tək olduğunu qəbul etdiyini müdafiyə etmişdi. O, öz yaratdıqlarına bənzəməz, çünkü bütün yaradlışda çoxluq mövcuddu. Amma onda əsl çoxluq yoxdu. Buna baxmayaraq Allah yaradıcıdır, başqaları isə yardılmışdır. Allah daimidi, başqaları müvəqqətidi. O, bildirir ki, insan ağıl gözü ilə bu məsələləri düşünməlidir.

## 3.Cisimsiz cövhər[31] haqqında ("Risalə fi ənnəhu tücədu cövahiru la əcsam")

Burada isə cövhərin cinsi cisim deyil, o mənəvi bir cövhərdir,- qənaətinə gəlmişdi. Son və mütləq olaraq cisimsiz bir çox cövhər vardır.

1. Ağıl haqqında (Risalə fil-ağıl)
2. Din-fəlsəfə əlaqəsi

Bu əsərində isə fəlsəfə elmini öyrənmək istəyən bir kişinin ilk öncə riyaziyyat kitablarını və məntiqlə əlaqəli

[31] **Cövhər:** Öz-özünə varlığı olub, dəyişməyən, reallaşması üçün başqa obyektə ehtiyacı olmayandır.

kitabları, fizika, metafizik, əxlaq[32] və nəfsi gözəl əxlaqla tərbiyə edib idarə etmək üçün kitablar oxuyub işlətməsi lazımdı.

## 4.Beş Cövhər Haqqında ("Kitabül-cövhəril-xamsə")

Burada bilməyimiz lazım olan bu beş cövhərdən ikisi hər şeyin varlığının əsasıdır. Bu ikisi sadədi. Özlərindən əvvəl heç bir qanun yoxdu. Əlavə olaraq dörd ünsür cisimdirlər. Bu ikisi isə cisim deyildi. Ancaq bu dördü cisimləri təşkil edir. Bu dörd ünsür bir şeydən meydana gəlir.

-Onun xaricində hər şey aradan qalxarsa O, aradan qalxmaz. Hər şey ondan gəlir. O, heç bir zaman pozulmaz, onun açıq bir təfsiri yoxdu.

**Surət (şəkil, forma):**

Surət o, bir çox şey arasında ortaq bir addı. Surətin özü bir gücdü. Misal olaraq istilik və quruluq birləşdikləri zaman alov olurlar. O, zaman surət isə atəşdi.

-Hərəkət altı qismə ayrılır. İlki olmaq, ikincisi pozulmaq, üçüncüsü dönüşmək, dördüncüsü artma, beşincisi azalmaq, altıncısı bir yerdən digər yerə keçirmə hərəkəti. Var olmaq, insanın istilik və soyuqluqdan meydana gəlməsi kimi cövhəridə vardı. Pozuluş da

---

[32]**Əxlaq:** İnsanın yaxşı və ya pis olaraq dəyərləndirilməsinə yol açan mənəvi xüsusiyyətləri və iradəli davranışlarıdı.

belədi. İnsanın çürüyüb torpaq olması kimi o da cövhərdə olur.

**Məkan:**

Bu mövzuda filosoflar çox ixtilaf etmişlər. Bəzilərinə görə məkan mövcud deyil. Əflatun kimi bəziləridə onun cisim olduğunu söyləmişlər. Aristotelə görə isə "məkan vardır və açıqdır" demişdi.

**Zaman:**

Bu mövzuda filosofların baxışları müxtəlifdi. Bəzilərinə görə o hərəkətin özüdü. Bəzilərinə görə isə onun hərəkət deyil. Əslində deyə bilərikki, bir şeydən gələn hərəkət, hərəkət edən o şeyin xüsusiyyətlərində vardı. O hərəkət o cür hər hansı bir şeydən deyildir. Zaman ise hər şeydə bir şəkildə və bir cür olur. Varlığın dəyişməsiylə zamanda bir dəyişmə olmaz. O zaman zamanın hərəkət olmadığı və zamanı hərəkətin özü hesab edənlərin yanlışı ortaya çıxmış olur. Hərəktin astalılığı və sürətliliyi zamanla bilinir.

## 5.Üzüntüyü yenmənin çarələri

### -Üzüntü və səbəbləri

Şüphəsiz səbəbi bilinməyən heçbir acının şəfası da yoxdu. O zaman üzüntünü müalicə edəcək xüsusiyyətləri meydana çıxartmaq lazımdır. İşlədilməsini asandlaşdırmaq üçün əvvəlcə üzüntünün nə olduğunu və səbəblərini açıqlamaq lazımdı.

Üzüntü, sevilənlərin itkisindən və arzuların həyata keçməməsindən qaynaqlanan psixoloji bir rahatsızlıqdı.

Heç kimin bütün istəklərini əldə etməsi mümkün deyil. O zaman sevdiklərmizi itirməmək və əldə etmək istəyiriksə, ağıl aləmini izləməli, əldə etmək istədiklərmizi və sevdiklərmizi orada gözləməliyik. Xoşbəxtliyə düşkün olmalıyıq, üzüntüdən də özümüzü qorumalıyıq.

Görüb toxunmaqdan əvvəl, sahib olduğunuz şeylərin xəyalı ilə özümüzü aldatmamalıyıq. Əlimzidən çıxdıqdan sonra da artıq üzülməməli və düşüncəmizdə onlara yer verməməliyik. Bu anlayış möhtəşəm kralların əxlaqıdı. Bunun ziddi isə acgöz və həris insanların əxlaqıdı. İstədiyimiz olmadısa bizdə olanı istərik. Olan ilə qane olmalıyıq və bunun ilə də sevincin davamını qazanmış olarıq. Son olaraq əldən gedənlərə və sevdiyimiz şeyləri itirdiyimiz zaman üzülməməliyik.

O zaman hissi cəhətdən xoşa gələn və ya gəlməyən şeylərin, insan təbiətinə lazım olmayan adət və alışqanlıqların meyvəsi olduğu məlum olmuşdu. Görüb yaşadıqlarmızla xoşbəxt olmaq və itirdiklərmizin üzüntüsündən təsəlli tapmaq ilə alışqanlığı asanlaşacaqdı. O zaman bizdə buna yönəlməliyik və bunu özümüzə adət mövzusu etməliyik. Artıq bundan sonra həyat yaşadığımız müddətcə daha gözəl olacaqdı.

**-Ruh sağlamlığının önəmi**

Üzüntü psixoloji bir narahatçılıq olduğuna görə, bizə düşən bunu müalicə etməkdir. Ruhu müalicə etmənin və onun acılarını dindirmənin, bədəni izləyib müalicə etdirmə üstünlüyü ruhun bədənə olan üstünlüyü kimidi.

Çünkü ruh idarə edən, bədən idarə edilləndir, ruh əbədi, bədən isə çürüyüb gedəndi. Bizim üçün ruhu yaxşılaşdırmaq və şəfaya qovuşdurmaq, bədənimizi yaxşılaşdırmaqdan daha önəmli bir vəzifədi. Çünki biz bədənimiz ilə deyil, ruhumuz ilə bizik. Canlılar aləmindəki hər varlıq ruhu sayəsində canlıdı. Bizim ruhumuz isə şəxsiyyətimizdi.

**-Üzüntüyü yenmənin çarələri**

Üzüntünün nə olduğunu düşünmək və onu bölümlərinə ayırmaq işimizi asanlaşdıracaq. Üzüntü bizim və ya bir başqasının etdiyi bir işdən qaynaqlanır. Əgər səbəb biz isək, bizi üzən o şeyi etməməliyik. Üzülməmək istədiyimiz halda bizi üzən şeyi istəyərək edərsək, o zaman istəmədiyimizi istəyəcək vəziyyətə düşərik. Ruhunu üzən ona zərər vermiş olar, ruhuna zərər verən isə qara cahil və tam bir zalimdi.

**Əbu Bəkir ər-Razi:**

*"Çatdığım bu elm səviyyəsi, filosof adını almaq üçün yetmirsə, keşkə bileydim dövürmüzdə bu ada layiq kim var?"...*



# ƏBU BƏKİR ər-RAZİ (864-925)

Razi İslam dünyasında dinə qarşı azad düşüncəyi müdafiə edən həkim-filosof kimi tanınıb. O, təbiətə bağlı, materialist fəlsəfi cərəyanın nümayəndəsidir. 864-ci ildə Tehran yaxınında Rey şəhərində anadan olmuşdu. Razinin təhsili haqqında məlumatımız azdı. Cavanlığında zərgərlik etmiş və musiqi ilə maraqlanmışdı. Qızılla işləmək onda kimya elminə meyl salmağa səbəb olub. Qurduğu labaratoriyada kimya ilə əlaqəli təcrübələrdə ortaya çıxan qaz və buxar səbəbi ilə gözləri xəstələnmişdi. Rəvayətə görə Razi elə bu səbəbdən tibbə maraq salaraq həkim olmuşdur.

Razi təhsilini tamamlamaq üçün dolaşdığı elm və mədəniyyət mərkəzlərində yunan, hind, iran və İslam

tibbini incələyib. Öz dövrünə kimi heç kimin əldə etmədiyi bilgiləri öyrənmişdi. Reydə xəstxanda baş həkim işləmişdi. 100 həkim arasında imtahanda birinci olaraq Bağdadda həkimbaşı olaraq çalışmışdır. Razinin tibb ilə əlaqəli bir çox yeniliyi arasında yadda qalanı kimyanı tibbin xidmətinə daxil etməsidir. Avropalılar onu kimyagər-həkim "Rhazes" olaraq tanıyırlar.

Razinin tibbə aid diet və onun mualicəsi, fəlç, diabet, kolit vənikris, qaraciyər, göz, qulaq və ürəyin anatomiyası haqqında əsərləri vardı.[33] Zəkalı, dürüst, çalışqan və əsərlər yazan Razini filosof ünvanına laiq görməyənlərə qarşı yazdığı "əs-Sirətül-fəlsəfiyyə" adlı əsərində özünü müdafiə edərək belə demişdi: "İndiyə qədər fizika və metafizika kimi fəlsəfənin növləri ilə əlaqəli 200-ə yaxın əsər yazdım. Çatdığım bu bilgi səviyyəsi filosof ünvanıma yetməzsə, kaşki, bilsəydim bu dövrdə bu ada laiq olan kimdir?".

Razi 925-ci ildə Reydə vəfat etmişdi.[34] Ən populyar əsərlərindən bir neçəsini diqqətinizə təqdm edirik: "Filosf kimi yaşama", "Əbu Bəkir ər-Razi ilə Əbu Xatim ər-Razi arasında keçən münaqişə", "Iqbal və dövlətə qovuşmanın əlamətləri üzərinə" və s.

---

[33] Editörler: Seyyid Hüseyin Nasır ve Oliver Leaman, **İslam Felsefesi Tarihi,** Cilt:1,Tercüme: Şamil Öçal-Hasan Tuncay Başoğlu, İstanbul: Açılımkitap, 2011. s. 237-252.

[34] Kaya, Mahmut, **İslam Filozoflarından Felsefe Metinleri**, İstanbul: KLASİK Yayınları, Dokuzuncu Basım, 2013. s. 70.

**Farabi:**

*"Yaxşı bir insan öləndə ona ağlamayın. Əsil onu itirən cəmiyyətə ağlayın"...*



# FARABİ (871-950)

İslam dünyasında ilk türk filosof olaraq tanınan əl-Farabi et-Türki əl-muallimüs-sani Türkistanın Farab şəhəri yaxınlığında 871-ci ildə doğulmuşdu. İlk təhsilini önəmli bir təhsil və mədəniyyət mərkəzi olan Farabda almışdır. Farabi 40 yaşından sonra Bağdada gedir. İbnüs-Sərracdan ərəbcə dərs alır, özü isə ona məntiq dərsləri verir. Bir Nəsturi xristianı olan tərcüməçi-şair Əbu Bişr Məttab ibn Yunusdan məntiq, başqa bir xristian filosofu Harranlı Yuhanna ibn Haylandan da fəlsəfə dərsləri almışdır.

20 ilə qədər Bağdatda qalan və əsərlərinin çoxunu burada qələmə alan Farabi, bu şəhərdə meydana gələn qarışıqlıq səbəbi ilə Hələbə getmişdir. Farabi birçox dil

bilirdi. Yaşadığı müddətdə Orta Asiya Türk geyimini heç dəyişdirməyən, maddiyata dəyər verməyən, şöhrət və nəfsdən uzaq durmuşdur. Ruh və əxlaq təmizliyini hər şeydən üstün tutan bir zahid kimi yaşamışdır. Heç evlənməmiş və mal-mülkü olmamışdır. Dəməşqdə rəhmətə gedən türk filosofunun cənazəsi dövlət mərasimi ilə qaldırılmışdı. 80 il ömür sürən bu dahinin özündən sonra bir çox böyük əsərləri günümzə kimi gəlib çatmışdır. Farabi islam fəlsəfəsində yüksək mərtəbələrdən birini ələ keçirməyi bacaran filosofdur.

## Düşüncələri və Əsərləri

Farabinin özəlliklərindən biri özünə fəlsəfi məktəb təsis etməsi olub. Kindi ilk ərəb filosofu olaraq tanınsa da fəlsəfi məktəb təsis etmədi. Farabinin İslam fəlsəfəsindəki rolunu Flotinin Qərb fəlsəfəsindəki roluna bənzətmələri də ola bilsin elə buna bağlıdır. İbni Sina Farabini öz ustadı kimi tanıtdırır.[35]

Farabinin əsərləri çox olub, ancaq İbni Sinanın əsərləri kimi məşhur olmayıb. Bəzən buna səbəb kimi Farabinin öz əsərlərini kağız parçalarına yazmasında görürlər.Orta əsrlərdə Farabinin əsərləri çox məşhur idi. Yahudilər onun əsərlərinə xüsusi diqqət ayıraraq onu ivrit dilinə belə tərcümə edirdilər. Farabi İslam

[35]Hənna Faxuri və Xəlilcər, ərəbcədən tərcümə edən: Əbdül Mühəmməd Ayəti, **Tarixe fəlsəfə dər cahane islam-** تاريخ فلسفه در جهان اسلام **(İslam aləmində fəlsəfə tarixi)**, Tehran: elmi və mədəni əsərlər nəşriyyatı 2002.(Farscadan tərcümə: Kamran Mamedov)

aləmində siyasi fəlsəfənin bünövrəsini qoyan ilk şəxsdir. O, fikirlərində əsasən Platonun siyasətlə bağlı prinsiplərinə söykənirdi. Siyasət haqda yazdığı ən önəmli əsərlərindən biri "Arau əhlil mədinatül fazilə."[36]

Böyük bir filosof olan Farabi, məntiq sahəsindəki uğuruna görə "Muallim-i Əvvəl'' ("ilk Müəllim") olan Aristoteldən sonra "Muallim-i Sani'' (ikinci Müəllim) olaraq şöhrət qazanıb. Farabi eyni zamanda bir siyasət filosofudur.

Orta əsrlərdə Avropada "Alfarabius'' adı ilə tanınan Farabi 100-ə qədər əsərin müəllifidir. Təssüflər olsun ki, bu əsərlərin çoxu itkin hesab edilir. Lakin əldə olan əsərləri isə bir çox dillərə tərcümə edilmişdir.

## 1.Fəlsəfəni öyrənməzdən əvvəl bilinməsi vacib olan mövzular

### -Fəlsəfə məktəblərinin adları

Fəlsəfə məktəbləri öz adlarını termin olaraq bir neçə mənbədən alır: 1. fəlsəfə ustadlarının adından; 2. fəlsəfə ustadını yetişdirən şəhərin adından; 3. məktəbin olduğu yerdən; 4. məktəbdəki idarə və davranış şəklindən; 5. üzvü olduqları metodun hərəkət şəklindən.

---

[36]Hənna Faxuri və Xəlilcər, ərəbcədən tərcümə edən: Əbdül Mühəmməd Ayəti, **Tarixe fəlsəfə dər cahane islam-** تاریخ فلسفه در جهان اسلام **(İslam aləmində fəlsəfə tarixi)**, Tehran: elmi və mədəni əsərlər nəşriyyatı 2002. (Farscadan tərcümə: Kamran Mamedov)

**-Aristotelin əsərlərinin siniflərə bölünməsi**

Aristotelin əsərlərinin bir qismi kiçik, bir qismi böyük, bir qismi də ikisinin arası orta böyüklükdə əsərlərdi. Kiçik olanlar sadəcə bir mövzuya aiddir ki, bunlar da Aristotelin məktublarıdı. Böyük əsərlərin bir qismi də fəlsəfi əsərləridir. Fəlsəfi əsərləri də mövzuları xüsusi və ümumi olmaq üzrə ikiyə ayrılır. Xüsusi mövzulara aid əsərlərin bir qismi teorik, bir qismi də praktik fəlsəfə bilgisinə malikdi. Digərlərindən bəziləri metafizik, bəzisi fizika, bəzisi də riyaziyyat sahələrindədi.

**-Fəlsəfəyə giriş etəmdən öncə hansı nizam-intizam başlanılmalıdı?**

Əflatunçulara görə fəlsəfədə ilk oxunması lazım olan elm geometriyadı. Çünki geometrik isbatlar isbatların ən doğrusudu.

**-Fəlsəfəni öyrənməkdə məqsəd**

Fəlsəfə öyrənməkdə məqsəd böyük yaradıcını bilmək, onun hərəkət etməyən (dəyişikliyə uğramayan) "Bir" olduğunu, hər şeyin əsas səbəbinin O, olduğu, Onun öz comərtliyi, hikmət və ədaləti ilə bu aləmə nizam verən olduğunu bilməkdir. İnsanın gücü çərçivəsində yaradıcıya bənzəməsini təlqin etmək filosofun etməsi lazım olan şeydir.

**-Fəlsəfədə hadisələrin izləməsi üçün lazım olan metod**

Fəlsəfədə bu metod, praktikaya yönəlmək və ən son məqsədə çatmaqdır.

**-Aristotelçiliyi öyrədən şəxsin sahib olması gərəkən xüsusiyyətləri**

Sağlam iradəyə sahib olmaq üçün, şəhvətini yenməli, əxlaqını düzəltməli, çalışqan, elmdən başqa şeylərlə az məşğul olmalıdı, ömrü uzun olmalıdı və s.

**-Aristotel kitablarını oxuyanlar nələri bilməlidir?**

1) məntiq kitabı, 2) Aristotelin elmindən necə istifadə edəcəyi, 3) kitablarına nəyə görə bu adların verildiyi, 4) kitabların ona aid olub olmadığının doğruluq dərəcəsi, 5) kitabların sıra nizamı, 6) kitablarında işlətdiyi terminlər,7) hər kitabın neçə hissəyə ayrıldığı haqqında biliklərə sahib olmalıdı.

## 2. Fəlsəfənin təməl məsələləri

**-Qavram və tövsiyyə haqqında**

Bəzi qavramların başa düşülməsi bir əvvəlki qavrama bağlıdı. Məsələn boy, en və dərinlik anlaşılmadan cismi anlamaq mümkün deyil.

**-Tövsiyyələr arasındakı əlaqə**

Özündən əvvəl bir çox şeyi başa düşmədən bəzi tövsiyyələri başa düşmək mümkün deyildi.

**-Varlıq mərtəbələri**

Bizə görə var olan hər şey ikiyə ayrılır. Birincisi özü (zat[37]) varlığı mütləq olmayandır, buna mümkün varlıq adı verilir. İkincisi özü varlığı mütləq olandır, buna da mütləq varlıq deyilir.

**-Mütləq varlıq olan Tanrının xüsusiyyətləri**

Mütləq varlığı bir an üçün yox saydığımız zamanda bu durum məntiqi imkansızlığa yol açar. Onun varlığının heç bir səbəbi yoxdu. Bu Varlığın başqasından olması da mümkün deyildi.

**-Tanrı-aləm əlaqəsi**

Əşyanın varlığı ona aiddir. Amma bu var etmədə onun bizim məqsədmizə oxşar bir məqsədi yoxdur.

-Kosmologiya[38] ağıllar nəzəriyyəsi

Ondan ilk meydana gələn şey say etibarı ilə birdir və o ilk sırada duran ağıldır. Bu ilk yaradılan ağılda bir çoxluq vardı. Çünki o, özü mümkün reallıq və ilk olduğu üçün də mütləq mənada varlıqdır.

**-Göylərin dört ünsürə və yer üzündəki varlıqlara təsiri**

Hər nə qədər göy cisimləri dörd ünsür kimi maddə və surətdən ibarətdirsə, göylərin və göy cisimlərinin mad-

---

[37]**Zat:** Bir şeyin özü, başqalarından ayıran mahiyyət, özünə xas reallığı olan, zatı mütləqdi.

[38]**Kosmologiya:** Aləmin meydana gəlməsi, qurluşu, ona hakim olan qanunlar, varlıqlar arasında var olan iyerarxik əlaqələr haqqında mövzuları araşdıran elm sahəsidi.

dəsi dörd ünsürün və onlardan meydana gələn varlıqlar da maddəsinə görə fərqlidi.

**-Hərəkət növləri**

Göy cisimlərinin yer dəyişdirməyən, dairəvi hərəkət var. Əmələ gələn və pozulan varlıqların hərəkəti isə məkana bağlı bir hərəkətdir.

**-Məkan, boşluq, yön, sona varmaq, sonsuzluq, dairəvi və doğru hərəkət**

Əhatə edən cisimin (daxili) səthi ilə əhatə edilən cismin (xarici) səthinə "məkan" deyilir. Boşluq mövcud deyildir. Göy cisimləri əhatə edicidir və bir mərkəzi vardı.

**-Dörd ünsür və aləmin kürə şəklində olması**

Hər cismin yönəldiyi özəl bir məkan vardı. Cisim[39] sadə isə onun məkanının və şəklinin eyni cinsdən olması və fərqli olmaması lazımdı. Dairəvi cisim belədi.

**-Göyün və göy cisimlərinin qurluşu**

Quruluş olarq göy isti, soyuq, ağır və yüngül olmayan beşinci bir quruluşa sahibdir. Göyü heç bir şey dəlib yırta bilməz. Göyün hərəkəti dinamikdi.

**-Dörd ünsürün xüsusiyyətləri və bir-birinə qarışma hadisəsi**

---

[39]**Cisim:** Şüurumuzun xaricində olan və duyğularımızın sahəsinə daxil olan hər şey. Bu mənada cisim boyu, eni və dərinliyi olan üç ölçülü varlıq, ruh vəya nəfs kimi mənəvi varlıqların əleyhdarı olaraq istifadə edilir.

Qurluş olaraq ən isti cisim atəş, ən soyuq olan su, ən axıcı hava, ən qatı olan da torpaqdır. Bunlardan biri digərinə çevrilə bilər.

**-İnsanın bioloji və psixoloji xüsusiyyətləri**

Canlılar arasında insan birçox xüsusiyyətə sahibdi. Məsələn: güc qaynağı olan bir nəfsi vardır. İnsanın sahib olduğu psixolojik güclərdən biridə praktik ağıldı.

**-Ruh köçü, ölümdən sonrakı həyat, qəzavü-qədər, pislik və yaxşılıq qavramları**

Əflatunun iddia etdiyi kimi nəfs bədəndən əvvəl var deyildi. Ruh köçünü müdafiə edənlərin dediyi kimi ruh bir cəsətdən başqasına keçməz. Bədən öldükdən sonra ruh üçün ya xoşbəxtlik ya da bədbəxtlik vardı.

### 3. Ağlın mənaları

**-Xalqa görə ağlın mənası**

Xalq bir insan haqqında "o ağıllıdır" deyərkən "düşünmə və cəld ağıl etmə"yi nəzərdə tutur. Ağıllı deyəndə xalqın şüuraltında "düşünən və ağıl edən" mənasında cəm olmuşdu.

**-Kəlamçılara görə ağlın mənası**

Onlar çoxluğun ortaq görüşünə ağıl adını verirlər.

### 4. İdeal Dövlət ("əl-Mədinətül-fazıla")

**-İlk səbəb birdir və ağıldır**

İlk var olan (mövcud) bütün digər var olan varlığının (vücud) ilk səbəbidi. O hər cür əskiklikdən uzaqdır. Onun varlığı ən üstün varlıqdır, digər bütün varlıqlardan əvvəl gəlir.

**-Bütün varlıqların qaynağı olan ilk səbəb**

İlk olan, var olan hər şeyin özündən varlığa gəldiyi şeydir. İlk olanın xüsusi varlığı ilə var olmasından, mütləq olaraq, insan iradəsi və seçimi (ixtiyar) sonucu varlığa gəlməyən bütün digər var olanların bəzisi hislərlə güdülən, bəzisi isə ağılla isbatlarla bilinən fərqli varlıq növləri ilə varlığa gəlmələri hadisəsi çıxır.

**-Ay üstü dünya**

İlk var olandan ikinci var olanın varlığı daşar. Bu ikinci var olan da heç bir şəkildə cisimsəl olmayandı və o maddədə deyildi. O, həm özünü həm də ilk var olanı düşünür. Bu ardıcıl bir sistemdir.

**-Ay altı varlıqlar**

Saydığımız bu var olanlar özü özlüyündə mövcud olan və daşıyıcısı olmayan ən üstün mükəmməlliyə başdan bəri sahib olanlardı və bu iki şeylə (ay və fəal ağıl) onların varlığı sona çatar.

**-Maddə[40] və surət[41]**

---

[40]**Maddə (materia):** Üç ölçülü olan, beş hiss ilə dərk oluna bilən və yer örtən hər şey.

Bu var olanların hər biri iki şeylə mövcuddu. Onlardan biri var olan nisbəti yatağa görə yatağın taxtasının nisbət kimi olan şeydir.

**-Ayaltı və ay üstü dünyalar**

Əvvəlcə onların ən az dəyərlisi gəlir. Sonra özündən daha mükəmməl bir varlığın olmadığı ən mükəmməl varlığa çatana qədər daha az mükəmməldən daha mükəmmələ doğru gedir.

**-Göy cisimləri**

Göy cisimləri doqquz fərqli mərtəbədə doqquz qrupdan meydana gəlirlər. Hər qrupu tək bir dairəsəl cisim əhatə edər. Onlardan birincisi çox surətli bir dairəsəl hərəkət edən tək bir cismi içində tutar.

**-Meydana gəlmə**

Göy cisimlərin ortaq olan təbiətindən məcburi olaraq, onların altında olan hər şeydə ortaq ilk maddənin varlığı ortaya çıxar.

**-Ay altı cisimlər**

Ayaltı aləminə aid şeylər ilk olaraq bu tərzlərdə varlığa gəlirlər. Ancaq varlığa gəldikdən sonra onların xüsusiyyətləri varlıqlarını qorumaq və davam etdirməkdi.

---

[41]**Surət (şəkil, forma):** Varlığa təməl xüsusiyyətlərini qazandıraraq onun özünü təyin edən maddəyə zidd prinsipdi. Hiss və ağıl ilə dərk olunan bir şeyin, təşkil edən əsası və prinsipi.

# İNSAN

**-Ruhun qüvvətləri**

İnsan varlığa gəldiyində ondan ilk olaraq çıxan şey, özü ilə qidalandığı qüvvət yəni bəsləyici qüvvətdir. O bir çox qüvvətdən ibarətdir.

**-Bədənin qisimləri və orqanları**

Qəlb, özünə başqa bir orqanın əmr etdiyi rəhbər orqandı. Ondan sonra beyin gəlir. Beyin də rəhbər orqandı. Ancaq onun rəhbərliyi birinci deyil ikincidi.

**-Çoxaltma orqanları**

Qəlbə, həyanın maddəsini vermək nəzərindən xidmət edən orqan isə insan mövzu olduğu zaman spermanı meydana gətirən orqana çevirilir.

**-Ağıl**

Birincisi əməli ağıldır, ikinci bir qrup insanın hərəkətində gözəl və çirkin olan şeyləri bildirən maddələrdə meydana gəlir, üçüncü göylərdə.

**-Təxəyyül və əvvəlcədən görmək**

Təxəyyüllə qüvvət, hissi qüvvət ilə ağıl qüvvəti arasında olan bir ortaq qüvvədir.

-Mükəmməl toplumlar və mükəmməl idarəçi

Hər insan özünü davam etdirmək və ən üstün mükəmməliyini əldə etmək üçün bir çox şeyə möhtac olan bir yaradılışda varlığa gəlmişdi.

**-Qüsurlu toplumlar**

**-Axirət**

Fərqli zamanlarda bir-birilərini izləyən hikmətli şəhərlərə hökmdar olan şəxslər sanki tək bir ruh, hər zaman eyni qalan tək bir hökmdar kimidi.

**-Fəlsəfə və din**

Fəzilətli şəhər xalqının hər şeyi bilməsi lazım olan ortaq şeylərə gəldiyimiz zaman, onların birincisi ilk səbəbini və onun sifətlərini bilməsidir.

**-Real yaxşını bilməyən şəhərin görüşləri**

Cahil və yanlış görüş içində olan şəhərlər, ancaq dinləri köhnələrin yanlış fikirlərindən doğan şəhərlərdi.

**-Doğru yoldan çıxmış olan şəhərlərin baxışları**

Başqaları insanın ölümündən sonra və gələcək həyatda çatacağı bir xoşbəxtlik və mükəmməlliyin olduğuna və özləri ilə ölümdən sonrakı xoşbəxtliyin əldə ediləcəyi real fəzilətlər və real mənada fəzilətli fikir olduğuna inandırmışlar.

## 5. Əflatun ilə Aristotelin görüşlərinin qarşılaşdırılması

**-Həyat anlayışlarındakı baxış ayrılığı**

Əflatunla Aristotelin davranışlarının bir-birinə zidd və yaşamlarının fərqli olduğuna baxdığımız zaman, Əflatun

bir çox dünya nemətlərindən uzaq yaşamış və onları dünya əhlinə bıraxmışdı. Aristotelin bir çox mülk əldə etməsi və evlənməsi, uşaqlarının olması, kral İskəndərə vəzir olması aralarındakı fərqi göstərir.

**-Elmlərin sistemləştirilməsi ilə əlaqəli baxış ayrılığı**

İki filosof arasındakı baxış ayrılıqlarından biri də elmlərin sistemləşdirilməsi və kitab yazmaqla əlaqəlidi. Əflatun bilginin kitaba yazılmasını qadağan etmişdi. Aristotelin onun metodunu açıqlığa çatdırmaq, sistemləşdirmək, nizama qoymaq, fəlsəfəni yaymaq və əldən gəldiyi qədər hər şeyə haqqını vermək idi. Cövhər mövzusunda və müqayisə mövzusunda baxış ayrılığı vardı.

**-Görmə hadisəsi haqqında baxış ayrılığı**

Aristotel, görmənin gözün təsirlənməsi ilə meydana gəldiyini müdafiə edirdi. Əflatun isə bu hadisənin gözdən çıxan bir şeyin görülən şeyə çatması ilə baş verdiyini müdafiə edirdi.

**-Aləmin əzəliliyi və yaradılmışlığı mövzusundakı baxış fərqi**

Aristotelin aləmin əzəliliyini, Əflatun isə onun yaradılmışlığını müdafiə etmələri aralarındakı fərqdi.

**-İdealarla əlaqəli baxış fərqi**

Bir baxış fərqi də Əflatunun qəbul etdiyi, Aristotelin də qarşı çıxdığı idealar məsələsidi.

**-Axirət həyatı haqqındakıbaxış fərqi**

Aristotel təbiətdə mükafat gərəklidir deyirdi. Əflatun isə o, öldükdən sonra dirilmə, hökm, ədalət, tərəzi və əməllərin yaxşı və pis olmasına görə mükafat və cəzanın lazım olmasını izah edən hissəyə dövlət kitabının sonunda yer vermişdi.

Farabi astronomiya haqqında doğru və yanlış məlumatlar, psixoloji və zehin fəlsəfəsi, metafizik[42], əməli fəlsəfə haqqında da əsərlər yazmışdı.

---

[42]**Metafizik (ilk fəlsəfə):** Fizika ötəsi hadisələri və bilgiləri araşdıran fəlsəfə elmidi.

**ƏMİRİ:**

*“Allahı bilmədikcə bir şey bildiynizi sanmayın”.*

# ƏMİRİ (....-992)

Əbul-Həsən Məhəmməd İbn Yusuf əl-Əmiri Nişapurda anadan olub. Müəllimi Əbu Zeyd əl-Belhidir. Əmiri mədəniyyətli və dindar bir ailənin uşağı idi. Hənəfi alimi olan babası Əbu Zər Yusuf, Nuh İbn Saman dönəmində müfti vəzifəsini tutub. İlk təhsilini babasından, sonra isə Məşşai filosofu Kindinin tələbəsi Belhidən dərs alıb. Gənc yaşında “Nişapur Filosofu” olaraq tanınıb. Elm öyrənmək üçün Rey, Bağdad, Belh və Buxara şəhərlərini gəzib, ciddi axtarışlar aparıb. Rəvayət edildiyinə görə Əmiri uzun bir ömür sürməklə 992-ci ildə Nişapurda vəfat etmişdir.

## Düşüncələri və Əsərləri

Məşşa məktəbinə mənsub bir filosof olaraq İslam fəlsəfəsində Farabi və İbn Sina kimi sistem qurmağı hədəfləyən filosofların dövründə yaşaması onun kifayət qədər tanınmamasına səbəb olmuşdur. Əmirinin bir çox əsəri ərəbcədir. Günümüzə qədər sadəcə 25 əsəri gəlib çatıb.

## 1.İslamın üstünlüyü

## ("Kitabül-İlam bi-menakıbil-İslam")

### -Elmin əhəmiyyəti və bölümləri haqqında

İman doğru və kəsin bir inancdır və nəfsin ağıl gücüdü. Küfr isə dəqiq olmayan yalan inancdır və nəfsin xəyal gücüdür. Ən sağlam iş planlı olaraq həyata keçirilən işdi. Ən güvənli söz düşündükdən sonra söylənən söz olduğu kimi, ən sağlam bilgi də yanlışdan təmizlikdən sonra qəbul edilən bilgidir. Yəni bilgi dini və fəlsəfi olmaqla ikiyə ayrılır. Dinin mənbəyi Peyğəmbərdi, fəlsəfənin isə filosoflardı. Bilgi bir şeyi yanlışsız, qüsursuz olduğu kimi hər yönüylə bilməkdi.

### -Elmlərin təsnifi

Dini elmlər üç hissəyə bölünür: 1. Hədisçilərin elmi. 2. Mərkəzi ağıl olan kəlamçıların elmi. 3. Hiss ilə ağılın ortaq olduğu fiqhçilərin elmi.

Fəlsəfədə elmdə üç hissəyə bölünür: 1. Fiziklərin; 2. Metafiziklərin; 3. Riyaziyyatçıların elmi.

### -Fəlsəfəyə istiqamətlənən tənqidə cavab

Dini elmlər kimi fəlsəfə elmidə ağıla uyğun və xüsusiyyətlərə sahib dəlillərlə açıqlanmaqdadı.

### -Fəlsəfə elmləri

Fəlsəfə elmləri üç hissəyə - fizika, metafizika və riyaziyyata bölünsə də, bunlar üçün Məntiq elmi alət vəziyyətində özünü təsdiq edir.

**-Məntiqə istiqamətlənən tənqidlər**

Kəlamçıların məntiq kitablarını başa düşməməsi o kitabların yanlış olduğu mənasına gəlməz.

**-Məntiqin faydaları**

Məntiq ağlı inkişaf etdirərək nəzəri sahələrdə doğru ilə yanlış, praktik sahələrdə yaxşı ilə pisi ayıra bilməyə yarayan zehni bir alətdir. Hətda şübhələr məntiq sayəsində ortadan qaldırılır.

**-Ədəbiyyata istiqamətləndirilmiş tənqidlər**

Sufilərdən bir qrupun ədəbiyyatı tənqid etdiyini gördük. Bunlar yanlış içindədirlər. Ədəbiyyat söyləmə sənətidir. İncə ruhlara görə gözəl danışan kimsə ruhi bir haldan digər hala çəkib döndərə bilər. "Rəhman insanı yaratdı və ona danışmağı öyrətdi'' (ər-Rahman 14).

**2.Sonsuzluq Arzusu ("əl-əməd əlel-əbəd")**

- Müdriklik və müdriklik kimi mövzuları ələ almışdır.

"Andolsun ki, biz Loğmana hikmət verdik'' (Loğman surəsi-12) O, peyğəmbər Davut zamanında və davamlı olaraq Şamda yaşamışdır. Yuxardakı ayəyə görə hikmət xüsusiyyətinə sahib ilk şəxs Loğman həkimdi.

**İbn Sina:**

*“Heç kimsə görmək istəməyən qədər kor deyil”.*



# İBN SİNA (980-1037)

Əsərlərini min il bundan əvvəl yazımasına baxmayaraq, Şərqdən qərbə, bütün dünyada elmin bir çox sahələrində fasiləsiz öyrənilən, oxudulan dahi şəxsiyyət Əbu Əli Hüseyn İbn Abdulla ibn-Əli ibn-Sina kimdir?

Həkimlərin dahi loğman, riyaziyyatçıların məşhur astranom və riyaziyyatçı, ədiblərin böyük şair və yazıçı, geoloqların məşhur geologiya nəzəriyyəçisi, musiqiçilər musiqi nəzəriyyəçisi, filosofların böyük üstad adlandırdığı, bəşəriyyətin yetişdirdiyi gəlmiş keçmiş böyük dahilərindən biri olan İbn Sina ömrünü bu qədər titullara necə sığdıra bilmişdir?

Bir zamanlar vəzirlik etmiş, dövlət vəzifələrindən uzaq durmaya çalışan, həyatı boyu əmirlərin və hökümdarların təqiblərindən qaçan, zindana atılan İbn

Sinaın, bu böyük şəxsiyyətin həyatı, düşüncələri, fəaliyyəti, əsərləri haqqında yazmaqla bitməyən bir filosofu biz də çalışacağık ki, önəmli bilgilərlə sizin diqqətinizə yetirək.

"əş-Şeyxül-Rəis" ("şeyxlərin rəisi") ünvanı ilə tanınan İbn Sina Qərbdə isə "Avicenna'' adı ilə tanınmış tibb və fəlsəfə sahəsində bənzərsiz əsərlərin müəllifidir. Nüfuzlu bir ailənin uşağı olan İbn Sinanın əsl adı Hüseyndir. Buxara yaxınlığında kiçik bir kənddə 980-ci ildə anadan olub.[43] 10 yaşında fiqh, astronomiya, tibb, məntiq və fəlsəfə elmlərini, 18 yaşına qədər də başqa humanitar elmləri öyrənib. 16 yaşında dövrünün ən məşhur həkimi kimi tanınmağa başlayıb. Getdiyi yerlərdə dövlət böyükləri tərəfindən hörmət-izzət görüb. Qürgəncdə Biruni, Əbu Sehl əl-Məsihi, İbn Hammar və İbn İraq kimi alimlərlə tanış olan İbn sina bu elm adamları ilə fərqli mövzularda elmi müzakirələr aparıb. Rey, Qəzvin və Həmədanda Büveyhi əmirlərindən Məcdüddəvlə və Şəmsüddövlənin sarayında qonaq olaraq qəbul edilib. Əmirlərin müalicəsində göstərdiyi üstün hünərlərinə görən böyük mükafatı Şəmsüddəvlənin vəziri olmaqla nəticələnib.

Uşaqlıq illərində: "Mən ölüm düyününü açacağam! Bunun üçün yaşamağa dəyər. Təbabət əsas işim olacaq. Mən insanları uzun ömürlü edəcəm və bunun üçün

---

[43] Editörler: Seyyid Hüseyin Nasır ve Oliver Leaman, **İslam Felsefesi Tarihi,** Cilt:1,Tercüme: Şamil Öçal-Hasan Tuncay Başoğlu, İstanbul: Açılımkitap, 2011. S. 277.

yaşayacam”,- dediyi rəvayət edilir. İbn Sina kiçik yaşlarında mütəzəm olaraq tibbi kitabalr oxuyurdu. Atası Ona əl-Razinin otuz cildlik “Təbabət xəzinəsi” adlı kitabını almışdı. İbn Sinanın bu böyük həcimli əsərləri bir ilə öyrəndiyi tarixdə söylənir.

İbn Sina qəssabın yanına gedib dəvələrin, qoyunların və atların mədəsini və ürəyini tədqiq edirdi. Onun həkimlikdəki uğurları Buxaranın məşhur həkimi Kəmarinində qulağına çatmışdır. Diri adamı yarmaq mümkün olmadığına görə, ölüyü yarmaq isə şəriət qadağan etdiyinə görə Kəmari onu gecə tənha bir evə dəvət etdikdə, qəbiristanlığın keşikçisi də yeni dəfin edilən cənazəyi bu evə gətirməklə, yaşlı həkim Kəmari ilə İbn Sina səhərədək çıraq işığında ölən adamın orqanlarını tədqiq etmişdilər. Onlar yoğun bağarsaqda naməlum bir çıxıntı tapmışdılar. İbn Sina heyvanlarda bu çıxıntını görməmişdi. Kəmarinində bundan xəbəri yox idi. Yaralarla örtülmüş çıxıntı irilənmiş və partlamışdı. Onlar qarın boşluğu və üzvlərini örtən serroz qişanı tapmışdılar. Artıq onlara bu tədqiqdən sonra bir çox naməlum xəstəliklər aydın olmuşdu.

Elmə və xüsusən fəlsəfəyə verdiyi əhəmiyyətə görə səfərə çıxdığı zaman səfər azuqələrindən öncə kağız-qələm hazırlayarmış. Zindana düşdüyü zamansa yemək və su əvəzinə ilk kağız və qələm istərdi. Şagirdlərində olan Cüzcani belə nəql edir ki, bir gün ondan əş-şifa kitabını yazıb tamamlamasını istədim. Başqa bir tələbəsi olan Əbu Qalibi çağırıb kağız qələm hazırlamasını istədi.

Kağız qələmi götürüb və yazmağa başladı, iki gün heç bir kitaba müraciət etmədən kitabda yazılacaq olan mövzuların ünvanlarını yazdı və daha sonra ünvanlara baxıb öz izah və şərhlərini yazdı.[44]

İbn Sinanın nəbz haqqında tələbəsi Cüzcaniyə anlatdıqları çox önəmlidir. İbn Sina nəbzin damarların sıxılıb açılmasından ibarət olan hərəkət olduğunu, dalğavari, ikizərbəli, uzun müddətli, titrək, qısa, kiçik, zəif, qarışqavari, yumşaq, gərgin, əsəbi, aşağı, mişarvari, tam və boş ola biləcəyini deyirdi. İbn Sinanın tələbələri axşamlar gizlicə evə yığışırdılar. "Şəfa kitabı"ndan yenı fəsillər oxuyurdular. İbn Sina bəzən onlara gəncliyindən, böyük alim Biruni ilə elmi mübahisələrindən danışırdı.[45]

İsfahana gedən İbn Sina Sultanın təşkil etdiyi elm məclislərinə qatıldı. Qəznəli hökmdarı Sultan Məsud İsfahanı ələ keçirdikdən sonra evi və kitabxanası dağıdıldı. Bu hadisə səbəbi ilə İbn Sina böyük sarsıntı keçirdi. Xəstələnərək qulunç xəstəliyinə tutuldu. Özünü müalicə etməyə çalışsada bunda uğurlu ola bilmədi.

---

[44]Hənna Faxuri və Xəlilcər, ərəbcədən tərcümə edən: Əbdül Mühəmməd Ayəti, **Tarixe fəlsəfə dər cahane islam-** تاریخ فلسفه در جهان اسلام **(İslam aləmində fəlsəfə tarixi)**, Tehran: elmi və mədəni əsərlər nəşriyyatı 2002.(Farscadan tərcümə: Kamran Mamedov)

[45] Voskoboynikov, Valeri, **Böyük Loğman İBN SİNA,**(tercümeyi-hal), (Tərcümə edən: Zeynal Babayev), Bakı: Kitab Klubu, 2014. S. 165-193.

1037-ci ildə Həmədan səfərində57 yaşında vəfat etdi və Həmədanda dəfnedildi.[46]

İbn Sinanın son saatları haqqında belə bir əfsanə var. Son günlərinin yaxınlaşdığını hiss edirdi. O, uzun müddət sağ qalmaqla ölümə qalib gəlmək istəyirdi. O, bütün bilgisindən istifadə edərək qırx müxtəlif dərman hazırlayır və bu dərmanarı müxtəlif şüşələrə tökür. Ən sadiq şagirdini çağırır və ona deyirki: -Mənim qüvvəm tükənir, ola bilisinki sabah huşumu itirəm. Ancaq bu qırx dərmanın hamsını sənə öyrədəcəyim qaydada tətbiq etsən, mən ölmərəm. Ertəsi gün İbn Sina huşunu itirdi. Şagirdi həyəcan içərisində ilk dərman şüşəsini götürdü. Sonra ikincini, üçüncünü, dördüncünü... və s. O, hər şeyi müəlliminin öyrətdiyi kimi edirdi. İbn Sinanın gücsüz və qoca bədəni tədricən cavan bədənə çevrilirdi. Artıq nəfəs alırdı, yanaqları allanmışdı. İbn Sina şagirdin qarşısında üz-gözündən nəciblik və müdriklik yağan qüvvətli, gözəl bir cavana çevrilirdi. Qırxıncı yəni sonuncu dərmanı içəndən sonra İbn Sina gözlərini açıb dərindən nəfəs almalı, gülümsəməli və ayağa qalxmalı idi. Şagird bu qəribə çevrilmədən elə heyrətlənmişdi ki, birdən həyəcandan qırxıncı dərmanın qabı, titrəyən əllərindən düşüb sındı və dərman torpağa hopdu. Qısa müddət ərzində İbn Sinanın sağalan bədəni cansız bədənə döndü və öldü.

---

[46] Voskoboynikov, Valeri, **Böyük Loğman İBN SİNA,**(tercümeyi-hal), (Tərcümə edən: Zeynal Babayev), Bakı: Kitab Klubu, 2014.

## Düşüncələri və Əsərləri

Elədə uzun olmayan ömrü, bir sıra siyasi işlərlə məşğul olması, əmirlərin və hökümdarların siyasi təbiqləri və zindana atdırılması İbn Sinanın böyük şahəsərlər yaratmasına əngəl ola bilmədi. Ən məşhur əsərləri "Kitabüş-Şifa", "əl-İşarat vət-tənbihat"dı. Tibb sahələrində orta əsrlərin ən böyük əsəri olan "əl-Kanun fit-tibb"i yazdı.

İbn Sinaya nisbət verilən 242 kitab və elmi əsər vardır. Ona aid olan bəzi kitablar günümüzə qədər gəlib çatmamışdır.[47]Məşşai fəlsəfəsinin zirvəsi olan İbn Sina eyni zamanda Farabinin tələbəsi sayılır. İbn Sina ustadı Farabinidə şöhrət də geridə qoymuşdur.

## 1.Metafizik üzərinə ("fil-İlahiyyat")

-Elmlər arasında ilk fəlsəfənin (metafizik) əhəmiyyətini açıqlamaq üzrə onun mövzusunu araşdırmağa başlandığı haqqında

Fəlsəfi elmlər nəzəri (teorik) və əməli (praktik) olmaq üzrə ikiyə bölünür. Fəlsəfənin, bir ilk fəlsəfənin olduğunu, bu fəlsəfənin digər elmlərin qaydalarını nizamladığını və real hikmətin bu olduğunu eşitmiş olmalısan. Bəzən "Hikmət ən dəyərli olanı ən dəyərli bilgi ilə bilməkdir", bəzən "Hikmət ən doğru və ən sağlam

---

[47] ŞEYX ƏBU ƏLİ İBN SİNA, "**ARİFLƏRİN İRFANİ MƏQAMLARI**", Tərcümə və şərh: R.Abdullaoğlu, Qədim Qala, Bakı: 2015. s. 13.

bilgidir'', bəzən də "Hikmət bütün varlığın ilk səbəblərini bilməkdir'',- tərif edildiyini eşitmiş olmalısan. Allah haqqındakı araşdırma iki istiqamətlidi. Birincisi onun varlığının, ikincisi isə sifətlərinin araşdırılmasıdı.

**-Bu elmin (metafizik) mövzusunun bildirilməsi haqqında**

Bu elm Allahı bilməyi, "varlıq və tərif olaraq maddədən xaric olan varlıqların bilgisi'' sayılan metafizik məlumatı da içinə alır.

-Bu elmin faydası, digər elmlərin arasındakı yeri və adı haqqında məlumatlar daşıyır.

## 2.Varolma şüuru hər şeydən əvvəl gəlir

Mən qəlbimin və beynimin var olduğunu hissedərək, eşidərək və yoxlayaraq bilirəm, bu orqanları öz özümü bildiyimdən ötəri bildiyim üçün deyil.

**-İnsanın dəyişməyən əhəmiyyəti**

Bütünüylə bədən insanın mənasına daxil deyildir. Ancaq, bədən insandan başqa, onun xaricində onun yeri, məskəni ya da onu daşıya bilən ola bilər. İnsan bədənə öyrənib, ona ait çox hissiyat almışdır. Ondan ayrılmaq ona çətin gəlir. "Mən'' onun real varlığıdır.

## 3.Mərhəmət və pisliyin İlahi qəzaya girişinin açıqlanması haqqında

İlk olan (Allahın) öz zatını bilməsi və bilgisinin yaxşılıq nizamına sahib olması, imkan nisbətində zatının xeyir və kamal səbəbi və bildirilən tərzdə onun bu nizamda xoş olmasıdı.

Pisliyin fərqli növləri vardır. Məsələn: bilgisizlik, zəyiflik və qüsurluluq kimi qüsurlara, üzüntü və kədər kimi hər hansı bir səbəbin yol açdığı durumlara da "pislik" deyilir.

## 4.Tövhidin Həqiqəti və Nübuvvətin İsbatı Haqqında

### -Məcburi varlığın isbatı

Bilməlisən ki, var olan hər şeyin var olmasının ya bir səbəbi vardır ya da yoxdur. Əgər onun bir səbəbi varsa, biz ona "mümkün varlıq" deyərik.

### -Mütləq varlığın birliyi

İki mütləq varlığın olması heç bir şəkildə mümkün deyil. Allah mütləq varlıqdır. O, birdir.

### -Mütləq varlığın səbəbsiz olması

Bilməlisən ki, məcburi varlığın əsil səbəbi yoxdu. Səbəblər dörddür: -Bir şeyi meydana getirən fəal səbəb, bir şeyin meydana gəlişi özü üçün olanı tamamlayan səbəb, bir şeyin özündə meydana gəldiyi maddi səbəb, bir şeyin özü ilə meydana gəldiyi formal səbəb.

### -Bu hazırlayıcı maddələr ışığında sifətlər məsələsi

a) Elm sifəti: Onun öz zatını bilməsi, bilgisi, bildiyi və müdrikliyi eyni mənaya gəlir. O, başqasını biləndir, bilgiyə mövzu olan hər şeyi zatıyla biləndi. O hər şeyi bir cür bilgi ilə bilir. Bilgisinə mövzu olan şeyin var və ya yox olmasıyla Onun bilgisində heçbir dəyişmə olmaz. “Allah öz zatını biləndi”.

b) Həyat sifəti: Onun bir və zatının səbəbsiz olduğu isbatlanmışdır. Bütün bilənlər, idrak edənlər və hərəkətlər özündən qaynaqlanan varlıq həyat sahibi olmaya ən layiq olandır.

c) İradə sifəti: Allah mütləq varlıqdır, birdir. Hər şey Ondandır və Ona dönəcək. Hər şeyin varlığının davam etdirməsi Onun sayəsindədi.

d) Qüdrət sifəti: Allah bir şeyi istərsə edər, istəməzsə istəməz.

e) Eşitmə və görmə sifəti: Var olanlar növ növdü; bəzisi eşidilən, bəzisidə görülən növdəndi. Allahın eşidilənləri və görülənləri bilməsi onun eşidən və görən olduğu mənasına gəlir.

f) Kəlam sifəti: Onun danışması Allahdan daşan bilgilərin, “fəal ağıl və Allaha yaxın mələk” deyə ifadə edilən “Kəlam” vastəsiylə Peyğəmbər (s.a.s.) qəlbinə enməsidir. Onun kəlamı budur. Deməkki, danışma Həzrəti Peyğəmbərdə meydana gələn bilgidən ibarətdi.

Fellərin Allahdan daşıb artması: Allahdan ilk daşıb artan cisim deyil, mənəvi bir cövhərdir ki, o da “ilk ağıldı”. Hz. Peyğəmbər uca Allahın ilk yaratdığı ağıldır”.

**5.“əl-Kanun fit-tibb” (Həkimlik elmlərinin qanunu)**

Birinci cildi tibb elminin nəzəriyyəsinə aiddir. Anatomiya, diaqnostika, fiziologiya, cərrahiyyə aparıcı yer tutur. Birinci kitabda özünün müalicəsindən bəhs edilib.

İkinci kitabda  sadə dərmanlar təsvir olunub. Sən demə, hər hansı bir kök, hər hansı bir ağacın qabığı xəstəliklərlə mübarizədə adama kömək edə bilərmiş. Bitkilər insanların yaxınlığında bitir, insanlar isə onların faydalı xassələrini bilmirlər.

“Əgər ağ turpdan və baldan ibarət dərman sarğısı qoyulsa, bu bəd şişə şəfa verər, ağ turpun toxumu ilə sirkə isə qanqrenalı yaranı sağaldar” – “Qanun”un ikinci kitabında İbn Sina adi ağ turp barəsində belə məlumat verir.–“Əgər əqrəb ağ turp yemiş adamı sancsa, bundan adama zərər dəyməz”.Və ya: “Zəhərlənmədən əvvəl nanə cövhərlə şərab içilsə, bu, ölüm gətirən zəhərin təsirini dəf edər”.

İbn Sina “Qanun”un ikinci kitabında demək olar ki, 800 sadə dərman təsvir edib.

Üçüncü və dördüncü kitablarda başdan sonadək bütün insan orqanlarının xəstəliklərini müfəssəl aydınlaşdırır. Baş, beyin və əsəblər, göz, burun, boğaz və dişlər, ciyərlər və ürək, qida borusu və mədə, bağarsaq, qara ciyər və öd kisəsi, böyrəklər və sidik kisəsi... İbn Sina bunların hamısı haqqında müfəssəl danışır, müalicə üsullarını və cərrahiyyə əməliyyatı metodlarını göstərir. Kəllə sümüyündə, burunda, çənədə, körpücük sümü-

yündə və qabırğalarda sınığı necə müalicə etməli olduğunu İbn Sina “Qanun”da göstərir.

Beşinci kitabda o, mürəkkəb dərmanları təsvir edir. Bu dərmanlara 37-yə qədər maddə daxildi. “Bu dərmanı Qalen tətbiq etmişdi, deyə İbn Sina tez-tez yazır, bu məşhur hind dərmanıdır, bunu isə mən kəşf etmişəm”.

İbn Sina bilmirdi ki, daha 800 il keçəcək və yalnız onda Paster, viruslar – xəstəliklərin gözə görünməyən, həm də təkcə suda deyil, havada da yaşayan törədiciləri haqqında onun hipotezini təsdiq edəcəkdir.

İbn Sina nəbz haqqında elə bir təlim yaratmışdır ki, bu təlimə indinin özün də belə bir şey əlavə etmək çətindir.

“Qanun”da İbn Sina uşağın hərtərəfli tərbiyə edilməsi barədə, uşaqların mehriban, ağıllı, bacarıqlı və sağlam adamlar kimi böyümələri haqqında qayğı göstərmişdir.

İbn Sina meningit və sifilis, plevrit və mədə xorası kimi dəhşətli xəstəliklərin səbəblərini, əlamətlərini və müalicə üsullarını birinci olaraq təhlil etmişdir. O, birinci olaraq taunu vəbadan ayırmış, cüzamı, sarılığı və Sibir xorasını təsvir etmişdir.

İbn Sina dünyada birinci olaraq göz əzələlərinin quruluşunu təsvir etmişdir. İbn Sinayadək çoxları, hətta dahi alimlərin özləri də elə hesab edirdilər ki, göz fənər kimi şüalar buraxır. Bu xüsusi şüalar predmentdən əks olunaraq geri qayıdır və şəkil verir.

İbn Sina bilmirdi ki, onun “Qanun”u çox çəkmədən dünyanın bütün ölkələrində tibbin ensiklopediyasına çevriləcəkdir. Avropada həkimlər həmin ensiklopediyaya əsasən hazırlanacaqlar. Eləcə də qədim Rusiyada buraxılmış müalicə kitablarında müntəzəm olaraq onun adı – “Avisten” xatırladılır və reseptləri verilir.

## 6. “İşarat və Tənbihat”[48]

Bu əsər İbn Sinanın yazdığı ən dəyərli kitablardan biridir. Əsər iki hissədən ibarətdir: məntiq və fəlsəfə. İbn Sina fəlsəfə hissəsinin son üç fəslində irfani mövzulardan bəhs etmişdir. Əsərdə hər fəslin bir bölməsi “işarat”dan və digər bölməsi isə “tənbihat”dan ibarətdir. “İşarat” ərəb dilində əlamət, nişanə və işarət deməkdir. “Tənbihat” isə oyandırmaq və agah etmək mənsını daşıyır. Bu əsərin fəlsəfə hissəsinin son üç fəsli olan irfani mövzulardan biri olan ***“Ariflərin irfani məqamları”*** fəslindən ariflərin mənəvi yüksəlişləri zaman keçdikləri irfani mərtəbələri açıqlamışdır. Bu mərtəbələri keçmək üçün edilən əməllərdən bəhs edilmişdir. Aşağda bəzi əsas mövzuların qısa başlıqları verilmişdir:

- Ariflərin müxtəlif dərəcələrdə qərar tutmaları

-Zahid, abid və arif kimlərdir? Onların xüsusiyyətləri haqqında

---

[48] ŞEYX ƏBU ƏLİ İBN SİNA, **ARİFLƏRİN İRFANİ MƏQAMLARI**, Tərcümə və şərh: R.Abdullaoğlu, “Qədim Qala” Nəşriyyat Evi, Bakı-2015.

- İrfanda ibadət və onun arif üçün əhəmiyyəti

- Ariflərin məqamları və onların bu məqamlarda əhvalları

- Təxliyə və təhliyənin irfani seyrdə yeri

- Həqiqi arifin əlamətləri

**“GÖRÜNTÜLƏR”[49]**

“İşarat və Tənbihat” kitabının “Əsrarul Ayat” fəslini müəllif “Görüntülər” adı ilə təqdim etmişdir. Bu əsər İbn Sinanın irfani mövzusunda yazdığı ən dəyərli və nadir əsərlərindəndir. Əsərdə kəramətlər, mənəvi seyir, qeybanə aləmlər, vəhy, yuxular, mələklərin nazil olması, möcüzələr, qeyb xəbərləri, sehir, göz dəyməsi, mükaşiflər və onların xüsusiyyətləri kimi mövzular haqqında məlumat verilmişdir. Aşağda kitabda yer alan bəzi mövzuların qısa başlıqları yazılmışdır:

-Uzun müddət ac-susuz yaşamaq arifin birinci xüsusiyyətidir

Arifin uzun müddət qidalanmadan yaşaya bilməsinin səbəbi açıqlanmışdır və bunun nəticələri haqqında məlumat verilmişdir.

**-Arifin fiziki gücü**

---

[49] ŞEYX ƏBU ƏLİ İBN SİNA, **GÖRÜNTÜLƏR**, Tərcümə və şərh: R.Abdullaoğlu, “Qədim Qala” Nəşriyyat Evi, Bakı-2014.

Arifin etdiyi qeyri-adi işlərin təbii səbəbləri, bəzi hallarda insanın gücünün zəyifləməsi və gücünün artması, arifin qüdrəti ruhunda yaranmış titrəyiş səbəbilə güclənməsi və s. kimi mövzuları açıqlayır.

**-Qeybən xəbər vermək arifin əsas üçüncü xüsusiyyətidir**

Qurana görə, elm əldə etməyin dörd yolu, əqli dərklə qəlbi dərk arasında fərq, hər bir insanın dörd gözü var, yuxu zamanı insanın üzünə qeybin qapıları açılır, qeybə yaxınlaşmanı mümkün edən səbəb, "doğru yuxular" və ya "qeybi yuxular" Quran ayələrində, yuxular necə yaranır, əməllərin yuxulara təsiri, günah səbəbi ilə yuxuların unudulması, sehirin və cadunun təsiri, qeybanə səslər, cindən gələn müraciətlər və s. kimi mövzular açıqlanmışdır.

**-Ariflərin təbiət aləmində və insanlarda təsir qoya bilməsi**

Arif üçün təbiət, heyvanlar, kainat, xəstəliklər, təbii fəlakətlər ram olmuşdur, kamil insanın dua və bədduasının təsiri, bədənin ruhla olan əlaqəsi, arifin kainatda və təbiətdə təsir qoya bilməsinin səbəbi, "gözdəyməsi insanı qəbrə, dəvəni də qazana salar", sehir, tilsim, möcüzə və kəramətlər kimi qeyri-adi işlərin mənşəyi, İbn Sinanın vəsiyyəti: bu elmi kimə öyrətmək olar və kimə öyrətmək olmaz və s. kimi mövzulardan bəhs etmişdir.

## 7. “Hayy İbn Yakzan” (“Ayığın oğlu Canlı”)

İbn Sina həbsxanada olduğu zaman bu ilk povestini yazdı. Povestin qəhramanı sadə və mehriban, həmişə ayıq olan qoca ilə görüşür. Qoca qəhrəmana özünün səyahətlərindən, ətraf mühiti necə dərk etməsindən danışır. Qocanın mehriban qəlbi hər yeri gəzir: o, cəhənnəmə düşür və dünyanın ən yüksək qübbəsinədək yüksəlir. Bu əsəri oxuyanlar, kitabın hər bir səhifəsi müdrik düşüncələr və fəlsəfi fikirlərlə dolu olduğunu deyərlər.

İbn Sinanın bu povestini iki əsr sonra İbn Tüfeyl eyni adlı roman yazmış və bir çox cəhətdən İbn Sinanın povestinə bənzətmişdir. Ədiblər belə hesab edirlər ki, ölməz Dante də özünün “İlahi komediya”sını İbn Sinanın təsiri altında yazmışdır.

## 8.“Urcüzə”

Bu xüsusi bir poema idi. Onun qəhramanı təbabət, bütün tibbi biliklər idi. Bu poema gözəl obrazlı şeirlərlə yazılmışdır. İbn Sinanın özü ön sözdə belə yazmışdır: “Poema sadə şərhlərlə, aydın şeirlərlə elə yazılmışdır ki, onu oxumaq çətin olmasın”. Bu poemaya əsasən hətta məktəblidə təbabəti öyrənə bilərdi.

“Şairlər kainatın şahzadələridilər; həkimlər bədənə rəhbərlik edənlərdi. Əvvəlkilərin gözəl natiqlik qabiliyyətləri qəlblərə fərəh gətirir, axırıncıların sədaqəti xəstəliklərə şəfa verir. Bu poema bütün nəzəri və

praktiki təbabəti özündə əks etdirir. Və mən həmin poemada bu elm sahəsindəki bütün biliklərimi şeirlə izah edirəm”.

Bu poema latın dilinə tərcümə olunub və 600 il müxtəlif tibb məktəblərində oxudulmuşdur.

**Qəzzali:**

*“Cahillərlə mübahisə etməyin, mən heç qalip gəlmədim”.*



# QƏZZALİ (1058-1111)

Qəzzali 1058-ci ildə İranın Xorasan bölgəsinin Tus şəhərində anadan olub. Əsl adı Məhəmməddir. Atası onu qardaşı ilə bərabər ilk təhsilini almaq üçün bir sufinin yanına veribmiş. Mədrəsədən sonrakı təhsilini 1073-ci ildə Əhməd ibn Məhəmməd ər- Rəzqani adlı alimdən fiqh dərsləri almağa başlayıb. Daha sonra Cürcana gedərək Əbül-Qasim əl-İsmailinin fiqih və hədis dərslərinə qatılıb. 1080-ci ildə Nişapurdakı Nizamiyyə mədrəsəsinə qəbul olan Qəzzali mədrəsənin ən böyük üstadı İmamül-Harəməyn əl-Cüveyninin dərslərinə qatılmaq şansı əldə edib. Əbu Əli əl-Farməddin onun təsəvvüf şəxsiyyəti kimi formalaşmasında dəstək göstərib, təsir edib. Qəzzali qısa zamanda məşhur bir alimə çevrilmiş və elm dünyasında yüksək mərtəbəyə çatmışdır. Halhazırda elm dünyasında məşhurluğu və

fikirləri önəmini qoruyur. Əsasəndə Türküyə və Pakistan kimi sünnü müsəlman ölkələrdə əsərləri çox oxunur.

Cüveyninin ölümündən sonra O, Səlçuqlu vəziri Nizamülmülkün elm adamlarına hər cür imkan verilən qərargahına gedib 6 il orda qalmışdır. Buranın özünü təkmilləşdirməsində çox böyük təsiri olmuşdur. Bir müddət mədrəsədə müəllim işləmişdi. 1095-də Şama gedib iki il orada qaldıqdan sonra Qüdüsə geçmişdir. Məkkə və Mədinədə isə 11 il yaşamışdır. 1106-cı ildə geri Nişapura dönmüş, mədrəsədə fəaliyyət göstərmişdir. 1111-ci ilin dekabrında Tusda vəfat etmişdi. Məzarı şair Firdovsinin məzarının yanındadır. Qəzzali 54 illik ömürü 400-ə yaxın əsərlə yadda qalmışdır. O, fiqih, kəlam, təsəvvüf, məntiq, fəlsəfə və əxlaq sahələrində əsərlər yazmışdı.[50]

## ƏSƏRLƏRİ

### 1.Dəlalətdən Qurtuluş

-Qürura qapılma və bilginin inkarı

-Kəlam elminin məqsədi

-Filosofların sinifləri və hamsının küfür möhrü daşıdıqları haqqında

[50], Mahmut, **İSLAM FİLOZOFLARINDAN Felsefe Metinleri**, İstanbul: KLASİK Yayınları, Dokuzuncu Basım, 2013.**s. 337-338**

a.Materialistlər[51]

b.Naturalistlər[52]

c.Metafizikçilər

-Fəlsəfə elmlərinin bölümləri

a. Riyaziyyat

b. Məntiq

c. Fizika elmi

d. Metafizik

c. Siyasət

e. Əxlaq

---

[51]**Materialistlər (maddəçilik)** Maddəni varlığın təməli sayıb Allah, ruh və axirəti rədd edən fəlsəfə düşüncəsidi.

[52]**Naturalistlər (təbiətçilər)**Tanrını inkar edən,təbiəti maddədən meydana gəldiyini qəbul edən düşüncədir.

**İbn Bacə:**

*"Allaha yaxın edən elm, uzaqlaşdıran isə cəhalətdi".*



# İBN BACƏ (....-1139)

Orta əsrlərdə İslam coğrafiyasında uzaqlarda, XI əsrin sonlarında Əndəlüs İspaniyasında anadan olan Əbu Bəkir Məhəmməd İbn Yəhya qərb aləmində "Avempace" kimi ad-san qazanıb. Uşaqlıq və cavanlıq illərində yaxşı təhsil alan İbn Bacə eyni zamanda riyaziyyat, astronomiya, musiqi və məntiqlə maraqlanıb. Sonra isə təbiət elmləri ilə daha ciddi məşğul olub. Bir çox əmrə vəzirlik etməklə saray həkimi olaraq da çalışıb. Bir müddət həbsxana da görüb. 1139-cu ildə vəfat edən İbn Bacə həkimlik və vəzirlik vəzifələrindən vaxt ayıraraq 70 əsər yazmağa müvəffəq olub. Çox heyfki, günümüzə qədər 10 əsəri gəlib çata bilmişdir.

## ƏSƏRLƏRİ

### 1.Tənha insanın özünü idarə etməsi

**-Tədbirin mənası**

Tədbir bəzən güc, bəzən hərəkət halında olur, ancaq tədbir sözü daha çox güc halında olanı göstərməkdir. Düşüncəyə xasdır və sadəcə düşüncədə olur. Bunun insandan başqasında olması mümkün deyil.

**-Zidd fikirlər haqqında**

Ən doğru idarə-millət və ya dövlət onların görüşünü mənimsəməmiş tək adamın (özü özünü) idarəsidir. O, tək adam bir və ya birdən çox ola bilər. Təsəvvüfçülərin xarici dedikləri də onlardır. Çünki onlar öz vətənlərində yaxınları və dostları arasında olsalar da düşüncə dünyalarında başqa mərtəbələrə səyahət etdiklərinə görə, o mərtəbələr onların vətəni sayılır. Düşüncələrinə görə cəmiyyətə yaddılar.

**-Qavramlar haqqında**

Qavramlar bir neçə sinifə ayrılır:1) göy cisimlərinə aid qavramlar, 2)ağıllardakı qavramlar, 3) maddi varlıqlar və nəfs gücündə olan qavramlar.

**-Xoşbəxtlik**

Sufilər elm olmadan da ən ulu xoşbəxtliyə çatacaqlarını zənn edirlər. Hətta zehni hər şeydən təmizləyib Allahı hər an anmaqla zikrin mümkün olacağına inanırlar.

## 2. Vida risaləsi

### -Hərəkət haqqında

Bölünməyən hər şeyin hərəkəti sadəcə ərazidi.

### -Davranış haqqında

Hz. Peyğəmbər (s.a.s.) "İşlərin ən yaxşısı orta olanıdı"

-Həzz haqqında

Həzz duyğusu psixoloji bir hadisə olduğuna görə, əsasən onların həzzi öz orqanlarını inandırmaq üçün istədikləri və fərqinə varmadan başqası üçün sinifin xaricində qaldıqları hesab olunur.

### -Elmin və ağlın dəyəri haqqında

İnsanın Allaha yaxınlığı nisbətində Allah da insana yaxın sayılır və ondan razı olur. Bu yaxınlıq ancaq elmlə ola bilər. Allaha yaxın qılan elm, uzaqlaşdıran isə cəhalətdi. Bütün elmlər içində ən şərəflisi metafizika elmidi. Mərtəbələrin ən yüksəyi də insanın özünü bilmə-təsəvvür mərtəbəsidir ki, bu sayədə o, dəyərini anlatdığımız ağlı da bilmə imkanına qovuşmuş olsun.

# İBN TUFEYL (....-1185)



Əbu Bəkir Məhəmməd İbn Tufeyl Əndəlüs İspanyasında Qıranada yaxınlığında bir qəsəbədə anadan olub. Avropada "Abucaber" imzası ilə şöhrətlənib. İbn Tufeyl fəlsəfə, tibb, şeir və astronomiya sahələrində böyük bacarığasahib imiş.

Əbu Yaqub Yusifin 1184-ci ilində ölümündən sonra yerinə keçən Əbu Yusuf əl-Mansur tərəfindəndə himayə edilən İbn Tufeyl dəbir il sonra, 1185-ci ildə, Mərakeşdə vəfat edib. Yalnız bir alleqorik[53] romanı olan "Hayy İbn Yakzan[54]əsəri haqqında məlumat var.

[53] **Alleqorik:** Ümumi olaraq, nəzəri ya da mücərrəd fikirlər ilə əxlaqi dəyərlərin simvolik bir şəkildə izah edilmə sənətidir. Alleqorik ilə metaforun (məcazın) yaxın əlaqəsi var. Aristotel alleqorini "uzun yazılmış bir metafor" adlandırır.

[54] Bu əsərin birincisini İbn Sina, ikincisini isə İbn Tufeyl yazmışdı. Bu əsər Qərb dünyasında dini, elm və fəlsəfə sahələrində inqilab yaratmışdı. D.Humenin "təbii din" nəzəriyyəsinə, J.Rousseaunun "təbii insan" fikrinə də bu əsərin təsiri olmuşdur. Jon Locke, Voltaire, Leibniz, Moise de Narbonne və Spinoza kimi bir çox qərbli filosofları da dərindən təsirləndirmişdir.

İbn Rüşt:

*“Fikirlərin qanadları vardır, insanlara çatmasına kimsə mane ola bilməz”.*



## İBN RÜŞT (1126-1198)

Məşşa fəlsəfə məktəbinin Əndəlüsdəki sonuncu böyük nümayəndəsi İbn Rüşt 1126-cı ildə Qurtubada anadan olub. Alimlər və böyük fəqihlər yetişdirən görkəmli ailə mühitində böyüyüb. İbn Rüşd Qərb dünyasında “Commentator’’ adı ilə Şərqdə isə “əş-Şarih’’ adı ilə şöhrət qazanıb. Təhsilini təməl dini elmlərin Atası Əhməd Xocadan almışdır. İmam Malikin “Muvvatta” əsərini əzbərə bilib. “Muvvatta” İslamın ilk yazılan hədis kitablarından biridir. İbn Rüşt tibb, riyaziyat, fəlsəfə və s. kimi dərslər üzrə geniş təhsil almışdı.

1153-ci ildə Mərakeşə gedərkən orada İbn Tufeyl ilə tanış olub. Sevilya Müftülüyünə gətirilən İbn Rüşt, eyni vaxtda Aristonun əsərlərini şərhetməyə başlayıb. Sonra isə İbn Tufeylin yerinə saray həkimliyi vəzifəsini icra

edib. Onu sevməyənlərin intriqası nəticəsində İbn Rüşt bir müddət sonra hakimiyətin təqibinə məruz qalıb. Ancaq xalqın göstərdiyi narazılıq nəticəsində, köhnə etibarını qaytara bilib. Bununla da Xəlifə onu Mərakeşə dəvət edib. Böyük filosof bu dəvəti qəbul edərək ora köçmüş və 1198-ci ildə Mərakəşdə vəfat etmişdi. Cənazəsi Qurtubada dəfn edilib.

## Düşüncələri və Əsərləri

İbn Rüşt böyük filosof olaraq məntiq, metafizika, fizika, təbiyət elmləri və psixologiya sahələrində əsərlər yazmışdı. Məşşai fəlsəfəsini ağır bir şəkildə tənqid edən Qəzzaliyə cavabı ilə məşhurdu. İbn Rüştə görə din ilə fəlsəfə süd qardaşıdılar. İbn Rüşd Avropaya ən böyük təsir göstərən filosoflardan biridir. Düşüncələri Avropada renessansın başlanğacına səbəb olan ən böyük amil hesab olunur.

Qərbdə iki əsrdən çox davam edən İslam elm və fəlsəfəsinə aid əsərləri latincaya və ibranicəyə tərcümə edilib. XIII əsrdə İbn Rüştün əsərləri avropalılar tərəfindən tanınmaya başlanıb. Avropada kilsə ''Latin İbn Rüştülüyü'' hərəkətinin qarşısını ala bilməmiş və bu hərəkət renessans inqilabı ilə nəticələnmişdir. İbn Rüşt 100-dən çox əsərin müəllifi sayılır.

## 1.Fəlsəfə və din əlaqəsi haqqında son söz

-Dini baxışda fəlsəfə və məntiqin vəziyyəti

Bu məqalədə məqsəd, dini baxış cəhətdən fəlsəfə və məntiq elmləri sahəsində axtarış aparmaq dinə görə caizdirmi, təhlükəli, yoxsa əmredilən bir cəhət olduğunu və əgər belədirsə bunun tövsiyyə yoxsa vacib ifadə etdiyini araşdırmaqdır.

**-Məntiq nə üçün lazımdı?**

Din var olanları ağılla düşünüb incələməyi və dəyərləndirməyi vacib qıldığı, dəyərləndirmənində bilinəndən bilnməyənə çıxartmaqdan başqa bir şey olmadığı və buda müqayisə yolu ilə aparılandır.

Xarici elmlərin dəyəri, insan hər şeyi bilməz, fəlsəfə Allahı tanıdır, din ilə fəlsəfənin metodları arasındakı uyğunluq, ağıl ilə nəql arasında uyğun və bəzi mövzularda imkansızlıq kimi təhlillərdən söhbət açılmışdı.

**2.Fikirsizliyin fikirsizliyi əsərində aşağdakı mövzuları ələ alaraq incələyib açıqlayıb.**

-Səbəb qanununu rədd etmək ağlı rədd etməkdi

-Adət nə mənaya gəlir?

-Qeybi bilmək təbiəti başa düşməkdən başqa bir şey deyildi.

-Bu mövzuda şübhələri aradan qaldıracaq.

**SÜHRƏVƏRDİ**

*“Tənhalıq pis dostdan xeyirlidir”.*



# ŞİHABƏDDİN YƏHYA SÜHRƏVƏRDİ (1154-1191)

İranın (Cənubi Azərbaycanın) Sührəvərd qəsəbəsində 1154-cü il də anadan oldu. İslam fəlsəfəsində İşraq fəlsəfə məktəbinin qurucusudur. “Şeyxul-İşraq’’ (“İşraqlığın Şeyxi”) ünvanı ilə tanınır. O, dövrün elm mərkəzlərindən biri olan Marağada Məcdüddin əl-Cilidən fəlsəfə və kəlam dərsləri almışdır, sonra isə əl-Mardininin 1183-cü ildə dərslərinə qatılmaq üçün İsfahana getmişdir.

Sührəvərdi Hələbə getdikdən sonra Hələb əmri Sultan Səlahaddin Əyyubinin oğlu Şahzadə Malikin xidmətinə girdi. Onun xüsusi müəllimi təyin edildi. Orada uzun zaman dərslər verən gənc filosof şahzadəyə öz yeni fəlsəfəsindən bəhs etdi. Sürətlə sarayda yüksələn Sührəvərdi orta əsirlərin bilinən saray qısqanclığı və intriqalarından nəsibini aldı. Başqa filosoflara qarşı

olunan haqsızlıqlar Şeyx İşraqa qarşı da oldu. Hələbdəki vəzirlər, müftilər və fiqihçilər gənc filosofa düşman kəsildilər. O cümlədən bir sıra radikal və təəssübkeş dindarlar Şeyxin əsərlərini oxumağı xətərli hesab edirdilər. O dövrün məşhur müftisi Qazı əl-Fazilin Səlahaddinə yazdığı Sührəvərdinin edam edilməsini istədiyi məktubda Sultana onu öldürməsini əmr etdi. Onu "Azqın" , "dini pozmaya", "gənc şahzadəni yoldan çıxartmaq" ilə ittiham edirdilər. Bu dönəm həm də Xaçlı müharibələrin qızğın çağıydı. Müqəddəs torpaqlar uğrunda müsəlmanlar və xiristiyanlar arasında müharibə gedirdi. Əslində şübhəli olan ölümü haqqında elə də dəqiq bir dəlil yoxdu. Belə haqsız şikayətlər nəticəsində Sührəvərdi 1191-ci ildə Hələb zindanında dünyasını dəyişdi.

Tələbələri və sevənləri tərəfindən həbsxanada öldürüldüyünə dair şaiyələr uyduranlar onun "əl-Maktul", yəni "öldürülmüş" sifətiylə xatırlanmağa nail olmaq istəyirdilər.

## Düşüncələri və Əsərləri

Məşşa fəlsəfəsinə qarşı olunan sərt tənqidlər, qədim Yunan və İran fəlsəfəsi və Quran təlimləri İşraq fəlsəfə məktəbinin yaranmasına zəminə yaratdı. Hicri təqvim, V əsrdən sonra İslam aləminə əşərilər firqəsinin fikirlərinin hakim olması və Qəzzalinin yaranmış ideyoloji vəziyyətdən istifadə edərək fəlsəfəyə çox ağır zərbələr

vurması İslam aləmində rasional fəlsəfənin zəifləməsinə gətirib çıxartdı. Ona səbəb oldu ki, yeni fəlsəfi məktəbi yaranmalı və bu da ancaq dəlillərə deyil, qəlbi duyuma söykənən bir fəlsəfi məktəb olmalıdır. Şeyx İşraq bu fürsətdən istifadə edərək İşraq fəlsəfə məktəbini təsis etdi. [55]

Şeyx İşraqın Farabi və İbni Sinaya nisbət verən Məşşayi məktəbindən fərqlənməsinə səbəb olan ən önəmli amillərdən biri varlıq anlayışına verdiyi tərifdədir. Beləki Şeyx İşraq varlığı bir nura bənzədir və qeyd edir ki, həqiqətdə bir-birilərindən fərqli deyillər, bəlkə fərqli olma cəhətləri zəif və güclü olmasındadır. Misal üçün Günəş və ay nurunu nəzərdən keçirin. Hər ikisi nurdur və bir həqiqətdir. Ancaq eyni zamanda bir birilərindən fərqlidirlər, fərqli olma cəhətləri isə həqiqətlərində deyil, birinin zəif və digərinin güclü olmasıdır.[56]

Sührəvərdinin İşraq fəlsəfəsi ruhun təmizlənməsini əsas hesab edirdi. Bu düşüncə sisteminin tərkibində qədim İran hikməti hermetizm[57], Pifaqor[58] və Əflatun

---

[55] Yəhya Yəsribi, **Hikməte eşraqe Sohravardi-** تاریخ اشراق سهروردی **(Sohravardinin işraq fəlsəfəsi)**, bustane kitab nəşriyyatı 2014.(Farscadan tərcümə: Kamran Mamedov)

[56]Həsən Müəllimi, **fəlsəfeye işraq-** فلسفه اشراق **(işraq fəlsəfəsi)**, Tehran, naşir: hümanitar elmlərlə bağlı araşdırma və kitabların tədvini mərkəzi 2014.(Farscadan tərcümə: Kamran Mamedov)

[57]**Hermetizm:** Hermese isnad edilən kitab və risalələrin toplamı. Ərəbçə əsərlərdə yayğın işlədilən Nübüvvət, Hikmət və Mülk şəklində Tanrı adına danışan Hikmət Üçbucağına nisbətlə "üç dəfə daha böyük"mənasını izafətlə meydana çıxmış anlayışdı.

kimi qədim yunan fəlsəfə sisteminin mənbələri aydın hiss olunurdu. İslam filosflarından İbn Sina, İslam sufilərindən Qəzzali, Bəyazid Bistami, Həllac Mansur kimi fikir adamlarının təsiri də görünməkdədir. Sührəvərdiyə görə bütün alim və filosoflar kəşf və ruhi aydınlanmanı əsas sandıqları üçün İşraq sayılırlar.

## 1.Aydınlanma fəlsəfəsi ("Hikmətül-İşraqi")

Bu əsərində Sührəvərdinin əsasən düşüncə sistemini qoruyan məşhur aləti məntiq metodudu. Burada miqdarı az, dəyərisə çox göstərilir. Astranomiya və bənzəri hissi varlıq sahələrini seyr edən, haqlarında dəqiq məlumat əldə edib və bu məlumatların üzərinə elmləri inşa etmək Ruhaniyyətdə çox önəmlidi. Bu əsər Məntiq vəMetafizik düşüncəni ələ almaqla iki qisimdən bəhs edir. Kitabda yer alan əsas mövzular aşağıdakılardı:

-İlahi Nurlar, Nurların-Nuru, Varlığın Prinsipləri və Düzəni

-Nurun Həqiqəti, Nurlar Nuru və Ondan İlk Daşan Varlıq Haqqında

-Nurun Tərifə Ehtiyacı Yoxdu

-Zəngin və Kasıb

---

[58] Bu məktəbdə məqsəd anlamaq və öyrənməkdən çox təmizlənmək, bilgi yolu ilə saflaşma və aləmin ruhuyla birləşməkdi. Bu məktəbin üzüvləri riyazi saylar metafizikasını inkişaf etdirmişlərdi.

-Nur və Zülmət

-Cisim Nura Möhtacdı

-Nurun Xüsusiyyətləri

-Özünə Nur Olan Hər Şey Dəqiq Nurdu

-Öz Varlığını İdrak Edən Dəqiq Nurdu

-Nur və Nurun Qisimləri

-Sührəvərdinin Vəsiyyəti

Sührəvərdinin vəsiyyəti daima ölümü xatırlamaq, axirət həyatının gerçək olduğunu, Allahı davamlı xatırlamaq, yalnız müsəlman kimi ölmək vacibiyyətin-dən bəhs edir.

Sührəvərdi: "Ey Rəbbimiz! Ey mənim və hər şeyin İlahı! Bizə şanına layiq şəkildə rəftar et. Bir an olsun bizi özümüzə və səndən başqasına buraxma. Ya Rəbbi! Bizlərə dünya və axirətin yaxşılıqlarını qismət et, pisliklərini bizdən döndər. Ey Mərhəmətlilərin ən Mərhəmətlisi! Özündən istənən və gözlənənlərin ən xeyirlisi! Qüsurlarmızı ört, bizlərə yardım et və bizləri səninlə xoşbəxt qıl. Hər cür tərifə, şükrə və ibadətə layiq, cömərt şəkildə ikram edən və varlığı lütfedən Allaha layiqdi. Onun elçisinə və nəbilərinəsəlat olsun. Xüsusi olaraq Həzrəti Məhəmməd (s.a.s) və onun tərtəmiz Əhli-Beytinə daima ən gözəl şəkildə səlat olsun. Onları sonsuz səlamətdə qıl".

## 2.İşarətlər Kitabı

-Röyadakı Aristotel

Burada Sührəvərdi yuxusunda Aristotel ilə danışır.

## 3.Qərbə Səyahətin Hekayəsi

Bu əsərində ruhlar aləmindən (Şərqdən) maddə aləminə (Qərb şəhərlərinə) yolculuğa çıxır. Sührəvərdi bu hekayəyi qurarkən qəfil bəşəri duyğulara hakim olmaya başladığını gördü. Bundan sonra ülvi aləmdən maddi aləmdə ruhun işraq ilə aydınlanmasına inanmayan bir topluluğun yaşadığı dünyaya döndü.

**Nəsrəddin Tusi:**

*"Düzgün yol məqsədə çatmaq üçün ən yaxın yoldur".*



# Filosof-Vəzir Xacə NƏSRƏDDİN TUSİ (1201-1274)

1201-ci ildə İranın Xorasan vilayətində Tus şəhərində anadan olub. İlk təhsilini Tusda atası məşhur Şiə fiqih alimi Muhammed İbn Hazandan alıb. O, ərəb dili, Quran, hədis, şiə fiqihi, hüquq, məntiq, riyazyiyyat, təbiət elmlər və metafizik dərsləri uşaq yaşlarında öyrənib. Nəsrəddin Tusi Azərbaycanın böyük alimlərdən biridi.

Gənçlik illərində Nəsrəddin Tusi təhsilini davam etdirmək üçün Tusdan ayrılaraq, o dövrün intellektual mərkəzi olan, məşhur alimlərin burada dərs verdiyi Nişapura gedib. Feridüddin Damad Nişapuridən dərs alıb. Nişapurinin müəllimi Əfdələddin Gilani olmuşdusa, onun müəllimi Sədrəddin Sərahsi, onun da müəllimi Əbu

Abbas Lakari, onun müəllimi də Bəhmənyar[59], onun da müəllimi İbn Sinadır. Nəticə etibarı ilə Nəsrəddin Tusinin beş filosofun vasitəsi ilə Məşşai fəlsəfəsinin ustadına bağlları meydana çıxır. N.Tusi Feridüddin Damad vasitəsilə İbn Sinanın "əl-İşarət vət-tənbihatı"nı oxudu. Faxrəddin ər-Razinin tələbəsi olan Kutbəddin əl-Misridən İbn Sinanın Qanununu oxudu. Kəmaləddin İbn Yunus əl-Misridən riyaziyyat dərsləri aldı. 1222-ci ildə hədis nəql etmək üçün icazət verildi. Monqolların hücumu nəticəsində İsmaili əmri Nəsrəddin Əbdurrəhmanın xidmətinə göndərildi. Burada "Əxlaqı Nasıri", "Əxlaqı Möhtəşəmi", "Şərhul İşarət" və "Əsasül-İktinbas" adlı kitablarını yazdı. İsmaililərlə keçən günlərini və əsasəndə "Şərhul İşarət" adlı kitabını yazdığı zaman içinə düşdüyü vəziyyətdən belə şikayət etmişdi: "Bu kitabın önəmli bir hissəsini, elə çətin şərtlər altında yazdım ki, bundan daha çətininə rast gəlmək qeyri -mümkündü''. Başqa bir fars şerində şikayətini belə dilə gətirmişdi: "Ətrafıma baxdığım zaman elə bir üzük görürəm ki, məndə onun qaşıyam''.

Nəsrəddin Tusinin üç oğlu olmuşdur: Sədrəddin Əli, Əsiləddin Həsən və Fəxrəddin Əhməd. Onların içində elmlə məşğul olan və dövlət işlərində vəzifə alanlar olmuşdur. Nəsrəddin Tusi nəslindən olanlar sonralar Naxçıvan ərazisində yaşamışdılar. Bəziləri Elm dünyasında, ədəbiyyat və incəsənət sahəsində önəmli

[59] **Bəhmənyar ibn Mərzəban əl-Azərbaycani:** İbn Sinanın ən tanınmış tələbələrindən idi. Məcusi bir ailədə dünyaya göz açmışdı və sonra İslam dinini qəbul etmişdi. Önəmli əsərləri; ət-Təhsilat, Taliqat, əl-Mubasatdı.

şəxslər olmuşdur. Tusinin nəslinin bir hissəsi Naxçıvanın Ordubad bölgəsində ömür sürüblər. I Şah Abbas da oranı Nəsrəddin Tusinin xətirinə bütün vergilərdən azad etmişdir. Ordubadda tikilmiş böyük Cümə məscidinin qapısı üstündə bu haqda daş kitabədə yazılmışdır.

1255-ci ildə Monqol xanı Hülakü İranı işğal edərkən Nəsrəddin Tusinin məhbus olaraq qaldığı Alamut Qalasını da ələ keçirir. Tusi İsmaili əmrinin sülh yolu ilə Hülaküyə təslim olmasına vasitəçi olur. Bu təşəbbüsü Monqol xanının da xoşuna gəlir. 1256-cı ildə Monqol xanı onu xidmətinə götürür və sonradan vəzirlik vəzifəsinə qədər yüksəlir.

10 Ramazan 1257-ci ildə Hülakü Həmədandan Bağdada yola çıxanda Xəlifəyə məktub göndərir ki, təslim olsun. Monqolların ordusu Bağdada yaxınlaşdığı zaman Hülakünün yanında Nəsrəddin Tusidə var idi. Bağdad mühasirə altında olduğu zaman Hülakü Nəsrəddin Tusini elçi vəzifəsində Xəlifəni təslim olmağa razı salmaq üçün onun sarayına göndərir. Xəlifə əvvəlcə təslim olmağı rədd edir, ancaq Tusinin mətiqinə inanıb ailəsiylə bərabər təslimiyyəti qəbul edir. Nəsrəddin Tusi diplomat elçi vəzifəsini icra edərkən Hülakü xanın Bağdadda hücumundan maksimum dinc əhalini qorumaq üçün xalqı önəmli addımlar atır.

Hülakünün əmri ilə Marağaya gedən Tusi məşhur rəsədxananın inşasını başladır. Hülakü xan ən çox onun tibb və astronomiya sahəsindəki peşakarlığı ilə maraq-

lanmışdı. Nəsrəddin Tusi monqolların Bağdadı ələ keçirməsindən sonra hökümdarı yola gətirərək ölkədə yaşayan digər filosof və elm adamlarını edamdan qoruya bilmişdi. Onlara elmi çalışmalarını inkişaf etdirmək üçün öz ətrafına toplayaraq hərcür şəraitlə təmin etməyə nail olmuşdu. Bəzi rəvayətlərə görə, o, Hülakünü və arvadını gizlicə müsəlman etmişdi. Şəxsən özü onu həkim kimi sünnət etmişdir. Bu rəvayəti təsdiqləyən başqa mənbələrdə vardı. Vəfat edən Hülakünün yerinə oğlu Abaqa Xan keçmiş və Tusini də özünə vəzir təyin etmişdir. Həmdə xanın xüsusi həkimi olmuşdur.

1257-ci ildə Nəsrəddin Tusinin yanında Xorasana gedənlər arasında məşhur filosof Qütbəddin əş-Şirazidə (1236-1311) var idi. Abaqa Xan ovda vəhşi öküz tərəfindən yaralandıqda Tusinin məsləhəti ilə Böyük Xanı bir həkim əməliyyat edib sağaltdı.

1273-ci ildə Abaqa Xanla Bağdada getdiyi son səfərində o, yolda xəstələnir. Böyük Xan Şirazi ilə bərabər Nəsrəddin Tusinin xəstə yatağına baş çəkir. Bu xəstəlik nəticəsində 1274-cü ilin iyulun 25-də vəfat edən filosof Kazımeyində dəfn edilir.

## Marağa Rəsədxanası və Nəsrəddin Tusi

Hülakünün himayəsində Nəsrəddin Tusi tərəfindən astronomiya rəsədxanası Mağarada qurulmuşdu. Raşidəddin Fəzlullaha görə Hülakü İrana gəldiyi zaman özü ilə bir qrup Çinli filosof, doktor və astranomiya elm

adamı da gətirmişdi. Raşidəddinin söyləyir ki, Nəsrəddin Tusi çinli elm adamlarının bildiklərini çox sürətlə öyrənib. Tusi Rəsədxananı 1259-cu ildə xidmətə açıq elan edir. Burada İslam dünyasının fərqli yerlərindən gələn 20-yə yaxın elm adamı və çinli riyaziyyatçı işləyirdi. İslam ölkələrinin hər tərəfindən gələn tələbə və müəllimlər burada elmi fəaliyyətlə məşğul olurdular. Monqollar İranı işğ etməzdən əvvəldə riyaziyyat və astranomiya sahələrində Tusinin məşhurluğu hər yerə yayılmışdı. Bu rəsədxanada fəlsəfədən tutmuş riyaziyyat və astronomiyaya qədər intellektual araşdırmalar fasiləsiz aparılırdı. Bura artıq Şərqin nəhəng elm mərkəzinə çevirilmişdi.

Tusinin dəvəti üzərinə Şam, Bağdad, Tiflis, Qəzvin və Şirazdan elm adamları Marağaya gələrək elmi çalışmalarda iştirak edirdilər. O, rəsədxananın həyətində bir kitabxana da inşa etdirmişdi. Burada 40 min cild əsər var imiş. Rəsədxananın xərcləri zəkatla qarşılanırdı. Bu eyni zamanda Nəsrəddin Tusinin başçılığı altında Qərb renessansından əvvəl baş verən elmi inqilab idi. Əsl mənada Nəsrəddin Tusi bir renessans dühasıydı. Bu baxımdan inamla demək olar ki, istər astronomiya, istərsə də coğrafiya sahəsində Avropa intibahına Tusinin əsərləri qədər təsir göstərən ikinci bir Şərq elm adamı tapmaq çətindi. Nəsirəddin Tusi öz dövrü üçün elmin ən yüksək zirvəsi hesab edilən Marağa rəsədxanasını inşa etdirərək, orada göy cismlərinin öyrənilməsi sahəsində böyük bir məktəbin əsasını qoymuşdu.

Nəsrəddin Tusinin qurduğu rəsədxananı müasir zamanda ancaq məşhur NASA (ABŞ Aviasiya və Kosmos İdarəsi ) ilə müqayisə etmək olar. Bu isə türk dünyasının yetişdirib bəşəriyyətə bəxş etdiyi Nəsrəddin Tusinin idrakının böyüklüyünü göstərir.

## Nəsrəddin Tusi və Siyasət

"Əxlaqi Nasıri" da siyasətlə əlaqəli bölüm iki hissəyə ayrılır. Birinci hissə "Dər teəbir mənazil" ("Ev İşlərinin Necə İdarə Ediləcəyi Haqqında") ev işləri və azda olsa cəmiyyət işləri yer alır. İkinci hissədə isə "Dər Siyasət-i Müdün" ("Şəhərlərin Siyasəti Haqqında") burada isə milli məsələlərlə ya da daha geniş miqdarda cəmiyyət nizamı haqqında məsələlər yer almışdı.

Nəsrəddin Tusi ev işlərində "qadın və əri, ana-baba ilə uşaqlar, xidmətçi ilə sahibi, mal ilə mal sahibi arasında meydana gələn bir nizamı" ələ almışdı. Filosofa görə evin ağaçdan, daşdan, çadırdan və dirəklərdən, ağaç kölgəsindən yada mağaradan olması heç bir şeyi dəyişdirməz. Ev geniş və fərah olmalı, yanğın və oğrulara qarşı təbii və qeyri-təbii fəlakətlərdən qorunmalıdı. Nəsrəddin Tusi qadına çox dəyər vermişdi. Ona görə "yaxşı bir qadın ailədə malda-mülkdə kişiyə ortaqdır, sahiblikdə və ailənin idarəsində kişiyə ortaqdır, kişinin olmadığı zaman ailə işlərini o idarə etməlidir yəni kişinin vəkilidi". Ana babaya mütləq hörmət göstərilməsini istəmişdi.

## Şair Filosof

Nəsrəddin Tusi dövlət vəzifələrinin xaricində elm, fəlsəfə, musiqi və şairliklə də məşğul olmuşdu. O, musiqi ilə əlaqəli bir risalə yazmışdı. İki hissəli "Miyarrul-Əşar" adlı əsəri vəzn və şeirlərindən ibarətdir. Kitabda vəzn (əruz və qafiyə) ilə əlaqəli müfəssəl məlumat verilir.

Təsəvvür şeirin içində olan bir şeydi. Nəsrəddin Tusiyə görə təsəvvür "kəlimələrin ruhu, təsir etmə gücüdür''. Ona görə ərəblər və farslar təsəvvürü şeirin təməl amili olaraq görürlər.  Ritim isə şeirdə hərəkət və durmaqla oxuyucuya böyük bir həz verən bir sistemdi. Təsəvvür və ritm (vəzn) şeirin iki ayrı tərkib hissəsidi.

## Nəsrəddin Tusinin Düşüncələri

O, öz dövründəki çox saylı məşhur filosoflarla məktublaşmışdı. Məşhur Sədrəddin Qonəvi Nəsrəddin Tusiyə məktub göndərmişdi. Bu məktubda böyük filosof Nəsrəddin Tusiyə heyran olduğunu, nizamlı olaraq onunla məktublaşmaq istədiyini və ondan Məşşa fəlsəfəsini öyrəşmək istədiyini xaiş etmişdi. Qonəvi ətrafındakı filosoflarla müzakirə etdiyi fəlsəfə  mövzularından məydana gələn bir kitabı Nəsrəddin Tusiyə göndərmişdi.  Nəsrəddin Tusi tez bir zaman ərzində Qonəviyə səmimi və incə bir dillə cavab vermişdi. Kitabı

çox bəyəndiyini dilə gətirmişdi. Nəsrəddin Tusi hər zaman ona məktub yazmağa niyyətləndiyini, davamlı məktublaşmaq istədiyini qəbul etmişdir. Qonəvinin məktubunun onun üçün xoş olduğunu və bununla şərəf duyduğunu bildirir. Sürpriz olduğunu, məktublaşmağı Qonəvi başladığı üçün ən böyük şərəfin ona aid olduğunu dilə gətirmişdi.

Nəsrəddin Tusi fizikanı təbiətşünaslıq məsələlərinə daxil etmişdi. Burada sadə və mürəkkəb cisimlər, yerdə və göydə əmələ gələn hadisələrin, məsələn: göy gurultusu, ildırım, şimşək, yağış, qar, zəlzələ və buna oxşar hadisələrin səbəbləri, mürəkkəb maddələr, onların tərkiblərinin xüsusiyyətləri (mineralogiya), bitkilər, onların növləri, nəfs və qüvvələri (botanika), ixtiyari və iradi hərəkət edən cisimlər, onların hərəkət xüsusiyyətləri, nəfs və qüvvələri (zoologiya), insanın düşüncəli nəfsinin xüsusiyyətləri (psixologiya) öyrənilir. Nəsrəddin Tusi təbabət, əkinçilik elmini və s. fizikanın əlavə bölmələri hesab etmişdi. Onun və Marağa rəsədxanasında çalışan alimlərin kəşf və ixtiraları bəşər elminə böyük tövhə sayılır. Mənbələrdə Nəsrəddin Tusiyə fövqəladə qabiliyyətinə, dərin zəkasına və misilsiz xidmətlərinə görə “bəşər ustadı” deyilmişdi.

Onun ən məşhur tələbələrindən biri Əllamə Qütbəd-din əş-Şirazidi. Tusinin fiqh elminə ciddi yanaşmış tələbələrindən biridə məşhur Şiə fəqih Əllamə Hilli hesab olunur. Hilli üstadı Nəsrəddin Tusi haqqında

“indiyə kimi gördüklərimin arasında ən dəyərlisidi”,- demişdi.

Nəsrəddin Tusinin bir çox sahədə çalışma və araşdırmalar apararaq böyük ideaları həyata keçirmişdi. İntellektual səviyyəsi onu İbn Sinaya bənzətmişdi. Nəsrəddin Tusi fəlsəfə, kəlam, əqaid və təsəvvüf sahələrində böyük bilgiyə sahib olmuşdur. Əsərlərini ərəb və fars dillərində yazmışdı. O bir çox elm adamı ilə məktublaşmışdı. Onun məktublarının çoxu günümüzə qədər qorunub saxlanmışdı. Onun elminə heyran olan Şirazi öz ustadlıq kürsüsünü Nəsrəddin Tusiyə vermişdi.

Nəsrəddin Tusinin fəlsəfə haqqında fikirlərinə də İbn Sinanın “İşarələr və qeydlər” kitabının şərhində və “Problemlərin həlli”, “Kəlamın təcridi”, “İqtibasın əsası” ilahiyyat məsələlərinə də müəyyən yerverilmişdi.

Nəsrəddin Tusi İbn Sina və Bəhmənyar məktəbinin görkəmli davamçısı olub, Şərq fəlsəfəsini inkişaf etdirmişdi. Tusi varlığı ilk səbəb və nəticə timsalında qisimlərə bölüb, onlar arasında zaman fərqinin olmadığını göstərmiş, mümkün varlığı, o cümlədən maddi aləmi əzəli və əbədi saymışdı. Filosofun varlıq təlimində materiya və formanın vəhdəti, hərəkətin kəmiyyət, keyfiyyət, məkan və vəziyyətə görə növləri, zaman və başqa fəlsəfi kateqoriyalar riyazi və təbii-elmi fikirlərdən misallarla hərtərəfli və dərindən işıqlandırılmışdı. Nəsrəddin Tusinin idrak nəzəriyyəsində idrak prosesinin hissi və əqli mərhələləri elmi şəkildə şərh edilmiş, hisslər vasitəsilə şeylərin zahiri cəhətlərinin,

əqil ilə onların mahiyyətinin dərk olunduğu göstərilmişdi. Filosofun məntiq təlimində təfəkkür formaları və onların növləri xüsusi araşdırılır.

Nəsrəddin Tusinin fars və ərəb dillərində yazdığı əsərləri Orta Əsrlərdə İslam fəlsəfəsinə böyük yeniliklər gətirmişdi. Bağdatdakı Nizamiyyə mədrəsəsəsini Ata Məlik Cüveyni ilə bərabər yeniləmişdi. 1325-ci ildə məşhur tarixçi İbn Batuta bu mədərəsəni ziyarət edib onu təriфləmişdi. Bu dönəmin ən böyük elm mərkəzləri Bağdad, Şiraz, Nişapur, Kirman, Marağa və Təbriz idi.

## Əsərləri

Məntiqlə əlaqəli olaraq yazdığı "Əsasül-İqtibas" adlı əsəri, əxlaqla əlaqəli "Əxlaqı Nasıri" adlı əsəri, astronomiya mövzusunda qələmə aldığı "Zic-i İlxani Cahangüşa" əsəri zərif fars dilində nəsrlə yazılmışdı. Riyaziyyat, triqonometriya və hesab ilə əlaqəli müsbət elmlərə böyük faydaları olmuşdu.

Nəsrəddin Tusinin "Şərhul-İşarət", "Akasamul-Hikmə", "Bakan-Nəfs", "Cəbr-u İxtiyar", "Rabtul-Hədis bil-Qədim", "Rəvadal-Kulüb", "Əxlaqı Möhtəşəmi", "Əxlaq-ı Nasıri", "Şərh-i İsbad-ı Ağıl", "əl-İləl vəl-Malülat", "əl-İlmül-İqtisabi", "Kəyfiyyat-i Suduril-mevcüdat" və Nəcməddin Dəbran ilə məktublaşması fəlsəfə haqqında yazdığı əsərləridi.

Nəsrəddin Tusi tam dördbucaqlı haqqındakı trigonometriya əsəri riyaziyyat tarixində "nizami cütlər ( təbii

saylar) arasındakı vurma əməlini yer dəyişdirmə xüsusiyətini isbat etmişdir''. Elmlərə ən böyük müsbət yeniliyi bununla bitmir, astronomiyada xüsusən planet nəzəriyəsi ilə əlaqəli əsərləri də mükəmməldi.

## **"Şərhul-İşarət"**

Nəsrəddin ət-Tusinin ən önəmli fəlsəfi əsəri İbn Sinanın Məşşa fəlsəfəsini müdafiə üçün qələmə aldığı və son əsərlərindən biri qəbul edilən "əl-İşarət vət-Tənbihata" yazmış olduğu şərhdi. Bu əsərin ən çox diqqət çəkən yönü "Məşşa fəlsəfənin ustadı"nın İslam təsəvvüfünün ələ aldığı son üç bölümdü. Burada ər-Razinin tənqidlərinə cavab olaraq İbn Sinayı müdafiə edir.

Bu əsəri yazarkən İsmaili Əmiri ilə bərabər keçirdiyi günlər onun üçün dözülməsi çətin olan bir əziyyət idi. Şərhin sonunda bunları yazmışdı: "Bu kitabın çoxunu inanılmaz çətin olan şərtlər altında, hər hissəsi mənim üçün üzüntü vəsiləsi olan bir zaman da və dözülməz peşmanlıq hissi və böyük üzüntülər yaşadığım bir anda yazdım".

"Ətrafımı gördüyüm bu gündən bu tərəfə,bəla bir üzük mən isə onun qaşıyam…"

"Hər şeyə gücü yetən Allahım… Seçilmiş peyğəmbərin Mustafa və onun xəlifəsi Əli haqqı məni bəlaların hücumunun verdiyi əziyyətdən və izitrab dalğalarından

qurtar! Allahım! Sən, yalnız sən, hərkəsə qarşı ən mərhamətli olansan!”

## Məntiq Əsərləri

### “Əsasül-İktibas”

Nəsrəddin Tusinin bu əsəri 1244-cü ildə tamamlanmış bir məntiq əsəridi. Doqquz bölümdən ibarətdi. Farsca yazılmışdı. Rüqnəddin Məhəmməd İbn Əli əl-Farisi əl-Əstərabadi tərəfindən ərəbcəyə tərcümə olunmuşdu.

İbn Sinanın “Şəfa”sından sonra yazılan məntiqlə əlaqəli ən səlis əsərdi. Ağıl elmləri yunan dilindən tərcümə edilərək, o zamana qədər fars dilində belə ətraflı bir əsər yazılmamışdı.

Nəsrəddin Tusi “Əsasül-İqtibas”ı klassik Aristotelçi və İbn Sinaçı metodun xəttini izləyərək Porphyrosun[60] “Müqəddimə”si ilə başlayıb və mövcud metodu izləyərək Aristoteldə olan məntiq ilə əlaqəli səkkiz bölümü ələ almışdı.

## Sxolostika Əsərləri

Rəvayətə görə Nəsrəddin Tusi bir kəndli ilə qarşılaşdığı zaman kəndliyə: - “Allah birdirmi ikidirmi?”-sualını verdi. Kəndli: “O, birdir”-cavabını verir. Sonra

[60] **Porphyrios (232-Roma, 304-cü illər arasında yaşamışdı.):**Suriyalı Porfiryos adı ilə də tanınan bir filosofdur. Dini elmlər yanında astronomiya, riyaziyyat, tarix və ədəbiyyat ilə də maraqlanmışdı. Məntiq sahəsində yazdığı“Müqəddimə” əsər həm İslam həm də Qərb dünyasında çox tanınmışdı və uzun illər dərs kitabı olaraq oxudulmuşdu.

Nəsrəddin Tusinin: "əgər biri sənə iki tanrı olduğunu söyləsə nə edərsən?"- sualını verdi. Kəndli: "Bu əlimdəki kürəklə başını ortadan ikiyə ayıraram"- dedi. Filosofun kəlamla əlaqəli ən önəmli əsəri, "Təcridül-İtiqad" olaraqda bilinən "Təcridül-Əqaid" adlı əsəridi. Başqa bir kəlam əsəri isə isbatı "Vahdətullahi cəllə cəlalüh" adlı əsəridir. Başqa kəlam əsərləridə vardı. "Təcridül-Etiqad" əsərində Şiə kəlamının təməl maddələrini ələ almışdır. Burada cövhərləri, Allah və sifətlərinin isbatı, peyğəmbərlik, imaməti və məad (axirət) mövzuları açıqlanmışdı.

## Əxlaq Haqqında əsərləri

### "Əxlaqı Möhtəşəmi"

Bu əsərin mənbəyi həm yunan həm də İslam mənbələrinə dayanır. "Əxlaqi Möhtəşəm"i Kuhistan əmiri (Möhtəşəmi) Nəsrəddin Əbdürrəhim Əbu Mansur adına yazıldığına görə bu adı almışdı. Əmirin özü belə bir əsər yazmaq istəyirdi, onun özü intellektual bir İsmaili lideriydi. Kitab dört bölümdən ibarətdir. Hər bölümü Qurandan ayələr, peyğəmbərmizdən hədislər və Şiə imamlarının sözləri yer almışdı. Nəsrəddin Tusinin əsərində birinci mənbələr arasında, İmam Əlinin "Nəhcül-Bəlağə"si və dördüncü İmam Zeynəl Abidinin "əs-Sahifatus-Səccadiyyə" adlı əsəri yer almaqdadı. Nəsrəddin Tusi hər bölümü yunan filosoflarının sözü ilə bitirir.

Kitabda Quran ayalərinə, Peyğəmbər və Şiə imamlarının sözlərinə geniş yer verilmişdi. Bu kitab əxlaq davranışları əl kitabıdı.  Burada sözü gedən əxlaqın təməlində bilgi (mərifət) vardı. Mərüfetullah, nübüvvət bilgisi və ondan sonra gələn İmamların bilgisi.

## Uşaqlar üçün əxlaq kitabı, İbn Mukafanın-“əl Ədəbül-Vəciz lil-Vələdis-Sağir” (kiçik uşaqlar üçün əxlaqi davranışlar əl kitabı) tərcüməsidi.

Bu əsərdə İbn Mukaffanın öz oğluna xitab edərək Allaha itaət etməsi lazım olduğunu söyləməsidi. Kiçik uşaqların balaca vaxtlarında elm öyrənmələri çox mühümdür. Ariflərin yanına tez -tez getməlidirlər. Onlar maddi qazancla maraqlanmamalıdırlar. Vəzifələrini yerinə yetirməli və yalan danışmamalıdırlar. Səbr etmək yaxşıdır, gəvəzəlikdən qaçmalıdırlar və susmalıdırlar, hökmdarlara yalvarmamalıdırlar və s. Aşağıda əsərdən kiçik bir hissə verilib:

“Ey oğul! Bil ki, hər kim zəif və gücsüzsə, haqsız və ədalətsizlərin günahlandırcı barmaqları hey onun qarşısındadı. Dostları belə ondan şübhələnir. Onun günahları və xətaları əsla gizli qalmaz. Çünkü zəif insan hər zaman üçün suçlamalara məruz qalır. İnsanlar onun cömərtliyini isə israfçılıq və ağılsızlıq, səbrini zəyiflik, qərarlığını inadçılıq, gözəl danışmasını gəvəzəlik, səssizliğini isə beyinsizlik adlandırırlar’’

## “Əxlaqi-Nasiri”[61]

Nəsrəddin Tusinin etik və ictimai-siyasi görüşləri əsas etibari ilə “Əxlaqı-Nasıri” əsərində əksini tapmışdı. Əsər bir giriş, üç hissədən və bir sonucdan ibarətdi. Burada maddələr və məqsədlər, daxili siyasət, milli siyasət ya da şəhər siyasətindən bəhs edilmişdi. Üçüncü hissə “Nəsrəddin ət-Tusinin sosiologiyası” olaraq adlandırmaq mümkündü.

Yuxarda qeyd edildiyi kimi kitab üç hissədən ibarətdir:

**1.Əxlaqın saflaşdırılması haqqında**

**2. Evdarlıq elmi haqqında**

-Mənzilə olan ehtiyacın səbəbi, onun əsasları və ən mühüm cəhətləri

-Siyasət (idarəetmə), mal və zumar toplamaq qaydaları haqqında

-Ailə dolandırmaq və evdarlıq qaydaları haqqında

-Övlad saxlamaq və tərbiyə etmək haqqında

-Xidmətçiləri və qulları idarə etmək qaydaları haqqında

**3. Ölkə (şəhərləri) idarəetmə qaydaları**

[61]Nəsirəddin Tusi, **Əxlaqi-Nasiri**, Bakı: Kıtab Klubu, 2016.

-Xalqın təməddünə (icma halda yaşamağa) ehtiyacının səbəbi, bu növ elmin mahiyyəti və fəzilətlərinin şərhi haqqında.

-İctimaların əlaqəsi üçün zəruri olan məhəbbətin fəziləti və növləri haqqında

-İctimaların növləri və şəhərlərin əmələ gəlməsi haqqında

-Ölkə dolandırmaq siyasəti və şahların xisləti haqqında

-Şah xidmətində olmaq və rəiyyətlik qayda-qanunları haqqında

-Sədaqətin fəziləti və sədaqətli adamlarla (dostlarla) davranış qaydaları haqqında

-Xalqın bütün təbəqələri ilə davranış qaydaları (xüsusiyyətləri) haqqında

Yuxarda sayılan əsas hissə başlıqlarıdır. Son olaraq Kitab "Bütün fəsillər üçün faydalı olan Əflatunun vəsiyyətləri haqqında" mövzusuyla bitir.

Ümumi fəlsəfi məsələlərə də müəyyən yer verilmiş bu əsərdə xasiyyətlərin müxtəlif aspektləri, fəzilətli və qəbahətli cəhətləri araşdırılır, insanı kamilləşdirən keyfiyyətlər, xeyir və səadətə aparan məziyyətlər göstərilir. Diqqəti insan və cəmiyyət münasibətlərinə yönəldən Nəsirəddin Tusinin idarəetmə nəzəriyyəsində özünü, ailəni və dövləti idarəetmə məsələlərini təhlil edilir, insanların "ədalət, fəzilət və hikmət qanunları əsasında idarə edilməsi"ni zəruri sayılır. Nəsirəddin

Tusi fiqhə (müsəlman hüququ) dair əsərlərində humanist mövqe tutmuşdu və insanların əmin-amanlığı qayğısına qalmağı ümumi prinsip saymışdı. Nəsirəddin Tusi poeziya nəzəriyyəsinə, musiqiyə dair risalələrin və fəlsəfi şerlərin də müəllifidi. Nəsirəddin Tusinin dünya görüşü, geniş mündəricəli fəlsəfəsi, mütərəqqi etik və ictimai-siyasi, ilahiyyata dair fikirləri təkcə tarixilik baxımından deyil, bugünün özündə də böyük maraq doğurur və mühüm əhəmiyyət kəsb edir.

**“Evasaful- Əşraf”**

Bu əsər təsəvvüfi xüsusiyyətə sahib olmasına baxmayaraq, əxlaqi əsərlər arasında yer almışdı. Əsər altı hissədən ibarətdi. Son hissə xaric hər hissə də altı bölümə ayrılır. Hər bir bölüm ruhi təzkiyəsi deyilən mənəvi yol mənasına gəlir. Bir hissəyə müvəffəq olan digər hissəyə keçir. Şərəfli bir xarakter inşa etmək üçün əldə olunması tövsiyyə olunanlar bunlardır: Hərəkətə keçmə, əngəlləri aradan qaldırma, daxilindəki hazırlıq dövrünün mənəviyyatını aşmaq, yolçu məqsədinə çatdıqdan sonra ortaya çıxan hallar və bu mənəvi yolçuluğun axrıncı mərhələsi, şəxsin yoxluğu, “Birdən yox olmaq’’ deyilən bölüm isə yolun son mərhələsidi.

**“Aqaz və Əncam”**

Bu əsər “Məbdə və Məad”a aid “Aqaz və Əncam” adlı əsərdir. Bəzi şərhçilər psixologiya, bəziləri də əxlaq

əsəri hesab edir. Nəsrəddin Tusi bu əsərini özündən “Peyğəmbərlərə göndərilən və vəlilərin yazdığı kitab-larda yazılanlara bənzəyən, axirət yolu yolçularının şahidlik etmiş olduğu yaratma fəaliyyətinin sonunu xatırladan” bir kitab yazmasını istəyən tələbələrinin tələbinə görə yazmışdı.

Axirət və ya dönüş yolu açıqdı. Rəhbərlər bu gediləcək yolu göstərirlər. Ancaq insanlar bu yoldan getmək üçün hədəfsizdi. Çünkü bu yol onların gəldiyi yolun eynisidi. İnsan, qədir gecəsi ilə qiyamət günü arasında (dünyada) yaşar. Bu dünyada iki cür ölüm vardır birincisi könüllü ölüm, ikincisi isə təbii ölüm. “Könüllü bir ölümlə ölən kimsə əbədi həyatda diriləcəkdi”.

Bu dünyada insanlar üç hissəyə ayrılır: Birincisi sözündən dönməyən qərarlı kimsələr bunlar əhli vəhdətdi. İkincisi haqq əhli olan (əhli and) kimsələrdir bunlar yaxşı insanlardı. Üçüncüsü isə sol tərəfə mənsub olan pis insanlardı. Hər üç qrupunda yolu cəhənnəmə dəyəcək, ancaq sadəcə pis olan insanlar cəhənnəmdə qalacaqlar, birinci və ikincilər qrublar cənnətə girmək üçün buradan ayrılacaqdı.

**İbn Xəldun:**

*“Ağıl etmək müsəlmanlar tərəfindən tərk edildi və buna görədə zəlil bir hala düşdülər”.*



# İBN XƏLDUN (1332-1406)

Mükəmməl dini təhsil görən İbn Xəldun 1332-ci ildə Tunisdə anadan olub. Atası Tunisdə saray vəziri və bir alim idi. Mərini Sultanı Əbu İnan tərəfindən Fəz və Telemsendən gətirilən alimlərdən dərs alaraq əsas təhsilini davam etdirmişdir. 1354-ci ildə Fasda ruhanilər sinifinə daxil olan İbn Xəldun Sultanın xidmətinə dəvət olunaraq onun katiblərindən biri olur. Merini sarayındakı səkkiz il ərzində İbn Xəldun buranın məşhur alimlərdən daha da faydalanaraq özünü püxtələşdirir. Burada şəri, tarixi, fəlsəfi və ədəbi elmləri öyrənmişdi. Qrenadada keçirdiyi iki il onun fikirlərini tamamladığı dönəmdi. İbn Xəldunun diplomatik və siyasi macəraları müsəlman qərb ölkələrindən başlamışdı.

İbn Xəldun 1372-ci ildə ilk dəfə əcdadının yurdu olan müsəlman İspaniyaya getmək üçün yola çıxdı. Orada Qrenada Sultanı tərəfindən Kastilya kralı olan Zalim Pedroya elçi olaraq göndərildi. Burada çox qala bilmə-

yən İbn Xəldun geri Şimali Afrikaya döndü və buradakı əmirlikləri gəzərək öz vətəni Tunisə qayıtdı.

İbn Xəldun Misirə varmadan öncə yazdığı “Müqəddimə” əsəri ilə Misirdə tanınmışdı.

Sultan Zahir Bərkuk ilə tanış olduqdan sonra, Kamhiyyə Mədrəsəsi başçısı və Qahirə Maliki başqazısı vəzifəsinə təyin edildi. 1387-ci ildə Həcc ziyarətinə getdi. Onun bəzi mövzularda hökm verməsi Misirlilər tərəfindən tənqid edildi və Qazılıq vəzifəsindən uzaqlaşdırlıdı.

İbn Xəldun Misirdəki həyatını dövlət işlərinə və Qərb müsəlmanları ilə əlaqələrini davam etdirməyə həsr etdi. 1401-ci ildə böyük hökmdar Teymurlənglə görüşdü və Teymurləngə Şimal-qərbi Afrika hökmdar sülalələri haqqında, həmçinin, elmi çalışmaları haqqında məlumat hazırlayıb verdi. Teymurləng İbn Xəldunu xoş qarşılayıb ona laiq olduğu hörməti göstərmişdi. Bir rəvayətə görə Teymurləng Onu özü ilə səfərlərə getməsini istədiyi üçün dəvət etmiş, ancaq İbn Xəldun bunu qəbul etməmişdi. O, 1406-cı ildə Qahirədə vəfat etmişdi.

## Düşüncələri və Əsərləri

İbn Xəldun ilk əsərini on doqquz yaşında,“Lububul-Muhassal”ı Tunisdə olduğu zaman yazmışdı. Onun digər əsəri 1363-ci isə İbn Xətibin fiqh üsulu ilə yazdığı şərhlər toplusudur.

1373-cü ildə Fəzdə "Şifaus-Sail" adlı əsərini qələmə almışdı. Müsəlman qərbində siyasi çalxantıları izah edən "Kitabul-İbər"əsərini bir siyasətçi olaraq dört ilə yazmışdır. Əsərdə müsəlman əmirlərin idarəçilik qaydaları izah olunur. Orta əsrlərə aid dünya tarixi haqqında ən möhtəşəm əsərlərdən biridi. Kitab yeddi cilddən ibarətdi. Əsər əsasən Şimal Qərbi Afrikanın, Şimali Afrika Bərbərilərin və Şərqin müsəlman tarixi haqqındadı.

### "Müqəddimə"

İbn Xəldunun əsərlərinin içində ilk pillədə duran əsəri "Müqəddimə"di. O, bir tarix fəlsəfəsi kitabıdı. Əsərdə əsasən təbii və qeyri-fiziki amillər arasındakı əlaqə və bunun nəticəsində ortaya çıxan təsirlənmədən bəhs edir. Dövlətin gücünü mənimsəyən bir siyasi və sosial təşkilatlanmağı vacib etmişdi. O, bu əsərdə sənətləri, elmləri və zirvəyə çatan bəşəri amilləri və sosial müəssisələri də incələmişdi. Ona görə də tarixi zaman zərfinin arxasında qüvvət yəni İbn Xəldunun ifadə etdiyi kimi "Əsəbiyyət"[62] qavramı vardı.  Bu "sosial qrup hissi" dövlət orqanının ələ keçirilməsinə götürən siyasi fəaliyyətlərə yol açacaqdı.

İbn Xəlduna görə dövlət və bunu içinə alan tarix nəzəriyyəsində din çox önəmli bir amildi. Dövlətin və

[62]**Əsəbiyyət:** Bir cəmiyyətin fərdləri arasında yardımlaşma və həmrəyliyi təmin edən, müqavimət göstərmə və sıçrayış edə bilməyi mümkün qılan ictimai bağlılıq duyğusudu.

bəşəri mədəniyyətin ölümündən bəhs edən, müxtəlif təbii, ictimai və bəşəri amilləri təhlil etmişdi. Onun bəşəri tarix və mədəniyyət fəlsəfəsinin arxa planında sabit olaraq, məşiyətilləh ( Allahın aləm üçün təqdir etdiyi plan ) vardı. Ona görə nəbilər daxil, dini nəşrlə əlaqəli fəaliyyətləri qəbilələr və ailələrə dayanmışdı. İbn Xəldun: "Heçbir zaman tarix filosofu baxış dərəcəsini itirməz, tarix filosofu Allahın təqdir etdiyi hökmün xaricinə çıxa bilməz" deyir.

# III

# Bölüm

# Orta əsrlərin sonu Yeni dövrün başlanğıcında

# İslamda fəlsəfi mühitin təsviri

**Mir Damad:**

*"Bilgi ölkələrini fəth etdim, köhnə hikməti cavanlığıma borc verdim".*



# MİR DAMAD

Sonsuz xoş təriflə yad ediləcək həm fiqhçi, həm bir mistik, həm də böyük bir filosof olan Mir Damad Səfəvilər dövründə yaşamışdı. Mir Damad İslam düşüncə tarixində nadir rast olunan böyük şəxsiyyətlərdən bir idi. O, fəlsəfə, kəlam, nəbəvi və imami sünnət, şiəliyin pirinsipləri, Quranın təfsiri, əxlaq, təsəvvüf və məntiq mövzularında əsərlər yazmışdır. O, dövrün alimləri onun möhtəşəm bir hafizəyə sahib olduğunu deyiblər. Qabiliyyətli bir şair idi, ancaq onu şair yönü ilə tanımırdılar. Məşəddə olduğu zamandan etibarən ilk fəlsəfə əsərlərini yazmağa başlamışdı. Ustad kimi özündən sonra yetişdirdiyi tələbələrindən ən məşhur filosof Molla Sədra hesab olunur. 1580-ci ildə onun fəlsəfə sahəsindəki şöhrəti hər yerə yayılmışdı.

Mir Damad şeirində özü-özünü bel tərif edir:

Bilgi ölkələrini fəth etdim,

Köhnə hikməti cavanlığıma borc verdim.

əl-Qəbasatım (parıltı) ilə dünyayı,

Səma sakinlərinin qısqandığı bir yer halina gətirdim.

Qəlbimi İlahi sirrlərin xəzinəsi qıldım.

Ağıl dünyasına hakim oldum.

əl-Qəbasata bəlli olan dəniz oldum.

Şübhə və bəlli olmayan yazısını məhv etdim…

Mir Damadın bərabər çalışdığı tanınmış adamlarla dostluqlar və düşmanlıqları var idi. İsfahanda tarixi Səfəvilər dönəminə qədər geri gedən, köhnə bir saray binasının qalıntıları arasında, üstü qaralmış bir freska var idi. Bu freska qorxunc bir aslan ilə bərabər üç tanınmış insan təsvir edilmişdi. Bu freskada məşhur bir hekayə təsvir edilmişdir. Təsvirin açılımı belədir ki, bir gün Mir Damad və iki məşhur insan - Şeyx Bahai və Mir Findirisqi - saray qapısında oturmuş bir mövzunu müzakirə edirlər. Birdən-birə bir aslan sarayın hey-vanat bağçasından qaçaraq içəri girər. Bu freska təsvir edilən qorxu üz ifadəsi olan Şeyx Bahai, şükran hissilə səcdəyə qapanmış Mir Damad və aslanın gəlişinə heç diqqət etməyən Mir Findirisqidir. Rəvayətə görə Şeyx Bahai ağlın gücü ilə ac olmadığı müddətcə aslanın ona hücum etməyəcəyini bildirdi. Mir Damad isə peyğəmbər nəslindən gələn biri olaraq, aslanın özünə hücum

etməyəciyini bildiyini, buna görə də peyğəmbər nəslindən gəldiyi üçün Allaha səcdə edib şükür etdiyini söyləmişdi. Mir Findirisqi də sükunət və özünü kontrol etmək, bu qorxunc heyvanın (zehnində) öhdəsindən gəldiyini ifadə etmişdi. Bu hekayənin altında yatan hikmət, bu üç böyük şəxsiyyətin düncəsindən gələn sözlərdə elmi sirrlər gizlənməkdədir.

Şah Abbasın xidmətində olduqları zaman Mir Damad və Mir Findriski arasında meydana gələn bu əfsanəvi dostluq, onların sarayda baş verən dini hərəkətin və siyasi məsələlərin anında bilmələrinə gətirib çıxardırdı. Mir Damad Səfəvi sarayının yeznəsi idi. Elm və ədəbiyyat sahələrində çalışan alimlərə Səfəvi sarayı tərəfindən ayrılan maliyyə sayəsində dəstək olurdu.

Mir Damadın məşhur tələbəsi Molla Sədra Şirazi, Səfəvilər dönəminin və Mütəaliyə Məktəbinin ən təsirli filosofu idi. Mir Damad Mütəaliyə Fəlsəfə Məktəbinin qurucusu idi. Molla Sədra ilk təhsilini öz şəhəri Şirazda almışdı. Sonra İsfahana gedərək burada Mir Findiriski, Şeyx Bahai və Mir Damad kimi o dövrün məşhur şiə alimlərindən dərslər almışdı. Mir Damadın Molla Sədradan başqa Şəmsüddin Cilani, Mir Levhi və Qütbəddin əl-Uşqurinində olduğu daha az məşhur olan başqa tələbələri də var idi. O dövrün ən məşhur şairlərindən biri olan, fəlsəfə və təsəvvüfə xüsusi marağı olan Zulali Hansaridə Mir Damadın tələbəsi olmuşdu. O, öz müəlliminin şərəfinə bir çox şeir yazmışdı. Şeir-lərindən birində biri mükəmməl və dolğun digəri isə

zəif, yetərsiz iki qəhramanı danışdırır. Sual tam olaraq budur; "Səmavi kürənin və ilk maddələrin funksiyası nədir?" Təbiət və varlığın məqsədi və funksiyası ilə əlaqəli bir-birindən ayrı bu elmlərə aid bütün inkişaf və geniş terminologiyalar işlədərək məntiqi, bioloji, kəlamı, fəlsəfi və irfani suallar sorşulmuşdu və müzakirə olunmuşdu. "Əzəlilik, nə üçün əbədiyyətdən fərqlidir?" kimi köklü suallarda var idi. Başqa "bu şeylər hansı formadadır, əzəliliyə inanan bu şeylər kimidir?" sualları soruşulmuşdu. Bu məntiq-mərkəzli suallara mistik cavablar verilmişdi. "Peyğəmbər sevgidir, din sevgidir, Allah sevgidir, hər atom sevginin bir daşmasıdır, hər kəs sevgi ilə Həllacı Mansur kimidir"

## Düşüncələri və Əsərləri

Mir Damadın 50 əsər yazdığını söyləsələr də, bunların hamısı bu günə qədər gəlib yetişməyib. Əsərlərinin çoxu əlyazma şəklindədi. Fəlsəfə və kəlam ilə əlaqəli "Qəbasat", "Siratul-Mustaqim", "Ufuqul-Mübin" adlı əsərləri var. "Ravasihus-Səmaviyyə" adlı əsəri isə şiə İmamlarının hədislərindən ibarət kitabın şərhidi. Onun digər məşhur iki risaləsi də "əl-Cəzəvat" və "Təşrikul-Haqq"dı. Özünün kəlami mövzulara marağı "əl-imadat vət-Təşifat fi Məsələtil-Hudüsil-Aləm" və "Kidəmihi, Takvimul-İman fi Məbhasi Vacibil-Vucüd" və "Takdisuhu və Təmciduhu" ya da "əl-İkadat fi Halkıl-Amal vəl-Efalül-İbad" kimi əsərlərində açıq bir şəkildə ortaya çıxmışdı. Son risaləsində İbn Sinanın varlıq sahəsindəki görüş-

lərini təqdim etmişdi. Mir Damad əlavə olaraq "Nə üçün dağın daşları yandığı halda, Sina dağında Həzrəti Musanın bədəni yanmamışdı?" kimi suallarla maraqlanmışdı. O, bu sualı Fars dilində qələmə aldığı və Şah Abbas adına yazdığı "əl-Cəzəvat: fi Bəyani Səbəbi Adəmi İxtirakı Cəsədi Musa Əleyhis-Səlam" və "İxtirakıl-Cəbəl fi Hallil-Təcəlli Türi Sina" adlı məşhur əsərində şərh etməyə çalışmışdır. Mir Damad fiqh sahəsində də farsca bir əsər qələmə almışdı. Bu kitaba gündəlik ticari əlaqələr, dəstəmaz, namaz, zəkat, həcc kimi mövzular da daxil edilmişdi. Quran təfsirləri arasında farsca "əmanəti İlahi" adlı əsəri və "Təvilül-Muktaat fi əvailis-Suvəril-Quraniyyə", "Təfsiri Sürətil-İxlas" və "Sidrətül-Müntəha" adındakı əsərləri də vardır. Məntiqlə əlaqəli Risalə "fil-Məntiq" adlı əsəri və Nəsrəddin Tusinin görüşləri üzərinə "əl-İstibsar" adlı şərhini də önəmli əsərləri arasında saymalıyıq.

Mir Damadın Məşşa (Aristotelçi və İbn Sinaçı) və İşraq (yəni Əflatunçu və Sührəvərdiçi) fəlsəfəsini bir araya getirmişdi. Bu sintez uğurlu və xüsusi bir fəlsəfənin yaranması ilə nəticələnmişdir. Bunula O, ağlı və ağla aid olan şeyləri fəlsəfi bir təməldə birləşdirdi. Bunun şiə inancının əsaslarına dayanan "Mütəaliyə Məktəbi" cərəyan olaraq ortaya çıxartmışdı.

### “əl-Qəbasat” (Parıltı)

Bu kitab 1977-ci ilə qədər çap olunmamışdı. Bu kitab 10 qəbas (parıltı)-dan və ard-arda gələn üç nəticədən ibarətdi. Kitabın mərkəzi mövzusu dünyanın yaradılması və onun Allahdan gəlməsi imkanı ilə əlaqəlidi. Mir Damad “əl-Qəbasat”ı 1624-ci ildə yazdı.

I qəbas yaradılmışların növlərini və varlığın qisimlərini ələ alır.

II qəbasda Mir Damad zatı üstünlüklərin üç yönlü durumunu və zatın (mahiyyətin) üstünlüyü ilə əlaqəli öz seçimini ələ alır.

III qəbasın mövzusu isə varlığın aşağı bölümlərə ayrılmasıdı.

IV qəbasda Mir Damad daha əvvəl keçən iddialarını müdafiə etmək üçün peyğəmbərin və imamların hədislərindən, həmdə Qurandan sübutlar gətirir.

V qəbas təbii varlıq anlayışındakı ilk nizam mövzusudu. “Zaman” və “hərəkət” arasındakı əlaqəyə aiddir.

VI qəbasda Mir Damad zamanda olan “təbii nizamın” tərəfindədir. Yenə bu əsərində o rəqəmsal nizamın sonluğunu müdafiə edərkən zamana bağlı hadisələrdə rəqəmlərin sonzuluğu fikirinə qarşı çıxır.

VII qəbas da qarşılıqlı baxışların rəddi ilə əlaqəlidir.

VIII qəbasda Mir Damad belə bir nizamın planındakı İlahi qüdrəti və ağlın rolunu təsdiq edir.

IX qəbas ağlı cövhərlərin varlığını təsdiq edir. Burada Mir Damad var olmaqda olan bir nizamın varlığı üçün başlanğıc və məad (dönüş) arasındakı dövranla əlaqəli bir sübut ortaya qoymaq istəyir.

X qəbasın mövzusu qəzavü-qədər, duanın vacibiyyəti, Allahın vəd etdiyi nemətlər və hər şeyin sonunda onun ədalətinə dönməsi ilə izah edilir.

Mir Damad “əl-Qəbasat”a, öz (mahiyyət) və varlıq (vücud) haqqında fikir irəli sürməklə hansının öncə gəldiyi mövzusuna girmişir. Ən sonda özün (mahiyyətin) varlıqdan (vücutdan) öncə gəldiyinə qərar verir. Bu əsər İslam fəlsəfəsinin çox önəmli mətnlərindən biridi. Mir Damad bu kitabı tələbələrindən birinin, varlığın və yaradılmışın yaradıcısının öz əzəliliyində bənzərsiz olduğunu və varlığının əzəldən bəri daimi olduğunu və onun davamlılıq içində davam edən bir varlığa sahib və əbədiyyət içində davamlı olduğunu isbat edən bir kitab yazmaq istəyinə cavab olaraq qələmə almışdı.

Yaratmaq, bir şeyin mütləq yoxluğundan varlığa gətirilməsinə deyilir. Bunu məlum edən şey, o şeyin xarici bir müdaxilə olmadan özü zatına tərk edilməsi, öz başına buraxılması halında var olmayacaq olmasıdı.

Zatı yaratma və zamanlı yaratma, filosoflar arasında bir müzakirə mövzusu olmuşdu. Sadəcə zamana aid xarici yaratma mövzusunda bir anlaşılmazlıq vardı. Mir Damada görə, Allahın aləmi yaratması bir şeyin var olmaya başlaması və yaradılma növündən bir yaratmadı. Bu yaratma “zaman xarici yaratma”, zamanda varlığa gətirmə və var etməyə aid olan, yenə eyni zamanda “zamanlı yaratmaya” aid olan bir yaratmadı. Mir Damad, zaman xarici yaratma qavramını kəşf etmə sürəti ilə

kəlamçıların və filosofların ya da dini qanun ilə ağlı bir-biri ilə üzləşdirmə haqqında uğurlu oldu.

**"əl-Cəzəvat"**

Mir Damadın bu əsəri varlığın təbiətini başa düşmək üçün yazılmışdı. Ona görə ilahi özdən (mahiyyətdən) uzaq düşmüşdür, ancaq bu daşmanın tərsinə dönməsi ilə yəni əslinə geri dönməsi ilə tamamlanan bir hərəkətdi. Bunu enmə-çıxma (yüksəlmə ) olaraq adlandırımışdı. Enmə nizamında ilk olaraq özündən bütün enən varlıq nizamının daşma olduğu "Nurul-Ənvər" (Sührəvərdinin ilk prinsipi)yəni "Nurların-nuru" vardı. "Nurul-Ənvər"dən ilk dəfə "bərabərlər arasında birinci"-si ağlı külli yada "kainat ağıl" olan "Ənvəri Kahira"dən daşır. "Ənvəri Kahira" bütün varlığın mənbəyidi. "Saf İşıq" Nurların-nuru ilə yaxın əlaqə içərisində varlığın ilk düzənini davam etdirir. İkincisi varlığın yaradılış nizamı, kainat ruhu olan "Ənvəri Müdəbbirə" (idarə edən işıqlar) deyilən bir digər işıq topluluğudu.

Mir Damada görə varlıq İlahi varlıqdan fiziksəl dünyaya enərək oradan da təkrar İlahi varlığa geri dönən bir daşma dövrü içində dövran edər. Maddi aləm, uzaqlaşan bir daşma sistemi içində, İlahi Varlıqdan tamamən daşar. Təbii ruhlar "Kayinat Ruhu" tərəfindən yaradılmışdı.

**Molla Sədra:**

*"Quranın görünməyən dünyaya açar olan hərifləri vardır".*



# MOLLA SƏDRA ŞİRAZİ (1572-1640)

Molla Sədra (tam adı Məhəmməd İbn İbrahim əl-Qəvmi əş-Şirazi) 1572-ci ildə İranın Şiraz şəhərində varlı bir ailədə anadan olub. Atası elm adamı olmaqla yanaşı, Səfəvi sarayının nazir idi. İlk təhsilini Şirazda aldıqdan sonra, XVI əsrin ən önəmli təhsil mərkəz-lərindən birinə - İsfahana gedən Molla Sədra, burada böyük fiqh alimi Bahüddin Məhəmməd Amilinin İslam elmləri məktəbində təhsilini davam etdirir. Ondan Fiqh, hədis, şiə anlayışıvə təfsir dərsləri alır.

Molla Sədra İslamda xüsusən də müasir müsəlman intellektualları arasında, bütün filosofların ən böyük-lərindən sayılır. İslam dünyasında xüsusən də İran, Pakistan və Hindistanda "Molla Sədra" adı ilə tanımışdır.

Rəvayətə görə Molla Sədra həccə altı dəfə getmişdi və altıncı dəfə getdiyi zaman 1640-cı ildə Bəsrədə vəfat etmişdi və məzarınında burda olduğu söylənir.

Molla Sədranın həyatını bəzi tarixçilər üç mərhələyə bölürlər.

**Şagirdlik dönəmi**

Bu dönəmdə Molla Sədra fəlsəfəylə sxolostika elmi və bunlar arasında baş verən elmi münaqişələri ətraflı araşdırmağa başlayır.[63] Molla Sədra sonralar İslam filosofu Mir Damaddan ağıl elmlərini öyrənir.

Molla Sədra "Xətəmül-Hukəma" ("Filosofların möhü-rü"), Aristotel və Farabidən sonra "Muallimi Səlis" ("Üçüncü müəllim") ləqəbi daşıyan böyük şərq filosofu olur.

Camaat arasında Molla Sədra olaraq tanınan Sədrid-dün Məhəmməd ibn İbrahim Şirazi fəlsəfi bir məktəbin banisidir. İrəli sürdüyü fikirləri ona qədər bir kəs bəyan etməmişdir. Özündən əvvəlki fəlsəfə məktəblərinin həll edə bilmədikləri elmi mətləbləri O, gözəl bir şəkildə həll etmiş və yaxud da gələcək nəsillər üçün həll yolunu tərtib etməyi bacarmışdır. Hal-hazırda İslam alimlərinin fəlsəfi fikirləri onun fəlsəfi məktəbinə dayanmaqdadır. Molla Sədra öz fikirləri ilə o vaxta qədər mühüm fəlsəfi məktəb hesab edilən "məşa", yunan fəlsəfəsini kölgədə

---

[63] Məsud Ümid, **se filsufe mosəlman-**سه فیلسوف مسلمان **(üç müsəlman filosof),** Tehran, naşir: Sədra İslam fəlsəfəsi birliyi, 2005.(Farscadan tərcümə: Kamran Mamedov)

qoydu. Onun irfani mükaşifələri, çətin ibadətləri, üzlətləri[64] insanı valeh edir.[65]

Molla Sədra atasından qalmış bütün var-dövləti elm və təhsil yolunda sərf edir. Molla Sədra uzun müddət elm öyrənməklə İslam fəlsəfəsində Sührəvərdidən sonra metafizikanın yenidən qurulmasının yeni bir sintezini təmsil edir. Bu fəlsəfə sintezi sonra "metafizik fəlsəfə" adını almışdır.

## Tərkidünya dönəmi

İkincisi tərkidünya olduğu dönəm. Zəmanəsində ona qarşı ümum insanlarda formalaşmış yalnış fikirlər və fikri təzyiqlər və eyni zamanda bəzi səthi düşünən alimlərin ona təzyiq göstərmələri Molla Sədranı Şirazı tərk edib Qum şəhərinin yaxınlığında olan Kəhək şəhərinə yerləşməsinə səbəb oldu.[66]

İnsanlardan kənarda ibadət və riyaziyyatla məşğul olmağa başlayır. Bu müddət ərzində Allaha elmi və əqli yöndən yaxınlaşdığı kimi, mənəvi təmizliklə ruhani

---

[64]Üzlət ancaq ibadət etmək üçün arifin bir müddət insanlardan kənara çəkilməsidir.

[65] Molla Sədra, Fəxr Razi, Əllamə Seyid Hüseyin Birucirdi, Ayətullah Cavadi Amuli, **"O" (Hərf Və İrfan Elmi Əsasında Yazılmışdır),** Bakı, "Qədim Qala" Nəşriyyat evi, 2011, s, 78.

[66] Hüseyn Nəsr,ingiliscədən tərcümə edən: Səlah Əs-savi və Macid Fəxri, **səlasətu hukəmai muslimin-** ثلاثة حكماء مسلمين **(üç islam filosofu)**, Beyrut, naşir: darun-nahar 2006.(Farscadan tərcümə: Kamran Mamedov)

yöndən də yaxınlaşmağa çalılışır. 15 ilik bir zamanda insanlardan uzaqda ibadətlə məşğul olmaq, Onda böyük irfani məqamlarından xəbər verir. Molla Sədra anlayır ki, həqiqi elm əldə etmək üçün sadəcə oxumaqla olmur. Əlavə olaraq mənəvi təmizlik də lazımdır. Molla Sədra bu zaman zərfində heç bir dərs deməmişdir. Nə də heç bir kitab yazmamışdır. Sadəcə mənəvi təmizliklə məşğul olmuşdur.[67]

**Yazı dönəmi**

Son olaraq təliflər dönəmi başlayır. Bu dönəmdə artıq Molla Sədra uzun bir aradan sonra 9 cildlik şah əsəri olan "Əl-əsfari ərbəə"-ni yazdı. Və bunun ardından da müxtəlif əsərlərini yazmağa başladı.[68]

Molla Sədranın Şiəliyin əqli və nəqli elimlərdəki məşhurluğu qısa zamanda Səfəvi paytaxtına yayılmışdı. Bir neçə dəfə rəsmi vəzifə təklif edilmişdi. Ancaq o bu vəzifələri qəbul etməmişdi və uzaq durmuşdu. Mal-mülk, maddi mükafatlara və dövlət vəzifələrini əhəmiyyət verməyib rədd etmişdir. Heç bir əsərini vəzir ya da başqa idarəçi adına yazmadığına görə, şöhrətinin

---

[67] Molla Sədra, Fəxr Razi, Əllamə Seyid Hüseyin Birucirdi, Ayətullah Cavadi Amuli, **"O" (Hərf Və İrfan Elmi Əsasında Yazılmışdır),** Bakı, "Qədim Qala" Nəşriyyat evi, 2011, 78-79.

[68]Məsud Ümid, **se filsufe mosəlman-** سه فیلسوف مسلمان **(üç müsəlman filosof),** Tehran, naşir: Sədra İslam fəlsəfəsi birliyi, 2005.(Farscadan tərcümə: Kamran Mamedov)

alimlər tərəfindən qısqanılması və küfrlə ittiham olunmasına yol açmışdı.

Molla Sədra bir çox fəlsəfə yazısında fəlsəfi sübutun ilk öncə müşahidə (görmə) yolu ilə özünə ilham edildiyini, bunu həll etdikdən sonra oxuculara çatdırdığını yazır. Onun ən önəmli iki tələbəsi olmuşdur. Biri "əl-Kəlimatül-Məknunə" adlı kitabın yazarı Molla Muhsin Feyz Kaşanidi (onun ikinci populyar ismi Məhəmməd İbnnül-Murtəzadı). O, əsərində ustadı Molla Sədranın düşüncəsinin iki yönünə diqqət çəkir: Biri İrfani yön, digəri isə ilham mənbəyi olaraq Quranın qeyb sahəsinin şiəliyə görə şərh edilmə yönü.

İkinci tələbəsi isə İranda məşhur olan Əbdürrəzzaq İbn Hüseyn əl-Lahicidir. "Şəvarikul-İlham" əsəri İbn Sinanın əxlaq sahəsindəki görüşünü çatdırır. Hər ikisidə Molla Sədranın iki qızı ilə evlənmişdi. Bu iki alim Şiəliyə aid elm mühitində tanınmış şəxsiyyətlərdi.

## ƏSƏRLƏRİ

Molla Sədra 40-dan çox əsər yazmışdı. Əsərlərindəki düşüncə iki yönlüdür: Əqli və Nəqli. Sadra əsasən nəqli elmlər sahəsində yazdığı əsərləri İslam Fiqhinin, Quran təfsirinin, hədis və kəlam elminin mövzuları ilə əlaqəlidi. Məsələn bu mövzudakı əsərlər bunlardı: 1. "Şərhu Usulil-Kafi" (Xüsusən fiqh və kəlami mövzularda hədisləri analiz edən ilk hədis toplusu özəlliyini daşıyan Kuləyninin məşhur əsəri haqqında şərhdi). 2. "Məfatihul-Qayb" tamamlanmış Quran təfsiri. 3. Quranın

fərqli surələrinin təfsirinin edildiyi kiçik əsərdi. 4. “İmamət” adını verdiyi və Şiə kəlamı haqqında kiçik bir kitabdır. 5. Əli Quşcunun “Şərhi Təcridi” kimi kəlam kitablarına yazdığı şərhlərdi.

Molla Sədranın İslam Fəlsəfəsi ilə əlaqəli əsas kitabları bunlardı: 1. “əl-Əsfarul-Ərbaatül-Əkliyyə” (“Dörd Fəlsəfi Yolçuluq”) bu Molla Sədranın ən böyük əsəridi. Fəlsəfənin bütün mövzuları bu kitabda müzakirə olunub. 2. “əş-Şəvahidur-Rububiyyə” (“İlahi Şahid-liklər”): Ümumi olaraq “Əsfar”ilə eyni məzmunda qəbul edilir. 3.İbn Sinanın “Şəfası” ilə Sührəverdinin “Hikmətül-İraqı” haqqında yazdığı yazılardı. Onun başqa “Hikmətul-Ərşiyyə” (“Ərştən Gələn Hikmət”), “əl-Məbdə vəl-Məad”, “Kitabul-Məşşair” (“Metafizik Elmlər Kitabı”) kimi bəzi kiçik əsərlərdə qələmə almışdı. Hindistanda Molla Sədranın “Şərhul-Hidayəsi” (Əsiruddin əl-Əbhərinin “Hidayəsi”nə yazdığı şərh) bu günə qədər mədrəsələrdə dərs kitabı olaraq oxudulmaqdadı.

İslamın doğuşundan 1000 il sonra ortaya çıxan Molla Sədranın əsərləri özündən əvvəl 1000 ilin bir sintezini təmsil edir. Quran və hədis, İslam fəlsəfəsi və kəlamı, təsəvvuf, hətta İslam düşüncəsi tarixi sahələrində dərin bilgi əldə etmiş oldu. Onun əsərlərində “irfani təcrübə”yə sahib bir arif olaraq hiss etmək qabiliyətinə malik, filosof və müşahidə bacarığından istifadə edərək yazmışdı. Onun İslamın vəhy mənbələri haqqındakı bilgisi, ilk dəfə özünün kəşf etdiyi Şiə İmamlarının sözləri ilə də yaxın bir əlaqəni əhatə edir. Yazdığı təfsir kitabı və şərhi “Usulil-Kafi”, “Nur” ayələrinin təfsiri

haqqında yazdığı əsəri bütün bunlar İslam düşüncəsinin şah əsəri arasında yer alır və onun Quran və hədisə inanılmaz dərəcədə hakimiyyətini göstərir.

## Molla Sədranın Düşüncələri

Molla Sədra eyni zamanda özündən əvvəlki İslam fəlsəfəsi məktəbləri mövzusunda dərin bir bilgiyə sahibdi. Məşşa fəlsəfəsini, xüsusən də "Şəfa"sına böyük bir şərh yazdığı İbn Sinayı yaxından tanıyırdı. O, köhnə Məşşaiçiləri də çox yaxşı tanıyırdı. Molla Sədra İşraq fəlsəfəsində də ustad biri idi. Sünni və Şiə kəlamını, xüsusən də şahəsəri və bütün digər əsərlərinin anası sayılan "Əsfar" ("Dört Yolçuluq")da tez-tez Qəzzali və Fəxrəddin ər-Razidən misal gətirməkdədir, onları çox yaxşı bilməkdədir. Əlavə olaraq İsmaililiyidə yaxşı bilirdi. Molla Sədra xüsusən də İbn Ərəbinin düşüncəsini, təsəvvüf və irfani mövzularına hakim idi. İran sufi şeirinə qarşı xüsusi bir sevgisi vardı.

Molla Sədra böyük dindarlığa, fəlsəfi analizə və ağılla hərəkət etmək, "qəlbin gözü" açılana qədər və mənəvi dünyayı doğrudan görə bilmə qədər, tövsiyyə və təzkiyəyə dayalı olaraq yaşadığı həyatı öz şəxsində bilginin üç böyük yolun birləşdirdiyini təsdiq edir. Bu üç yol ona görə vəhy, isbat və ağıl yeritmə mənəvi ya da mistik baxışlarından ibarət idi. Ya da belə deyə bilərik Quran, dəlil (açığa çıxartmaq) və İrfan sintezi olan bir yol izlədi. Molla Sədra, fəlsəfə və hikmət sahələrində bilginin əsas qaynağına vəhy və İşraqi mənbəyi də əlavə

etmişdi. İrandakı İslam fəlsəfəsi bu həqiqəti tamamən qəbul etdi.  Molla Sədra metafizik bilgisində ən yüksək zirvəyi ələ keçirən bir filosofdur. Heç bir İslam filosofu həm şəxs həm də kosmos əlaqəli olan uhrəviyyət və məad mövzusunda Molla Sədranın maraqlandığı qədər maraqlanmamışdı.

Bir çox müsəlman filosof və kəlamçının aralarında müzakirə etdikləri çətin məsələlərdən biri də Allahın dünyaya aid bilgisidi. Allah hər şeyi, özünə Allah tərəfindən açıqlanan bir tərzdə bildiyini, ancaq məsələnin qarışıq və xalqın çoxusu tərəfindən başa düşülməsi çətin olduğu üçün açıqlamamağı ifadə edər. Müəllimi Mir Damada göndərdiyi bir məktub daxil, digər yazılarında özünə ilham, kəşf və aynəl-yaxın yolu ilə bu böyük sir mövzusunda tam bir məlumat sahibi olduğunu ifadə etmişdi.

İslam fəlsəfəsi tarixində heç bir filosof, fəlsəfə bilgisinin mənbəyi olması baxımından Qurana Molla Sədranın verdiyi dərəcədə bir önəm verməmişdi. Əslində onun iddiasına görə anlıq zehinsəl planda onun bir yansımasıdır, ancaq Quranın dili ilə elmdə dərinləşənlərə də yol göstərən peyğəmbərdi.

Molla Sədranın təfsir xüsusiyyətindəki əsərlərinin bir qismi aşağdakı surə və ayələri əhatə edər. Fatihə Surəsi, Bəqərə Surəsi, Ayətəl Kürsü, Ayətən-Nur, Səcdə Surəsi, Tarıq Surəsi, Zilzal Surəsi. Bunun xaricində onun təfsir üsuluna aid əsərləri də vardı. Bunlar arasında, xüsusən Quranda yer alan uhrəviyyat ilə əlaqəli ayətləri mövzu alan “Əsrarül-Ayət” (“Quran Ayətlərinin Sirrlərı”), zahiri

mənaları açıq olan ayələrin tərsinə zahiri mənaları açıq olmayan ayələri mövzu alan “Mütəşabihul-Quran” (“Quranın Metaforik[69] Ayələri Haqqında”) ən önəmli əsərlərindən biri olan və öz təfsir metodunu açıqlayan “Məfatihul-Qayb” (“Görünməyən aləmin açarı”) adlı əsərlərini saya bilərik.

Molla Sədra bir yemişin sadəcə qabığını görən içindəki meyvəyə dəyər verməyən kimsələr kimi sadəcə Müqəddəs Kitabın zahiri mənasını diqqətə alan təfsir-çilərlə, zahiri mənasını diqqətə almayaraq sadəcə batini mənasının üstündə duran təfsirçilər arasında bir fərq qoyar. O, hər iki təfsir metoduna qarşıdı. Əgər ikisindən birini seçmək məcburiyyətində qalsaydı, zahiri təfsiri seçəcəyini dilə gətirmişdi. Ona görə ən yaxşı təfsir metodu, İslam camaatının başa düşəcəyi şəkildə Quranın zahiri mənasına qarşı olmadan onun Batini[70] mənaları ilə məşğul olmaqdı.

Molla Sədra, Quranın varlıq kimi olduğunu düşünür. Varlığın eyni Quran kimi “görünməyən dünyaya açar olan” hərfləri vardır və bunların bir araya gəlmələri ilə müqəddəs Kitabın ayələri və surələrini təşkil edər. Surələrin bir araya gəlməsindən, özünü Furkan (ayırma) və Quran (oxuma) olmaq üzrə iki şəkildə təzahür etdirən “varlıq kitabı” meydana çıxır. Kitabın Furkani adı, bütün fərqlilikləri ilə bərabər makro kosmosdu.

---

[69]**Metafor:** Məcaz

[70]**Batin (gizli, gizli aləm):** Bir şeyin daxili üzünü və bir kimsənin sirlərinə vəqf olmaqdı.

Quran hissəsi isə insanın ruhani və ya kainat xüsusiyətli insandır. Buna görə qeyb aləminin açarları, Quranın açıqladığı kimi, eyni zamanda xarici dünyanın görünməyən yönünü və insanda mahiyyətinin açarlarıdı. Bunun tərsidə doğrudu. Molla Sədranın Quran təfsirləri, təfsir tarixində və müqqədəs mətnin fəlsəfi olaraq şərh edilməsinin tarixdə çox önəmli bir yeri vardı.

## Molla Sədranın Elm Dünyasına Təsiri

Molla Sədranın İran düşüncəsində olduğu qədər İraq və Hindistana da böyük təsiri olmuşdu. Onun düşüncələrinin İrandakı fəlsəfənin bütününə hakim olduğu görünməkdədi. İranın intellektual mənzərəsində çox önəmli təsirini olduğu açıqdı. Molla Sədranın Hindistanda təsiri, XVII əsrdən etibarən haradasa vəfatından sonra görülməyi başladı. İraqdakı alimlər üzərində də böyük təsiri olmuşdu.

Pakistan və Hindistanda, İslam dünyasında XX əsrdə ən önəmli siyasi-dini hərəkatı olan Cəmaati İslamın qurucusu olan Məvduddinin gəncliyində "Əsfar"ın bir hissəsini urducaya tərcumə etmişdi. Molla Sədra sadəcə İslam tarixinin ən önəmli intellektual şəxsiyyəti deyil, eyni zamanda düşüncələri Müasir İslam dünyasının bir parçası olub və İslam düşüncəsinin bir çox sahəsinə təsir etmişdir və bu davam etməkdədir.

# IV

Bölüm

# Yeni və müasir tarixi dövrdə İslam fəlsəfəsinin ilkin cizgiləri

## İRAN

# (Molla Sədradan Sonrakı Dövr)

Molla Sədra olaraq bilinən Sədrəddin Şirazi ilə İrandakı İslam fəlsəfəsi tarixində yeni bir səhifə açılmış oldu. Molla Sədranın tələbələrinin ölümündən sonra İranda İslam fəlsəfəsi çöküş həddinə çatsa da XIX əsrdə Qacarlar dönəmində Molla Əli Nuri, Molla İsmail və Hacı Molla Hadi Səbzivari tərəfindən təkrar canlanma yoluna qədəm qoydu. Məhz Hadi Səbzivari məşhur bir şərhçidi.

İranda Səbzivarinin vəfatından sonra Tehran İrandakı fəlsəfə fəaliyyətlərinin ən önəmli mərkəzinə çevrildi. İsfahandakı Mütəaliyə fəlsəfə məktəbinin düşüncələrini yaymaq üçün Tehrana köç edən Molla Abdullah və Molla Əli Zunuzi kimi ustadların təsirləri böyükdü. Mütəaliyə məktəbinin son önəmli filosofları Cahangir Xan Qəşqai ilə onun tələbəsi Hacı Aqa Rəhim Ərbab olmuşdu. Mütəaliyə məktəbinin çöküşü və Tehranın ekonomik intişafı buranı tədricən mərkəz halinə gətirdi.

Tehranda fəaliyyət göstərən Əbul-Həsən Cilvə Molla Sədraya qarşı çıxaraq, Molla Sədranı Məşşailərin görüşlərini istifadə etmək və İbn Sina fəlsəfəsini izləməkdə suçladı. Aştiyani və Fazili Tuniyi İbn Ərəbinin fəlsəfəsi və təsəvvüfü cəzb etməkdə idi. Onlar eyni zamanda Molla Sədrayıda mənimsədilər. Başqa əsərlər ilə birlikdə "Əsasut-Tövhidi" və Səbzivarinin "Şərhul-Manzumə"sinə şərh yazan Aştiyani bir çox məşhur tələbə yetişdirdi. Onlardan ən önəmlisi, Mehdi Xairidi.

Fazili Tuni isə İbn Ərəbinin əsərlərini, əsasəndə "Füsu-sul-Hikəmi" izahla məşğul oldu və Tehran universitetində dərs verdi.

Son əlli ildə İrandakı İslam fəlsəfəsində silinməz yeri olan filosoflar arasında üç şəxsiyyət diqqəti çəkər: Seyid Məhəmməd Kazım Əssar, Seyid Əbul-Həsən Qəzvini və Seyid Məhəmməd Hüseyn Təbatəbaidi. Seyid Məhəmməd Kazım Əssar qərbə gedən ilk ənənəvi üləmadan biri idi. O, Fransada təhsil aldıqdan sonra Nəcəf şəhərinə getdi. Sonra isə İrana döndükdən sonra Tehran Universetində və Sipahsalar Mədrəsəsində dərs verdi. Əssarın İslam fəlsəfəsi üzərindəki təsiri yazılarından əlavə, aralarında Seyid Hüseyn Nasır kimi önəmli tələbələri yetişdirməsidir. Onun ən önəmli əsərləri bunlardı : "İlmul-Hədis", "Vəhdətül-Vücud və Bəda", "Səlasə Rəsail fil-Hikmətil-İslamiyyə".

Bir Ayətullah olan Seyid Əbul-Həsən Rafii Qəzvini İranda İslam Fəlsəfəsinə ən böyük tövhəni, Seyid Cəlal Aştiyani və Seyid Hüseyn Nasr kimi seçkin alimləri yetişdirməklə verdi. Onun "İttihadı Ağıl" və "Makul" adlı bir əsəri və bir çox risalələri vardır.

Əllamə Təbatəbainin ən önəmli əsərləri arasında 27 cildlik bir təfsir olan "əl-Mizan", "Əli vəl-Hikmətül-İlahiyyə", Molla Sədranın "Əsfar"ının yeni nəşri və həyatının son illərində yazdığı iki fəlsəfi əsəri "Bidayətül-Hikmə" və "Niyatətul-Hikmə" sayılır. İkinci Dünya müharibəsindən sonra İrandakı solcu aydınlar və Marksistlərə cavab verən ən önəmli tələbəsi Mürtəza

Mütəhhəri tərəfindən şərh edilən “Usuli Fləsəfə”adlı əsər ən önəmli əsərləri arasındadı.

Bu dönəmin daha az bilinən digər filosofları arasında Məhəmməd Salih Xairi Mazəndərani və Ziyəddin Durridi. Onların hər ikisi də Məşşailəri müdafiyə etmişdi. Molla Sədraya müxalifət olmuşlar.

Filosof ola bilməyən Yek Banuyi İrani (“İranlı bir xanım”) adı ilə fəlsəfi əsərlər yazan İsfahanlı bir qadın vardı. Onun əsərləri əsasən irfan və fəlsəfi əxlaq haqqındadı. Əsərləri arasında ən önəmliləri bunlardı: “Mahzunl-İrfan” adlı böyük bir təfsir, “Məad ya Aharin Seyri Bəşər” və “Ağaz və Əncam” adlı məad haqqında iki əsər yazmışdı. “Ərbaini Haşamiyə” adlı böyük bir fəlsəfə əsəri vardır.

Bir sonrakı nəsil içində ən önəmli şəxsiyət hələdə Məşəd Universitetində dərs verən Seyid Cəlal Aştiyanidir. Onun əsas əsərləri: “Hesti əz Nazarı Fəlsəfə və İrfan”, “Şərh bər Müqəddəməyi Qaysəri dər Təsəvvufı İslami”, “Şərhi Hal və Arayi Fəlsəfiyi Molla Sədra”, Molla Sədranın “əl-Məzahirul-İlahiyyəsi”nin şərhini nəşr etdirmişdir. Yenə Molla Sədranın “əş-Şəvahidur-Rububiyyəsi”nin Səbzivarinin şərhiylə birlikdə Molla Muhsin Fəyz Qaşaninin “Usulul-Məarifi”nin Molla Sədra məktəbinin fəlsəfəsi haqqında uzun bir şərhi vardı.

Digər ənənəvi filosoflar arasında, “Amuzişi Fəlsəfə” adlı iki cildlik bir əsər yazmış olan Misbah Yəzdidi. Cəvadi Amuli və Hasanzadə Amuliyi ənənəvi filosoflar

cərgəsində saya bilərik. Bu dönəmin məşhur filosoflarından olan Mürtəza Mütəhhəri çalışmalarının çoxusunu İslamın gənçlərinə açıqlamaq üçün yazmışdı. Mürtəza Mütəhhərinin əsərləri məşhurdur və ən önəmliləri bunlardı: Tabatabainin "Usuli Fəlsəfə və Revişi Rializm" adlı əsərinə şərhi, Bəhmənyarın "Kitabut-Təhsili"nin nəşri, iki cildlik "Xadəmati Mutəka-bili İslam və İran" və "Şərhi Manzuməi Səbzivari" kimi yüksək dərəcədə araşdırılmış bəzi əsərlər yazmışdır.

Müasir və ənənəvi təhsil almış filosoflar arasında Seyid Hüseyn Nasır, Məhdi Xairi Yəzdi, Məhdi Mühaqqiq ən önəmliləridi. İranlı olmayan Henri Korbin İrandakı İslam fəlsəfəsinə böyük təsir göstərmişdi və uzun illər İranda dərslər vermişdi. Çox önəmli bir şəxsiyyətdi. Hələdə dərs verən gənc iranlı filosoflar arasında bunları da saya bilərik: R.Davəri Ərdəkani, N.Purcevadi, Gh.Avani, Gh.Haddad Adil və A.Suruş. Bu filosofların çoxsu 1978-79-cu illər İran İnqilabına qatılmışdı. Bunlar eyni zamanda İslam fəlsəfəsini fərqli tərzdə şərh etmişlər.

Davəri Ərdəkani də İnqilaba qatılmaqla İnqilabı və İran Şəriət sistemini müdafiyə edərək müasir dünyanın meydan oxumalarına qarşı çox sayda cavab əsərlər yazmışdı: "İslam İnqilabı və Dünyanın Vəziyyəti", "İranda Təfəkkürün İndilik Vəziyyəti", "Qərb Mədəniyyətinin Nəzəri Təməlləri".

İslam Filosofları və ən məhşur şəxsiyyətlər arasında ibadətlərlə əlaqəli "Kəşful-Esrar" adlı əsərinə əlavə,

siyasət fəlsəfəsi sahəsində “Vilayəti Fəqih” və bir çox qısa əsər yazan Ayətullah Ruhullah Xumeynidi. İnqilab sonrası İranda “Pərtəvi əz Quran” adlı bir təfsir və İslam siyasəti haqqında “İslam və Malikiyyət” adlı bir əsər yazmış Ayətullah Taləqanini İslamın solcu şərhni müdafiə edən hesab edə bilərik. İslam siyasət fəlsəfəsi haqqında bir çox qısa əsərlər yazmış olan Ayətullah Müntəziri vardı.

# HİNDİSTAN

Hindistan din, mədəniyyət, elm və başqa sahələrdə böyük bir zəngilliyə malik idi. Bu bölgə Hinduizm, Buddizm, Cainizm və Sih dinlərinin doğduğu mekanlardı. Zərdüştlük, İslam və Xiristiyanlıq kimi bəzi xarici dinləri də mənimsəmişdi.

Hindistanda mədəniyyətlər arasında ən güclü və qalıcı olan İslam mədəniyyəti idi. İslam, bir din və mədəniyyət olaraq buraya 711-ci ildə Məhəmməd ibn Qasimin başçılığındakı orduyla və X əsrdə Qəznəli Məhəmməd şahın sayəsində gəlmişdi. Bölgəyə yerləşən İslam dini 8 əsrdən çox siyasi, mədəni, dini və sosyal sahələrdə hakim güc olaraq qalmışdı. İslam mədəniyyəti, Monqol dönəmində zirvəyə çatmışdı. Hindistanda Brahman və Budist mədəniyyəti dərin köklər salmışdı. Hinduizm və Buddizm fəlsəfəsi bu dönəmdə ara-sıra görünməkdə idi. Bağdadda, Xorasanda və Orta Asyada güclü bir fəlsəfə və kəlam düşüncəsi Hindistanada keçmişdi.

Qəznəli Mahmudun bura səfərlərindən əvvəl Hindistanda İslam fəlsəfəsini tanıdanlar İsmaililərdir. 883-cü ildə məşhur İsmaili təriqətinin başçısı Əbul-Qasim ibn Havşəb öncə Xəysəmi Yəməndən Sində göndərmişdi. Daha sonra İsmaili bir sərkərdə Cəhm ibn Şəyban Misirin Fatimi idarəçisi tərəfindən əsgəri heyəti Sində göndərdi. Bu ərazidə bir İsmaili dövlət quruldu. Burada fəlsəfə və digər elmlər yayılmağa başladı.

Qəznəlilər, Qurilər, Məmlüklər, Halacilər, Tuğluqlular, Lodilər, Monqollar və Babürşahlar dönəmində də Hindistanda İslam fəlsəfəsi və elmlər geniş vüsət götürmüşdür.

## Mir Fəthullah Şirazi

Mir Fətullah Şirazi öz dönəminin nüfuzlu filosflardan biriydi. İranda Şiraz şəhərində seyid nəsilindən gələn bir üləma ailəsində dünyaya göz açmışdır. Şiraz o dönəmdə fikir və dini təhsil cəhətdən məşhurdu. O, Mövlanə Kəmaləddin, Mövlanə Qurd, Cəlaləddin Dəvvanin tələbəsi olub ad-san qazanan Cəmaləddin Mahmud və məşhur filosof Əmir Qiyasəddin Mənsur ibn Mir Sədrəddin əd-Dəştəki əş-Şirazi kimi filosoflardan dərs almışdı.

Təhsilini tamamladıqdan sonra Şirazda ağıl elmlərində dərs verməyə başladı. Adil şahın vəfatından sonra, Əkbərin dəvəti üzərinə 1583-cü ildə hökümdarın sarayına getdi. 1589-ci ildə Hökümdar Əkbərlə birlikdə bir səyahətdə olduğu zaman Kəşmirdə dünyasını dəyişdi. Mir Fətullah bir çox əsər yazmışdır.

## Şeyx Əhməd Sirhindi

Müsəlman Hindistanının İslam fəlsəfə tarixinin digər bir nümayəndəsi Şeyx Əhməd Sirhindidir. Dinə etdiyi xidmətlər səbəbiylə ona "Mücəddid Elfi Sani" ünvanı verilibdir. 1564-ci ildə Sirhinddə, bir üləma ailəsində dünyaya gəlib. Quranı əzbər, dini elmlərisə etraflı öyrənib. Kəlami görüşündən ötəri iki il zindanda yatıb. Bir çox önəmli əsərləri var. Həyatının son illərini Sirhinddə inziva halında keçirib. 1624-cü ildə doğduğu şəhərdə dəfn edilib. Onun fəlsəfə, ilahiyyət və kəlam sahəsində görüşlərinin çoxusu, dörd cildlik "Məktubad" adlı əsərində yer alıb.

## Molla Əbdülhəkim Siyalkuti

Bu dönəmin bir başqa önəmli məntiqçi-ilahiyatçı, filosofu Molla Əddülhəkim Səyalkutidi. Şah Cahanın səltənəti dönəmində sarayda fəaliyyət göstərib. Şah ona, dini xidmətlərinə və mədrəsədə verdiyi dərslərinə görə ona mükafat təyin edib. Fəlsəfə və kəlam haqqında yazdığı ən önəmli əsərləri: "Haşiyəyi Şərhi Hikmətil-Ayn", Əllamə Taftazaninin şərhinə yazdığı haşiyə olan "Haşiyəyi Şərhül-Əqaid", Əllamə S. Şərif Cürcaninin şərhinə yazdığı haşiyə "Haşiyəyi Şərhil Məvakıf", "Haşiyəyi Şərifiyyə", "Haşiyəyi Şərhi Şəmsiyyə və Dürrətüs-Səmine" əsəridir. Həyatın sonuna doğru saraydan ayrılıb və məmləkətinə dönüb. 1656-cı ildə Siyalkotda dəfn edilib.

# Molla Mahmud Cunpuri

Molla Mahmud Cunpuri ibn Şeyx Məhəmməd Cunpuri də Şah Cahan dönəminin bir başqa ilahiyatçı filosofudur. O, 1603-cü ildə Cunpurda anadan olub. Kiçik yaşlarında atasını itirən Molla Mahmuda ana babası Şeyx Şah Məhəmməd sahib çıxıb, təhsili və tərbiyəsi ilə məşğul olub.

Molla Mahmud Cunpuri Nəqli elimləri Molla Şəms Nur Bronvi Cunpuridən, ağıl elmləri dərsini isə filosof Üstadulmülk Şeyx Məhəmməd Əfdaldan alıb. Qısa zamanda təhsilini başa vuraraq alimlik həddinə çatıb.

Onun Hindli alimlərdən fərqli qılan xüsusiyətinə səbəb, ən önəmli üstad sayılan Mir Damadın ilahiyat və fəlsəfə dərslərinə qatılması idi. Gənc alim Mir Damadın "hudusi dəhri" (əzəli yaradılış) fikirinə etiraz etmiş və hər ikisi bir-birində təsirlənmişdi. Eyni zamanda məşhur şeyx Miyan Mir Lahoridəndə təsirlənmişdi.

Molla Mahmud Cunpuri 47 yaşında vəfat edib. Əsas əsərləri: "əl-Hikmətül-Baliğa", "Şəmsül-Baziğa", "əl-Fəraid fi Şərhil-Fəvaid", "Risalətüd-Dəvhatil-Miyadə fi Həqiqətis-Sürəti vəl-Maddə", "Risalə fil-Külli vəl-Cüzi", "Risaləi İrtifain-Nakizayn", "Risalə fi Tahqiqi Qəza və Qədər" və "Risaləi Taksimi Nisvə" kimi əsərlərdir.

Onun 1652-ci ildə qəfil vəfat etməsi ustadı Şeyx Məhəmməd Əfdalı çox hüzünləndirmişdi. Deylənlərə görə qırx gün üzü gülməmişdi. Qırx gün sonra isə Şeyx vəfat etmişdi.

## Mirza Məhəmməd Zahid Hərəvi

Şah Cahangir və Aləmgir dövrünün (1658-1707) üləmasıdır. Şah Vəliyyullahın babası Şah Əbdürrəhimin ustadı Mirzə Məhəmməd Zahid Hərəvi olmuşdur. Özü isə uşaqlığında babası Müftü Məhəmməd Əsləm və Molla Məhəmməd Fazil Bədahşanidən dərs alıb. Qabilli Molla Sadiq Halvainin tələbəsi sayılır. Ağıl elmlərində daha yüksək təhsil almaq üçün Turana (Mavuraünnehir) gedib. Orta Asyada tanınmış bir filosof olan Mirza Can Şirazinin dərslərinə qatılmış, həm də Molla Yusif Lahoridən və Molla Cəlil Lahoridən, Mirzə Məhəmməd Zahi Hərəvidən dərslər almışdı. Yüksək bir təhsillə geri vətəninə dönüb.

Mirza Məhəmməd Zahid Məşşa fəlsəfəsi, İşraqi Hikmət, Əşşari və Maturidi kəlam və məntiq mövzu-sunda önəmli alimlərdən biridi. Əllamə Cəlaləddin Dəvvaninin, Sührəvərdi “Maktulün Həyakilun-Nur”adlı əsərinə yazdığı şərhə, Nəsirəddin Tusinin “Təcridi”nə, Əllamə Mir-Səyyid Şərif Cürcaninin “Şərhul-Məvakıf”ına, Əllamə Dəvvaninin “Təhzib”inə yazdığı şərhə, Qutbəddin Razinin “ət-Təsavvur vət-Tasdiqi”nə izah və yazılar yazıb.

# Şah Vəliyyullah

Şah Vəliyyullah-Qutbəddin Əhməd ibn Əbdurrəhim Dehli şəhərində anadan olub. Şah Vəliyyullah baba tərəfindən ikinci xəlifənin nəsilindən gəldiyini irəli sürmüşdü. Anasının ailəsi də peyğəmbərin nəvələrinin nəsilindən gəldiyini söyləyirdi. Babası Şah Əbdur-rəhimbir alim olaraq saray xidmətində vəzifə almışdı.

Şah Vəliyyullah 1718-ci ildə atasının qurmuş olduğu məktəbdə ərəbcə və farsca, Quran, hədis, təfsir, fiqih, məntiq, fəlsəfə, təsəvvuf, tibb, retorik və riyaziyyat təhsili alaraq məzun olmuşdu. Həmin il atasının vastəsi ilə Nəkşibəndi təriqətinə qoşulmuş və Məkkəyə, Mədinəyə gedib orda dərslərini davam etdirmişdir.

Hindistana döndükdən sonra gördüklərindən dəhşətə gəldi. Ölkəsi içindən sosyal və siyasi çalxantıları ilə boğuşdu. Müsəlman toplumların arasında davamlı, xüsusəndə Şiə və Sünnülər arasında, eyni zamanda dört sünnü məzhəbi arasında, dindar və yenilikçi gruplar arasında fasiləsiz qəhredici münaqişələr başladı.

Şah Vəliyullah bu dönəmdə müsəlman toplumun birliyini həyata keçirmək və onları gücləndirmək üçün təhsil sahəsində, sosyal və dini sahələrdə reformaları inkişaf etdirib həyata keçirməyə başladı. Yaxşı dövlət və əxlaqi bir həyat üçün lazım olan təməl prənsiplərin haqqında yazmış olduğu bir nəçə kitab vardı. Şah Vəliyullahın 1762-ci ilində vəfatından sonra oğulları təhsillə əlaqəli çalışmalarını və digər reformalarını davam etdirdilər. Onun görüşləri Hicazda və Şərqi Asyada da təsirli olmuşdu.

# İstifadə edilən ədəbiyyat siyahısı:

İbnül-Arabi, **Fususul-Hikem**, tercüme Ekrem Demirli, İstanbul: Kabalcı Yayıncılık, 2013.

Mahmut Kaya, **İslam Filozoflarından Felsefe Metinleri**, İstanbul: KLASİK Yayınları, Dokuzuncu Basım, 2013.

Mahmut Kaya, **"Kindi, Yakub b. İshak"**, DİA, İstanbul 2003.

İhan Kutluer, **İbn Sina Ontolojisinde Zorunlu Varlık**, İz Yayıncılık, İstanbul 2002.

Yaşar Aydınlı, **İbn Baccenin İnsan Görüşü**, Marmara Üniversitesi İlahiyat Fakültesi Vakfı Yayınları, İstanbul 1997.

Hüseyin Sarıoğlu, **İbn Rüşd Felsefesi**, Klasik Yayınları, İstanbul 2003.

FARABİ, **İdeal Devlet ( "El-Medinetül Fazıla")**, Tercüme: Ahmet Arslan, Ankara: 4.Baskı, Divan Kitap, 2012.

Ekrem Demirli, **İslam Metafiziğinde Tanrı ve İnsan**, İstanbul: Kabalcı Yayıncılık, 2012.

Editörler: Seyyid Hüseyin Nasır ve Oliver Leaman, **İslam Felsefesi Tarihi, Cilt:1,** Tercüme: Şamil Öçal-Hasan Tuncay Başoğlu, İstanbul: Açılımkitap, 2011.

Editörler: Seyyid Hüseyin Nasır ve Oliver Leaman, **İslam Felsefesi Tarihi, Cilt:2,** Tercüme: Şamil Öçal-Hasan Tuncay Başoğlu, İstanbul: Açılımkitap, 2011.

Editörler: Seyyid Hüseyin Nasır ve Oliver Leaman, **İslam Felsefesi Tarihi, Cilt:3,** Tercüme: Şamil Öçal-Hasan Tuncay Başoğlu, İstanbul: Açılımkitap, 2011.

Ekrem Demirli, **Sadreddin Konevide Bilgi ve Varlık**, İstanbul: İZ YAYINCILIK, 2.Baskı, 2011.

Mahmut Kaya, **Kindi Felsefi Risaleler**, Klasik Yayınları, İstanbul, 2014.

Seyyid Hüseyin Nasr, **Molla Sadra Ve İlahi Hikmet**, Tercüme: Mustafa Armağan, İnsan yayınları,

Robert Wisnovsky, **İbn Sina Metafiziği,** Tercüme: İbrahim Halil Üçler, Klasik Yayınları, İstanbul, 2010.

Farabi, **Harfler Kitabı Kitabul-Hurüf**, Tercüme: Ömer Türker, Litera Yayıncılık, İstanbul, 2008.

Farabi, **Kitabul Burhan**, Tercüme: Ömer Türker, Klasik Yayınları, 2. Baskı İstanbul, 2009.

Nasreddin Tusi, **Felsefe Mektupları**, Fecr Yayınevi, İstanbul, 2015.

Nasreddin Tusi, **Ahlakı Nasır**, Fecr Yayınevi, İstanbul, 2005.

İbrahim Kalın, **Varlık ve İdrak Molla Sadranın Bilgi Tasavvuru**, Klasik Yayınları, İstanbul, 2015.

Mehmet Vural, **İslam Felsefesi Sözlüğü**, Ankara: Elis Yayınları, 2011

Əllamə Məhəmməd Hüseyn Təbatəbai, **Hikmətin Əvvəli (Bidayət-ul-Hikmə)**, Şərh və əlavələr: Rövşən Abdullaoğlu, Qədim Qala, Bakı-2016

Şeyx Əbu Əli İbn Sina, **Ariflərin İrfani Məqamları**, Tərcümə və şərh: Rövşən Abdullaoğlu, Qədim Qala, Bakı-2015.

Şeyx Əbu Əli İbn Sina, **Görüntülər**, Tərcümə və şərh: Rövşən Abdullaoğlu, "Qədim Qala" Nəşriyyat Evi, Bakı-2014.

Voskoboynikov, Valeri, **Böyük Loğman İBN SİNA,** (tercümeyi-hal), (Tərcümə edən: Zeynal Babayev), Bakı: Kitab Klubu, 2014.

Nəsirəddin Tusi, **Əxlaqi-Nasiri,** Bakı: Kitab Klubu, 2016.

Molla Sədra, Fəxr Razi, Əllamə Seyid Hüseyin Birucirdi, Ayətullah Cavadi Amuli, **"O" (Hərf Və İrfan Elmi Əsasında Yazılmışdır),** Bakı, "Qədim Qala" Nəşriyyat evi, 2011

Mətləb Baqir, **"İslam fəlsəfəsi ilə tanışlıq"**, Dəməşq, 2005.

Könül Bünyadzadə, **İslam fəlsəfəsi: tarix və müasirlik,** Bakı, Çaşıoğlu, 2010.

Rafiz Manafov, **İslam Düşüncəsi,** Bakı İslam Universiteti Zaqatala Şöbəsi, Bakı 2007

Hənna Faxuri və Xəlilcər, ərəbcədən tərcümə edən: Əbdül Mühəmməd Ayəti, **Tarixe fəlsəfə dər cahane islam-**تاریخ فلسفه در جهان اسلام **(İslam aləmində fəlsəfə tarixi)**, Tehran: elmi və mədəni əsərlər nəşriyyatı 2002. (Farscadan tərcümə: Kamran Mamedov)

Yəhya Yəsribi, **Hikməte eşraqe Sohravardi-**تاریخ اشراق سهروردی **(Sohravardinin işraq fəlsəfəsi)**, bustane kitab nəşriyyatı 2014. (Farscadan tərcümə: Kamran Mamedov)

Həsən Müəllimi, **fəlsəfeye işraq-** فلسفه اشراق **(işraq fəlsəfəsi)**, Tehran, naşir: hümanitar elmlərlə bağlı araşdırma və kitabların tədvini mərkəzi 2014. (Farscadan tərcümə: Kamran Mamedov)

Həmidrza Rzaniyan, **Kəlam, fəlsəfe və irfan-**کلام، فلسفه و عرفان **(sxolostika, fəlsəfə və ürfan)**, Qum, naşir; Əl-Mustafa beynəl-

xalq araşdırma və tərcümə mərkəzi, 2015. (Farscadan tərcümə: Kamran Mamedov)

Hüseyn Nəsr,ingiliscədən tərcümə edən: **Səlah Əs-savi və Macid Fəxri, sələsətu hukəmai muslimin-** ثلاثة حكماء مسلمين **(üç islam filosofu)**, Beyrut, naşir: darun-nahar 2006. (Farscadan tərcümə: Kamran Mamedov)

Məsud Ümid, **se filsufe mosəlman-** سه فيلسوف مسلمان **(üç müsəlman filosof)**, Tehran, naşir: Sədra İslam fəlsəfəsi birliyi, 2005. (Farscadan tərcümə: Kamran Mamedov)

Əbdülhüseyn Xosrovpənah, Əllamə Təba-təbai, **Filsufe islami və ulume insani-** فيلسوف اسلامى و علوم انسانى **(İslami və insani elmlər filosofu)**Tehran, naşir: islami düşüncə və mədəniyyəti araşdırma mərkəzi, 2010. (Farscadan tərcümə: Kamran Mamedov)

Həsən Müəllimi, Əkbər Mirsepah, Əli Şirvani, Məhəmməd Baqir Qəyyumi, Əsgəri Süleymani, Əli Dejakam və Məhəmmədrza Kaşefi, **Tarixe fəlsəfeye islami-**تاريخ فلسفه اسلامى **(islam tarifi fəlsəfəsi),** Qum, naşir: Beynəlxalq islam elmləri mərkəzi, 2006. (Farscadan tərcümə: Kamran Mamedov).

# Mündəricat


Giriş....................................................................................................3

I_Bölüm

İSLAMDA FƏLSƏFƏ MƏKTƏBLƏRİ..............................................9

İSLAM FƏLSƏFƏSİNİN ORTAYA ÇIXIŞI...................................11

MƏŞŞA FƏLSƏFƏ MƏKTƏBİ ........................................................14

İŞRAQ FƏLSƏFƏ MƏKTƏBİ..........................................................20

Mütəaliyə Fəlsəfə Məktəbi ...........................................................24

II_Bölüm

ORTA ƏSRLƏRDƏ_BÖYÜK İSLAM FİLOSOFLARI...................27

KİNDİ (801- 866) ...............................................................................29

ƏBU BƏKİR ər-RAZİ (864-925)...................................................36

FARABİ (871-950)..............................................................................38

İNSAN......................................................................................................48

ƏMİRİ (....-992).....................................................................................52

İBN SİNA (980-1037) .........................................................................55

QƏZZALİ (1058-1111) ........................................................................71

İBN BACƏ (....-1139)............................................................................74

İBN TUFEYL (....-1185).......................................................................77

İBN RÜŞT (1126-1198).........................................................................78

Nəsrəddin Tusi:........................................................................................87

Filosof-Vəzir Xacə NƏSRƏDDİN TUSİ (1201-1274) ..........87
İBN XƏLDUN (1332-1406) .......... 105
III Bölüm
Orta əsrlərin sonu Yeni dövrün başlanğıcında_İslamda fəlsəfi mühitin təsviri .......... 109
MİR DAMAD .......... 111
MOLLA SƏDRA ŞİRAZİ (1572-1640) .......... 119
IV_Bölüm
Yeni və müasir tarixi dövrdə İslam fəlsəfəsinin ilkin cizgiləri .......... 129
İRAN_(Molla Sədradan Sonrakı Dövr) .......... 131
HİNDİSTAN .......... 136
Mir Fəthullah Şirazi .......... 137
Şeyx Əhməd Sirhindi .......... 138
Molla Əbdülhəkim Siyalkuti .......... 138
Molla Mahmud Cunpuri .......... 139
Mirza Məhəmməd Zahid Hərəvi .......... 140
Şah Vəliyyullah .......... 141
İstifadə edilən ədəbiyyat siyahısı: .......... 142

BÖYÜK İSLAM FİLOSOFLARI

